RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 250 (9995) 26 noyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Dünyanı heyran edən quruculuq



## Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda 177 layihənin təməlini qoyub, 167 obyektin açılışını edib

İlk qayıdış 2022-ci ilin iyulunda "ağıllı kənd" Ağalıya oldu. O vaxtdan bəri isə 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib.

Keçmiş məcburi köçkünlərin geriyə dönüşü üçün postmünaqişə dövründə həyata keçirilən ən vacib təhlükəsizlik və inkişaf tədbirlərindən biri minatəmizləmədir. 2020-2025-ci illər ərzində Azərbaycan Milli Minatəmizləmə Agentliyi (ANAMA) və digər aidiyyəti qurumların, həmçinin yerli şirkətlərin birgə əməliyyatları nəticəsində ümumilikdə 240 min hektardan artıq ərazi təmizlənib, 227 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib.

Əhalinin qayıdışı "Böyük qayıdış" proqramına əsasən həyata keçirilir. Burada məqsəd yalnız fiziki məskunlaşma deyil, həm də sosial, iqtisadi və ekoloji baxımdan dayanıqlı yaşayış məntəqələrinin yaradılmasıdır. Odur ki, beş il əvvəl geniş tədbirlər də məhz ən zəruri infrastrukturun yaradılmasından start götürdü.

Hər bir inkişaf yoldan başlanır. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizdə nəqliyyat infrastrukturu üzrə böyük layihələrin icra olunması təsadüfi deyil. Belə ki, burada avtomobil yolları infrastrukturunda 60 layihə üzrə 3501,6 kilometr yolun tikintisi nəzərdə tutulub, bunlardan 16 layihə tam, 1 layihə qismən başa çatıb. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq yekunlaşıb.

İndiyədək Füzuli, Zəngilan və Laçında beynəlxalq standartlara uyğun hava limanları inşa edilərək istifadəyə verilib. Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti tam istifadəyə verilib. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün inşası planlaşdırılıb və onlardan 42-sinin tikintisi başa çatıb, 3 körpü isə istismara verilib.

İşğaldan azad edilmiş yurd yerlərinin işığı da gur yanır. İlk günlərdən və indiyədək artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında elektrik enerjisi infrastrukturunun genişmiqyaslı şəkildə bərpası aparılıb.

9

## Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcərin işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər Tariximiz: 25 Noyabr 2020-ci il Kəlbəcər" sözləri yer alıb.

## Mərkəzi Asiya və Qafqazın artan geosiyasi və geoiqtisadi üstünlükləri



Daşkənd razılaşması Azərbaycanın postmünaqişə dövrü xarici siyasət kursunda, çoxtərəfli diplomatik müstəvidə Prezident İlham Əliyevin strateji baxışlarına uyğun atılan növbəti uğurlu addımdır. Azərbaycan Prezidentinin Daşkənd görüşündə dediyi sözlərlə ifadə etsək, "Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur". Bu format mövcud siyasi, iqtisadi, enerji və nəqliyyat potensialından daha optimal formada və dinamik şəkildə istifadə imkanları yaradır.

Regional problemlərin həllində ümumi yanaşmaların işlənib hazırlanmasında yeni format müəyyən bir funksiyaya malik olacaq.

5

## COP29-dan fərqli olaraq, COP30 əsas hədəflərə çata bilmədi




COP29-dan fərqli olaraq, ciddi təşkilati nöqsanlar, təhlükəsizlik problemləri ilə təşkil edilən beynəlxalq iqlim konfransında gərgin şəraitdə keçən danışıqlar prosesinin sonunda COP30-un əsas hədəflərindən biri olan qalıq yanacaqlardan istifadəyə qlobal səviyyədə son qoyulması məsələsi ölkələrin ciddi qarşıdurması ilə nəticələndiyinə görə, yekun qərar mətnindən çıxarıldı.

5




## 30 illik inkişafın hüquqi bazası

Azərbaycan Respublikasının Konstitusiyasında dövlətin ərazi bütövlüyü və suverenliyi prinsipləri xüsusi vurğulanmışdır. Bu aspekt ölkənin müstəqilliyini və daxili-xarici siyasətdə öz mövqeyini saxlamasını hüquqi baxımdan təkmilləşdirdi. Müstəqil dövlətimizin Əsas Qanununun qəbul edildiyi gün - 12 Noyabr uzun illərdir ki, ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir. Həmin gün yalnız hüquqi təntənə deyil, həm də dövlətçilik şüurunun artırılması, vətəndaşlıq məsuliyyətinin formalaşması baxımından simvolik məna daşıyır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əsas Qanunumuzun qəbulundan 30 il ötməsini nəzərə alaraq 2025-ci ili ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan etmişdir. Bu, çox mühüm tarixi-ideoloji əhəmiyyətə malikdir. Bu, təkcə keçmişə baxış deyil, gələcəyə yönəlmiş bir çağırışdır. Azərbaycan 2020-ci ilin Vətən müharibəsindəki Zəfərimizdən və 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatından sonra ərazi bütövlüyünü, suverenliyini tam təmin etmişdir. Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının əsas prinsiplərindən biri də bərqərar olmuşdur.

7

## D-8 ölkələri mediada birgə güc formalaşdırır




Prezident İlham Əliyevin ardıcıl və praqmatik xarici siyasətinin nəticəsi olan bu qərar D-8-in yaranmasından bəri baş tutan ilk genişlənmə kimi xüsusi siyasi önəm daşıdı və beynəlxalq aləmdə ciddi rezonans yaratdı. Bakıda reallaşan "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu isə bu tarixi addımın davamı olaraq yeni əməkdaşlıq imkanlarının formalaşmasına şərait yaratdı. Forum iştirakçı ölkələr arasında möhkəm dostluğun, etibarlı tərəfdaşlığın və qarşılıqlı inamın real təzahürü kimi çıxış edərək gələcək birgə təşəbbüslər üçün güclü platforma rolunu oynadı.

Qlobal informasiya məkanında media mühitinin sürətlə dəyişdiyi bir dövrdə dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, "deepfake"lər və süni intellektdən sui-istifadə kimi risklər durmadan artır. Bu şəraitdə D-8 Media Forumunun ən mühüm vəzifələrindən biri doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulmasına xidmət etməkdir. Bunun üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

3



## Gələn il sosial rifah və strateji inkişaf siyasəti davam edəcək

2026-cı il dövlət büdcəsinin parametrləri formalaşdırılarkən ölkənin makroiqtisadi sabitliyinin qorunması, sosial öhdəliklərin tam yerinə yetirilməsi və iqtisadi inkişafın təşviq edilməsi əsas götürülüb. Qeyd etdiyimiz iqtisadi və sosial hədəflər dövlət büdcəsinin proqnozlaşdırılmış gəlir və xərclər strukturunda daha aydın görünür. Xatırladaq ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard, xərcləri 41,7 milyard manat məbləğində nəzərdə tutulur. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat və ya ÜDM-in 2,3 faizi səviyyəsində proqnozlaşdırılır. Qanun layihəsinə əsasən, dövlət büdcəsinin xərcləri növbəti il üçün proqnozlaşdırılan ÜDM-ə nisbətdə 31,1 və gəlirləri 28,8 faiz təşkil edəcək.

9

# "Ərzaq təminatı xəritəsi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Ərzaq təminatı xəritəsi" informasiya sistemi yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. "Ərzaq təminatı xəritəsi" informasiya sistemi (bundan sonra - Sistem) ölkədə ərzaq təminatı sahəsində mövcud vəziyyətin müəyyən edilməsini, bunun əsasında qərarların qəbul edilməsi üçün etibarlı və dayanıqlı informasiyanın yaradılmasını, toplanılmasını, işlənilməsini, saxlanılmasını, axtarışını və məlumatlara əlçatanlıq səviyyəsinin artırılmasını təmin edir;

2.2. Sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Ərzaq təminatı xəritəsi" informasiya sistemi haqqında əsasnaməni üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Sistemin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Sistemin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

# Bruney Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiaha

Əlahəzrət!

Azərbaycan Respublikası ilə Bruney Darüssalam arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

Otuzillik dövr ərzində ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün əlverişli imkanlar açmışdır.

Biz Bruney Darüssalam ilə dövlətlərarası münasibətlərimizi genişləndirmək və əməkdaşlığımızı yeni məzmunla zənginləşdirmək əzmindəyik. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Bruney Darüssalam arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu!

Zati-aliləri!

Bruney Darüssalam ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə zati-alinizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Son otuz il ərzində ölkələrimiz arasında qarşılıqlı hörmət, anlaşma və ortaq dəyərlər əsasında səmimi və möhkəm dostluq münasibətləri formalaşıb. Əminəm ki, bu sıx münasibətlər qarşıdakı illərdə daha da güclənəcəkdir.

Həmçinin ölkələrimizin, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində yeni əməkdaşlıq imkanlarını araşdırmaq üçün birlikdə çalışmasını səbirsizliklə gözləyirəm. Bu mühüm qurumlarda birgə səylərimiz xalqlarımızın və çox geniş qlobal birliyin rifahı naminə sülhün, harmoniyanın və davamlı inkişafın daha da möhkəmlənməsinə olan ortaq öhdəliyimizi əks etdirir.

Bu əlamətdar hadisəni qeyd etdiyimiz zaman Allah-taala zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah nəsib etsin.

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruney Darüssalamın Sultanı***

# "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 557 (Cild I); 2024, № 1, maddə 25) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə, 5.1-ci və 5.2-ci bəndlərdə "1-4" rəqəmləri "1-5" rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmana aşağıdakı məzmunda 5 nömrəli əlavə - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi "Bakı şəhər Qaradağ rayonu Ələt qəsəbəsinin inzibati ərazisində kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid, dövlət mülkiyyətində olan ərazidən Ələt Azad İqtisadi Zonasına ayrılması nəzərdə tutulan (V hissə) 1453,09 hektar torpaq sahəsinin yerquruluşu planı" əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

# Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri zati-aliləri cənab Jelko Komşiçə

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında əlaqələrin yüksələn xətt üzrə inkişafı məmnunluq doğurur. Daim artan siyasi təmaslarımız və fəal dialoqumuz bir sıra sahələrdə səmərəli qarşılıqlı fəaliyyətimiz ilə müşayiət olunur.

Əminəm ki, xalqlarımızın dostluğundan qaynaqlanan Azərbaycan-Bosniya və Herseqovina münasibətləri bundan sonra da birgə səylərimizlə inkişaf etməyə, əməkdaşlığımız möhkəmlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2025-ci il*

# TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumu Naxçıvanda davam edib



**Noyabrın 25-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumu Naxçıvan şəhərində davam edib.**

AZƏRTAC xəbər verir ki, forumda Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva çıxış edib. Bildirib ki, son illər türk dövlətləri ilə birgə layihələr silsilə xarakter almaqdadır: "Ötən üç il ərzində biz Özbəkistan, Türkiyə, Şimali Kipr Türk Respublikası və digər qardaş türk dövlətlərində fəaliyyət göstərən QHT-lərlə və tərəfdaş qurumlarla bir sıra vacib layihələr həyata keçirmişik. Bunlara Azərbaycan-Türkiyə, Azərbaycan-Özbəkistan, Özbəkistan-Azərbaycan formatlarında baş tutan QHT-lərin əməkdaşlıq forumlarını, COP29 çərçivəsində Bakıda keçirilən "Türk Dövlətlərinin Vətəndaş Cəmiyyəti Forumu"nu misal gətirə bilərik. Dünən isə ilk dəfə "Azərbaycan-Qazaxıstan QHT-lərinin I Əməkdaşlıq Forumu" baş tutdu. Əminəm ki, bu formatda ikinci forumu tezliklə Qazaxıstanda da reallaşdıra biləcəyik".

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, 2009-cu ildə "Naxçıvan Sazişi"nin imzalandığı şəhərdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Həmrəylik Forumunun keçirməsi rəmzi məna daşıyır: "Naxçıvanın vətəndaş cəmiyyəti təmsilçiləri də türk dövlətləri ilə əməkdaşlığın genişləndirilməsində xüsusilə maraqlıdır. Muxtar respublikanın QHT-ləri regional təşəbbüslərə qoşulmağa, ortaq layihələrdə iştirak etməyə və türk dünyasının birliyinə öz töhfələrini verməyə böyük həvəs göstərirlər". Ceyhun Cəlilov onu da vurğulayıb ki, Zəngəzur dəhlizinin Naxçıvan hissəsində avtomobil yolu, dəmir yolu, enerji və kommunikasiya xətlərinin tikintisi üzrə hazırlıq işləri sürətləndirilib və artıq son mərhələyə keçilib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvana göstərdiyi ardıcıl diqqət və qayğı bu qədim diyarın inkişafını sürətləndirən başlıca amildir. Məhz bu diqqətin nəticəsi olaraq Naxçıvan bu gün təkcə region səviyyəsində deyil, bütövlükdə türk coğrafiyasında yeni inkişaf modelinin nümunəsinə çevrilir".

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev qeyd edib ki, bu gün qədim Naxçıvan torpağında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-ləri ilk dəfə vahid platformaya çıxır: "Bu, bütün türk dünyasının fərəhli, tarixi günüdür, böyük xoşbəxtlikdir! Biz ümumi işimizlə elə etməliyik ki, qarşıdakı dövrdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası arasında tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə QHT-lər üçün ikitərəfli, həm də çoxtərəfli əsasda qrant müsabiqələri geniş vüsət alsın. Azərbaycan tərəfi olaraq biz bu istiqamətdə həmkarlamızla işçi danışıqlara günü bu gün başlamağa, qısa müddətdə müsabiqələri təşkil etməyə, təşəbbüsləri dəyərləndirməyə hazırıq".

Forum panel müzakirələrlə davam edib.

# Baş prokuror Rumıniyada işgüzar səfərdədir

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti rumıniyalı həmkarı Aleks Florentanın dəvətilə noyabrın 23-də Buxarest şəhərinə işgüzar səfərə gedib.**



Əvvəlcə nümayəndə heyəti Buxarest şəhərində Tey Parkında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə əklil qoyub və Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib.

Bundan sonra Rumıniyanın Baş Prokurorluğunda görüş keçirilib.

Baş prokuror Kamran Əliyev qarşı tərəfə dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Rumıniya istər siyasi, istərsə də iqtisadi sahədə Azərbaycanın əsas tərəfdaşlarından biridir və ötən müddət ərzində ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində daha da inkişaf edərək strateji xarakter alıb.

Daha sonra 2024-cü ilin oktyabr ayında iki ölkənin prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu qeyd edilərək cinayətkarlığın müxtəlif formalarına, o cümlədən korrupsiyaya qarşı mübarizə, ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, həmçinin qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Aleks Florenta qurumlararası tərəfdaşlıq münasibətlərinin yüksələn xətt üzrə inkişafından məmnunluğunu ifadə edərək, ötən il ərzində Azərbaycana etdiyi işgüzar səfərin xüsusilə yaddaqalan olmasını qeyd edib.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Rumıniyanın ədliyyə naziri Radu Marinesku arasında da ikitərəfli görüş keçirilib.

Görüşdə ölkələr arasında müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında dinamik inkişaf edən əlaqələrdən məmnunluq ifadə olunub.

Tərəflər hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, beynəlxalq və regional təşkilatlar çərçivəsində, eləcə də ölkələrimizin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın hüquqi bazası ətrafında fikir mübadiləsi aparıblar.

Bundan sonra nümayəndə heyəti Rumıniya Parlamentinin Senatının sədr müavini Robert Cazancuiclə görüşüb.

Senat sədrinin müavini qeyd edib ki, Rumıniya ilə Azərbaycan arasındakı əlaqələr qarşılıqlı etimad və səmimi dostluq prinsiplərinə əsaslanır. Bu çərçivədə dövlət başçılarının qarşılıqlı səfərləri, həmçinin parlamentlərarası əlaqələrin yüksək dinamikası vurğulanıb.

Baş prokuror yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək bildirib ki, enerji, nəqliyyat və rəqəmsal texnologiyalar sahələrində birgə layihələrin icrası ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin əyani sübutudur.

Görüşlərdə Azərbaycan Respublikasının Rumıniyadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov da iştirak edib.

Səfər çərçivəsində həmçinin baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin Rumıniyadakı səfirliyini ziyarət edərək, səfirliyin heyəti ilə görüşüb, iş şəraiti ilə maraqlanıb.

# Energetika Nazirliyində vətəndaşlarla görüş keçirilib

**Energetika naziri Pərviz Şahbazov Bakı, Sumqayıt şəhərləri və Göyçay rayonundan olan vətəndaşların müraciətlərini dinləyib.**




Energetika Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazirlikdə təşkil olunmuş görüş zamanı qaz təchizatı, qaz sərfiyyatı üzrə borcun yaranması, elektrik və istilik enerjisi təchizatı, elektrik və qaz sayğaclarının quraşdırılması, işlə təminat və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet saytında yerləşdirilib.

## Milli Məclisin iclasında

# Zabitlərin həqiqi hərbi xidmətkeçmə qaydaları təkmilləşdirilir

**Noyabrın 25-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda 14 məsələ müzakirə olunub. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova ilk 8 məsələnin hökumətlərarası sazişlərin təsdiq edilməsi barədə qanun layihələri olduğunu bildirib. Spiker qeyd edib ki, "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun tələbinə uyğun olaraq həmin qanun layihələri bir oxunuşda baxılaraq qəbul ediləcək.**




Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rizvan Nəbiyev "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında ümumvətəndaş pasport sahiblərinin viza tələbindən qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Sazişə əsasən, hər bir tərəfin etibarlı ümumvətəndaş pasportlarına malik olan vətəndaşları digər tərəfin ərazisinə daxil olmaq, oradan çıxmaq və ya tranzit keçmək və giriş tarixindən etibarən 90 gündən artıq olmayaraq orada qalmaq üçün viza tələbindən azad edilir. Göstərilən müddətdən daha çox qalmaq, yaxud işləmək, təhsil müəssisəsində təhsil almaq və ya işgüzar fəaliyyətlə məşğul olmaq istəyən etibarlı ümumvətəndaş pasportlarına malik olan hər bir tərəfin vətəndaşları isə digər tərəfin ərazisinə daxil olmazdan öncə həmin tərəfin dövlətinin milli qanunvericiliyi ilə tələb olunan viza əldə etmək öhdəliyini daşıyırlar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov "Azərbaycan Respublikası Hökuməti ilə Anqola Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd edilib ki, Sazişin məqsədi hər iki dövlətin diplomatik və xidməti pasport sahibləri olan vətəndaşlarının qarşılıqlı səyahətlərini asanlaşdırmaqdan ibarətdir. Tərəflər milli təhlükəsizlik, ictimai asayiş və ya ictimai sağlamlıq səbəbləri ilə bu Sazişin tətbiqini müvəqqəti olaraq, tamamilə və ya qismən dayandırmaq hüququna malikdirlər.

Bu qanun layihəsi də səsə qoyularaq qəbul edilib.

İclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxış edərək, parlament nümayəndə heyətinin ABŞ-yə səfəri barədə məlumat verib. O, səfər çərçivəsində ABŞ Konqresinin üzvləri ilə bir sıra görüşlərin keçirildiyini söyləyib. Qeyd edib ki, görüşlərdə cari il avqustun 8-də Vaşinqtonda baş tutan danışıqların tarixi əhəmiyyəti vurğulanıb, Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Söhbətlər zamanı ABŞ-də müxtəlif səviyyələrdə Azərbaycan Prezidentinin dövlətçiliyin və müstəqilliyin qorunması, dayanıqlı inkişafın təmin edilməsi, milli maraqların müdafiəsi məsələlərində yürütdüyü siyasətin müsbət dəyərləndirildiyini bildirib.

Səməd Seyidov bu səfərin yüksək səviyyədə təşkilinə göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Sonra komitə sədri "Azərbaycan Respublikası Hökuməti ilə Bəhreyn Krallığı Hökuməti arasında diplomatik pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Sazişə görə, etibarlı diplomatik pasporta malik Azərbaycan Respublikasının və Bəhreyn Krallığının vətəndaşları digər tərəfin ərazisinə onların ilk giriş günündən hər 180 gün ərzində 90 gündən çox olmayan müddətə viza tələbləri olmadan daxil ola, oradan çıxa, tranzit keçə və orada qala bilərlər. Sazişdə göstərilən müddətdən artıq qalmaq istəyən diplomatik nümayəndəliyin və ya konsulluğun işçiləri kimi təyin edilmiş etibarlı diplomatik pasportlara malik olan hər bir tərəfin vətəndaşları, o cümlədən onların ailə üzvləri, digər tərəfin ərazisinə daxil olmamışdan əvvəl həmin tərəfin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq viza alırlar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Pərvanə Vəliyeva "Azərbaycan Respublikası Hökuməti ilə Cibuti Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, Sazişin məqsədi hər iki dövlətin etibarlı diplomatik və xidməti pasportlara malik olan vətəndaşlarının səyahətlərini asanlaşdırmaqdır.

Qanun layihəsi qəbil edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Gülşən Paşayeva isə "Azərbaycan Respublikası Hökuməti ilə Dominikan Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, Sazişdə qeyd edilən etibarlı pasportlara sahib olan şəxslərin razılığa gələn dövlətin ərazisinə girmək, çıxmaq və ya tranzit keçmək və hər 180 gün ərzində 90 gündən çox olmayan müddət ərzində orada qalmaq üçün vətəndaşların viza tələbindən azad edilməsinə dair əsas müddəalar nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nigar Məmmədova "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya-Bisau Respublikası Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumatı nəzərə çatdırıb. O, sənədin qarşılıqlı rəsmi səfərlərin sadələşdirilməsi, dövlətlərarası münasibətlərin gücləndirilməsi, diplomatik və işgüzar fəaliyyətin asanlaşdırılması baxımından əhəmiyyətini qeyd edib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda çıxış edən deputat Qaya Məmmədov bu yaxınlarda ATƏT Parlament Assambleyasının İstanbulda keçirilmiş 23-cü payız sessiyası çərçivəsində Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında keçirilmiş ikitərəfli görüş barədə danışıb. Bu görüşün hər iki ölkənin parlament sədrlərinin cari ilin oktyabrında Cenevrə şəhərində keçirilmiş görüşündə əldə olunmuş razılaşma əsasında baş tutduğunu, söhbətdə parlamentlərin sülh prosesinə dəstəyi ilə bağlı fikir mübadiləsinin aparıldığını bildirib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elçin Mirzəbəyli "Azərbaycan Respublikası Hökuməti ilə Surinam Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Deputat diqqətə çatdırıb ki, bu addım rəsmi nümayəndə heyətlərinin səfərlərini asanlaşdırır, iki ölkə arasında siyasi dialoqun intensivləşməsinə, diplomatik əlaqələrin və ikitərəfli əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

Müzakirələr zamanı çıxış edən deputatlar Aydın Hüseynov, Sahib Alıyev məsələyə münasibət bildirərək Azərbaycanın dünyada nüfuzunun daha da artdığını, etibarlı tərəfdaş kimi tanındığını, bu prosesdə parlamentin fəaliyyətinin əhəmiyyətli rol oynadığını vurğulayıblar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsindən bəhs edib. Bildirib ki, Sazişdə əsas anlayışlar, səlahiyyətli orqanlar, məxfilik dərəcələri, buraxılışların verilməsi və ötürülməsi, məxfi müqavilələrin imzalanması, qarşılıqlı səfərlər, xərclər və mübahisələrin həlli ilə bağlı müddəalar öz əksini tapıb. Sənəd iki dövlət arasında informasiya təhlükəsizliyi, kibermühafizə və müdafiə sahəsində əməkdaşlığın daha sistemli və etibarlı əsasda inkişafına xidmət edir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Tural Gəncəliyev məsələ barədə bu komitənin müsbət rəyini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun layihəsi, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda son olaraq "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Məsələ ilə bağlı məlumat verən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, Silahlı Qüvvələrin hazırda yüksək tələbat duyulan bəzi ixtisaslara malik kadrlarla təmin olunması və səfərbərlik ehtiyatlarının zabit heyəti ilə gücləndirilməsi üçün mövcud qanunvericilikdə dəyişikliklərə ehtiyac yaranıb.

Qeyd olunub ki, hazırkı qanunvericiliyə görə, ali təhsilli çağırışçılar 1 il müddətli hərbi xidmət keçdikdən sonra zabit hazırlığı kursunu bitirməklə daha 1 il 6 ay müqavilə ilə zabit kimi xidmət edə bilərlər. Bu isə, ümumilikdə 2 il 6 ay xidmət deməkdir və nəticədə gənclərin zabit kimi xidmətə marağının azalmasına səbəb olur.

Müzakirəyə təqdim edilən qanun layihəsi məhz zabitlərin həqiqi hərbi xidmətkeçmə qaydalarının və bir sıra normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Belə ki, layihədə ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılan və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlərin dinc dövrdə həqiqi hərbi xidmət müddətinin 6 ay azaldılaraq 1 il müəyyən edilməsi nəzərdə tutulur. Eyni zamanda müddətli həqiqi hərbi xidmət dövründə zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olan ali təhsilli müddətli həqiqi hərbi xidmət qulluqçularına leytenant rütbəsinin verilməsi təklif olunur. Bundan başqa, sənəddə qanunvericiliyə və normayaratma texnikasının tələblərinə uyğun olaraq bir sıra normaların uyğunlaşdırılması, ifadələrin dəqiqləşdirilməsi və texniki xarakterli dəyişikliklərin edilməsi də nəzərdə tutulur.

Arzu Nağıyev vurğulayıb ki, qanun layihəsinin qəbul edilməsi Silahlı Qüvvələrin peşəkar zabit heyəti ilə, xüsusilə də yüksək tələbat olan ixtisaslara malik olan hərbi qulluqçularla komplektləşdirilməsinə əhəmiyyətli töhfə verməklə yanaşı, zabit kimi 1 il hərbi xidmət keçmiş daha hazırlıqlı şəxslərin hesabına səfərbərlik ehtiyatının təkmilləşdirilməsinə xidmət edəcək.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# D-8 ölkələri mediada birgə güc formalaşdırır

**D-8 Media Forumu inkişaf etməkdə olan ölkələr arasında media əməkdaşlığını gücləndirməyi, informasiya mübadiləsini genişləndirməyi və qlobal media məkanında birgə mövqelərin formalaşdırılmasını hədəfləyən mühüm platformadır. Bu forum üzv ölkələrin media nümayəndələrini bir araya gətirərək həm müasir çağırışların müzakirəsinə, həm də qarşılıqlı təcrübə mübadiləsinə geniş imkan yaradır. 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini və mədəni dəyərlərə sahibdirlər. Bu gün artıq üç qitəni birləşdirən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi strateji sahələrdə irəliləyiş üçün geniş imkanlar təqdim edir.**



Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ötən ilin dekabrın 19-da Misirin paytaxtı Qahirədə keçirilən İnkişaf etməkdə olan səkkiz ölkənin (D-8) XI sammitində Azərbaycan yekdilliklə təşkilata üzv qəbul edilib. Prezident İlham Əliyevin ardıcıl və praqmatik xarici siyasətinin nəticəsi olan bu qərar D-8-in yaranmasından bəri baş tutan ilk genişlənmə kimi xüsusi siyasi önəm daşıdı və beynəlxalq aləmdə ciddi rezonans yaratdı. "Bakıda reallaşan "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu isə bu tarixi addımın davamı olaraq yeni əməkdaşlıq imkanlarının formalaşmasına şərait yaratdı. Forum iştirakçı ölkələr arasında möhkəm dostluğun, etibarlı tərəfdaşlığın və qarşılıqlı inamın real təzahürü kimi çıxış edərək gələcək birgə təşəbbüslər üçün güclü platforma rolunu oynadı", - deyə deputat əlavə edib.

K.Bayramov diqqətə çatdırıb ki, qlobal informasiya mühitinin çağırışları fonunda, Prezident İlham Əliyev "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda keçirilən D-8 Media Forumunun iştirakçılarına müraciətində bildirib ki, Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir: "Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq, jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik. Bugünkü forum dost ölkələrin media qurumları arasında qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkanlar yaradan yeni əməkdaşlıq müstəvisidir. İnanıram ki, burada səslənəcək ideyalar, təkliflər və irəli sürüləcək birgə layihə təşəbbüsləri gələcəkdə D-8 ölkələrinin informasiya siyasətində mühüm rol oynayacaqdır".

Deputat vurğulayıb ki, dövlət başçısının bu fikirləri, eləcə də forumun məqsədləri media sahəsində əməkdaşlığın zəruriliyini daha aydın nümayiş etdirir və qarşıdakı müzakirələr üçün məntiqli bir çərçivə yaradır: "Qlobal informasiya məkanında media mühitinin sürətlə dəyişdiyi bir dövrdə dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, "deepfake"lər və süni intellektdən sui-istifadə kimi risklər durmadan artır. Bu şəraitdə D-8 Media Forumunun ən mühüm vəzifələrindən biri doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulmasına xidmət etməkdir. Bunun üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir".

K.Bayramov əlavə edib ki, D-8 Media Forumunda aparılan müzakirələr və irəli sürülən təşəbbüslər üzv ölkələrin informasiya siyasətində qarşılıqlı etimad, əməkdaşlıq və düzgün informasiya mübadiləsinin artıq strateji bir zərurətə çevrildiyini göstərir. Bu platforma həm dezinformasiyaya qarşı birgə mübarizə, həm də media sahəsində dayanıqlı əməkdaşlığın qurulması baxımından mühüm addım olmaqla, gələcək regional və qlobal proseslərdə D-8 ölkələrinin informasiya gücünü daha da artıracaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Nayrobidə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına hazırlıq işləri barədə məlumat verilib

**Noyabrın 25-də Nayrobidə akkreditə olunmuş beynəlxalq təşkilatlar və diplomatik korpus nümayəndələri üçün brifinq keçirilib.**




Bu barədə AZƏRTAC-a Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib.

İştirakçılara 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı hazırlıq işləri və ümumi fəaliyyət planı barədə məlumat verilib.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) İcraiyyə Şurasının 3-cü sessiyası ilə paralel keçirilən bu brifinqin məqsədi diplomatik korpuslar, Azərbaycan Hökuməti və UN-Habitat arasında həm WUF13, həm də onun proqnozlaşdırılan nəticələrinə dəstək göstərmək məqsədilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsidir.

Azərbaycan Respublikasının Keniya və Konqoda fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Nayrobidə daimi nümayəndəsi Sultan Hacıyevin moderatorluğu ilə keçirilən brifinq zamanı UN-Habitatın icraçı direktoru Anaklaudia Rossbax və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev həm forumda fəal iştirak, həm də milli və institusional tərəfdaşların səfərbər olunmasına dəstək göstərilməsi ilə bağlı çağırış ediblər.

Anar Quliyev prosesdə tərəflərin əməkdaşlıqda iştirakının önəmini qeyd edib, həmkarlarını 2026-cı ildə Bakıda keçiriləcək qlobal şəhərsalma tədbirində şəhər sakinlərinin həyatını yaxşılaşdıracaq həllərin hazırlanmasında fəal iştiraka çağırıb.

# Azərbaycan Avrasiyada ABŞ üçün strateji dayaq nöqtəsinə çevrilir

**"Avrasiyanın inkişaf trayektoriyasında strateji mövqeyə malik Azərbaycan bu gün müxtəlif qlobal güclərin diqqət mərkəzindədir. Azərbaycanın coğrafi mövqeyi, nəqliyyat-kommunikasiya imkanları və formalaşdırdığı praqmatik xarici siyasət xətti ölkənizi regionda irəliləyən geosiyasi və geoiqtisadi proseslərin əsas oyunçularından birinə çevirib".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında irlandiyalı tarixçi Patrik Uolş deyib. O bildirib ki, ABŞ-də Tramp administrasiyasının formalaşdırdığı yanaşma əvvəlki dövrlərdən fərqli olaraq daha az ideoloji, daha çox biznesyönümlü xarakter daşıyır.

Tarixçinin sözlərinə görə, Donald Tramp Avrasiyada sürətlə inkişaf edən regionlarda ABŞ-nin iqtisadi iştirakını genişləndirməyə böyük maraq göstərir. "Tramp administrasiyasının məqsədi bölgədə rentabelli iqtisadi əməkdaşlıqdan pay almaqdır. Bu, ABŞ-nin Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində daha praqmatik siyasət aparmasına imkan yarada bilər", - deyə o vurğulayıb.

Ekspertin fikrincə, əvvəlki administrasiyanın addımları Rusiya və Çində ciddi narahatlıq doğurmuş, nəticədə kiçik dövlətlərin balanslaşdırılmış xarici siyasət yürütməsini çətinləşdirən mühit yaranmışdı. Əgər ABŞ Ukrayna və Yaxın Şərqdə gərginliyi azalda bilsə, bu bütün Avrasiya məkanında daha əlverişli mühit formalaşdıracaq.

"Trampın təşəbbüsü ilə yaradılması nəzərdə tutulan "Tramp Körpüsü" müxtəlif maraq qrupları arasında iqtisadi inteqrasiyanı dərinləşdirə, bir-biri ilə ziddiyyət təşkil edən gücləri qarşılıqlı faydalı əməkdaşlıq formatına çəkə bilər. Artıq XXI əsrin əsas hərəkətverici qüvvəsi Asiyanın demoqrafik dinamikasıdır və inkişaf prosesləri də məhz buradan başlanır", - deyə Patrik Uolş qeyd edib.

O əlavə edib ki, gələcək qlobal rəqabətin ABŞ ilə Çin arasında formalaşacağı ehtimal olunur və bu kontekstdə Vaşinqtonun Avrasiyanın qərb hissəsində strateji dayaq nöqtəsinə malik olması xüsusi əhəmiyyət kəsb edir. "Azərbaycan Çin-Avropa, həmçinin Rusiya-İran istiqamətlərinin kəsişməsində yerləşən unikal geostrateji məkan kimi ABŞ üçün mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən Vaşinqtonun Bakı ilə əməkdaşlığı genişləndirməyə böyük maraq göstərməsi tamamilə təbiidir", - deyən tarixçi fikrini tamamlayıb.

# Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında beynəlxalq platformalar çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub

**Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Vatikana rəsmi səfəri çərçivəsində Müqəddəs Taxt-Tacın dövlət və beynəlxalq təşkilatlar üzrə katibi arxiyepiskop Riçard Qallager ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri, regional və beynəlxalq məsələlər, habelə beynəlxalq platformalar çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.



Azərbaycan və Müqəddəs Taxt-Tac arasında əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi naminə son zamanlar yüksəksəviyyəli səfərlərin artan dinamikasının qorunub saxlanılmasının vacibliyi diqqətə çatdırılıb. Bu çərçivədə Azərbaycan Respublikasının Prezidentinin Vatikana rəsmi səfərləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın cari ilin oktyabr ayında Müqəddəs Taxt-Taca baş tutmuş səfəri və səfər çərçivəsində həyata keçirilmiş görüşlərin və tədbirlərin əhəmiyyəti vurğulanıb.

Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Taxt-Tacda indiyədək həyata keçirilmiş və gələcəkdə icrası planlaşdırılan humanitar xarakterli mühafizə və bərpa layihələri məmnunluqla xatırlanıb. Mehriban xanım Əliyevanın Vatikana səfəri zamanı Avropanın ən böyük pediatrik xəstəxanası və tədqiqat mərkəzi olan "Bambino Gesu"nu ziyarəti və ölkəmizlə bu sahədə əməkdaşlıq əlaqələrinin əhəmiyyəti qeyd olunub. Bununla yanaşı, Papa II İoann Pavelin 2002-ci ildə, Papa Fransiskin 2016-cı ildə ölkəmizə səfərləri, Bakıda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdimetmə mərasimi və hazırda kilsənin tikilməsi məmnunluqla xatırlanıb.

2027-ci ildə qeyd ediləcək diplomatik münasibətlərin təsis edilməsinin 35 illiyinin münasibətlərin inkişafına əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Azərbaycanın dini tolerantlıq, mədəniyyətlərarası və etiqadlararası dialoq sahəsindəki uğurları, ölkəmizdə xristian məbədləri də daxil olmaqla, dini abidələrin bərpası və qorunması üzrə görülən işlər haqqında danışılıb.

Azərbaycanın müxtəlif din və mədəniyyətlərin bir arada yaşadığı ölkə kimi apardığı uğurlu siyasətin beynəlxalq sülhə və anlaşmaya töhfəsi qeyd edilib.

Bununla yanaşı, qlobal iqlim dəyişmələrindən narahatlıq ifadə olunub, ölkəmizin COP29 sədri olaraq gördüyü işlər və təşəbbüsləri barədə qarşı tərəfə məlumat verilib. Bununla yanaşı, ölkəmizin enerji təhlükəsizliyinə töhfəsi, nəqliyyat dəhlizlərinin inkişafında rolu, Orta Asiya ölkələri ilə əlaqələr barədə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov görüş zamanı qarşı tərəfə Azərbaycan-Ermənistan normallaşma prosesi, tarixi Vaşinqton Zirvəsi zamanı əldə edilmiş razılaşmalar və onların icrası istiqamətində həyata keçirilən əməli tədbirlər, münaqişədən sonra regionumuzdakı inkişaflar barədə ətraflı məlumat verib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov Vatikanda Müqəddəs Taxt-Tacın Dövlət katibi ilə görüşüb

**Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Vatikana rəsmi səfəri çərçivəsində Müqəddəs Taxt-Tacın Dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətlərin mövcud gündəliyi, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycanın Müqəddəs Taxt-Tac ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyi diqqətə çatdırılıb, son zamanlar Azərbaycandan Müqəddəs Taxt-Taca baş tutan çoxsaylı yüksəksəviyyəli səfərlərin bunun bariz nümunəsi olduğu bildirilib.

Bu çərçivədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca cari ilin oktyabr ayında həyata keçirilmiş səfərinin əlaqələrimizin qarşılıqlı anlaşma və ortaq dəyərlər əsasında daha da möhkəmlənməsinə təkan verdiyi vurğulanıb. Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Taxt-Tacda həyata keçirilən mühafizə və bərpa layihələrinin humanitar sahədə əməkdaşlığımız üçün körpü rolunu oynadığı qeyd edilib.



Azərbaycan ərazisində yaşayan bütün etnik və dini icmaların hüquq və təhlükəsizliyinin təmin edildiyi bildirilib, ölkəmizin çoxəsrlik multikulturalizm və tolerantlıq ənənələrindən danışılıb.

Dini etiqadların universal insani dəyərlər və qlobal həmrəyliyin təşviqindəki mühüm roluna toxunulub, bu çərçivədə dinlərarası dialoqun daha da dərinləşdirilməsinin, eləcə də mədəni-humanitar sahədə müştərək layihələrin təşviqinin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda dostluq və anlaşma əlaqələrinin gücləndirilməsinə töhfə verdiyi ifadə olunub.

Nazir Ceyhun Bayramov görüş zamanı qarşı tərəfə Azərbaycan-Ermənistan normallaşma prosesi, tarixi Vaşinqton Zirvəsi zamanı əldə edilmiş razılaşmalar və onların icrası istiqamətində həyata keçirilən əməli tədbirlər, münaqişədən sonra regionumuzdakı inkişaflar barədə ətraflı məlumat verib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Gəncə | Gəncə, Samux, Göygöl, Goranboy, Naftalan, Daşkəsən, Xocalı, Kəlbəcər | 01 |
| 2. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | İmişli | İmişli, Beyləqan, Saatlı, Sabirabad | 02 |
| 3. | **Baş prokuror** Kamran Əliyev | Sumqayıt | Sumqayıt, Qubadlı | 05 |
| 4. | **Ədliyyə naziri** Fərid Əhmədov | Bərdə | Bərdə, Mingəçevir, Yevlax, Ağcabədi, Ağdam, Tərtər | 05 |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Cəlilabad | Cəlilabad, Biləsuvar, Cəbrayıl | 05 |
| 6. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Xaçmaz | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | 05 |
| 7. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Abşeron | Abşeron, Zəngilan | 09 |
| 8. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Zaqatala | Zaqatala, Balakən, Qax, Şəki, Oğuz | 11 |
| 9. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Naftalan | Naftalan, Goranboy, Xocalı | 12 |
| 10. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Cəlilabad | Cəlilabad, Biləsuvar, Cəbrayıl | 16 |
| 11. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Sabirabad | Sabirabad, Saatlı, İmişli | 16 |
| 12. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Qobustan | Qobustan, Şamaxı | 16 |
| 13. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 18 |
| 14. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Saatlı | Saatlı, Sabirabad, İmişli, Beyləqan, Xocavənd | 18 |
| 15. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Ağcabədi | Ağcabədi, Ağdam, Tərtər, Füzuli, Xocalı, Xocavənd, Laçın, Kəlbəcər, Şuşa | 19 |
| 16. | **Energetika naziri** Pərviz Şahbazov | Zərdab | Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Bərdə, Ağcabədi | 19 |
| 17. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Kürdəmir | Kürdəmir, Hacıqabul | 19 |
| 18. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Sabirabad | Sabirabad, Saatlı, İmişli, Beyləqan | 19 |
| 19. | **Mədəniyyət naziri** Adil Kərimli | Ucar | Ucar, Zərdab, Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir | 19 |
| 20. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Qobustan | Qobustan, Şamaxı, Ağsu, İsmayıllı | 19 |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Salyan | Salyan, Neftçala | 19 |
| 22. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Masallı | Masallı, Yardımlı | 19 |
| 23. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | Naftalan | Naftalan, Goranboy, Xocalı | 19 |
| 24. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | İmişli | İmişli, Beyləqan, Xocavənd | 22 |
| 25. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Zərdab | Zərdab, Ucar | 26 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# ABŞ və Azərbaycan təmiz enerji texnologiyaları və səmərəliliyi üzrə əməkdaşlıq edə bilər

**Mayami Universitetinin hüquq məktəbinin müəllimi, beynəlxalq iqlim hüququ üzrə tanınmış ekspert, COP30-un iştirakçısı Lorena Zenteno Villa AZƏRTAC-a müsahibə verib. Ekspert, müsahibəsində COP30-da qəbul edilən qərarların əhəmiyyətindən danışıb. Lorena Zenteno Villa, həmçinin Azərbaycanla ABŞ arasında iqlim dəyişikliyinə qarşı mübarizədə və "yaşıl enerji" sahəsində hansı birgə layihələrin həyata keçiriləcəyi ilə bağlı təkliflərini açıqlayıb. Müsahibəni təqdim edirik.**

- *COP30 necə keçdi və yekunda hansı vacib qərarlar qəbul olundu?*

- COP30 qlobal iqlim idarəçiliyində həm əhəmiyyətli irəliləyişləri, həm də davam edən çətinlikləri əks etdirən nəticələrlə yekunlaşdı. Konfrans adaptasiya və ədalətli keçid üzrə mühüm mexanizmləri irəli aparsa da, fosil yanacaqlara dair öhdəliklər və adekvat dövlət maliyyəsi sahəsində gözlənilən səviyyəyə çatmadı.

**Konfransın əsas nəticələri** bundan ibarət oldu ki, bütün 195 Tərəfin təsdiqlədiyi 29 qərardan ibarət Belem Paketi qəbul edildi. Braziliya Sədrliyi bunu "oyunun dəyişdiyi onilliyin başlanğıcı" kimi xarakterizə edərək danışıqlardan icraya keçidi vurğuladı.

**COP30-da qəbul edilən əsas qərarlar bunlardır:**

**2035-ci ilə qədər adaptasiya maliyyəsinin üçqat artırılması.** Bu, inkişaf etməkdə olan ölkələrin artan iqlim təsirləri ilə mübarizəsinə dəstək üçün inkişaf etmiş ölkələrin daha böyük məsuliyyət daşımasını nəzərdə tutur və emissiyalara ən az töhfə verən dövlətlərin ən çox zərər görməsi kimi fundamental ədalətsizliyi aradan qaldırmağa yönəlib.

**Qlobal Ədalətli Keçid üçün Belem Mexanizmi.** Bu mexanizm iqlim fəaliyyətinin bərabərlik, inklüzivlik və sosial müdafiə prinsiplərini nəzərə almasını təmin edən institusional çərçivə yaradır, fosil yanacaq və fosil yanacaq sənayesindən asılı olan işçilərin və icmaların dəstəklənməsinin vacibliyini tanıyır.

**Qlobal Adaptasiya Məqsədi çərçivəsində 59 könüllü göstərici.** Su, ərzaq təhlükəsizliyi, səhiyyə, ekosistemlər, infrastruktur və həyat şəraiti kimi sahələr üzrə ölçülə bilən göstəricilər müəyyən olunub və



bunlar sadəcə, niyyət ifadələrindən kənara çıxaraq real tərəqqinin qiymətləndirilməsi üçün konkret vasitələr təqdim edir.

**Qlobal İcra Sürətləndiricisi.** Bu, metan emissiyalarının azaldılması və təbiətə əsaslanan həllər kimi yüksəktəsirli addımlara üstünlük verir. Eyni zamanda bərpaolunan enerji və maliyyə sistemi islahatları sahəsində transformativ imkanları müəyyənləşdirir.

Konfrans zamanı əhəmiyyətli səfərbərlik müşahidə olundu. Belə ki, 122 ölkə yeni və ya yenilənmiş NDC-lər (Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr) təqdim etdi, həmçinin müxtəlif sektorlar üzrə 120-dən çox fəaliyyət planı elan edildi.

Bununla belə, CIEL (Beynəlxalq Ətraf Mühit Hüququ Mərkəzi), Dünya Resursları İnstitutu, Beynəlxalq İqlim Fəaliyyəti Şəbəkəsi, "Greenpeace" və "Global Witness" kimi aparıcı beynəlxalq ekoloji təşkilatlar bir sıra ciddi çatışmazlıqların olduqlarını vurğuladılar.

- *Söhbət hansı çatışmazlıqlardan gedir?*

- Bunlardan biri **fosil yanacaqlarla bağlı öhdəliklərin olmamasıdır.** 1.5°C həddinin qorunması üçün kömür, neft və qazdan sürətli şəkildə imtina edilməsinin elmi zəruriliyinə baxmayaraq, yekun paketdə fosil yanacaqların mərhələli şəkildə dayandırılması barədə açıq və konkret ifadə yoxdur.

Digər məsələ **yetərsiz dövlət iqlim maliyyəsidir.** Adaptasiya maliyyəsinin üçqat artırılmasında irəliləyiş olsa da, ümumi maliyyə həcmi ehtiyac duyulan səviyyədən xeyli aşağıdır. Kredit əsaslı maliyyənin qrantlarla müqayisədə üstünlük təşkil etməsi həssas iqtisadiyyatların borc dayanıqlığı üçün ciddi narahatlıq yaradır.

Başqa bir məsələ **Kiçik Ada Dövlətlərinin vurğuladığı icra boşluğudur.** Bu ölkələr COP30-un siyasi öhdəlikləri ilə Beynəlxalq Ədalət Məhkəməsinin son hüquqi rəyində göstərilən hüquqi öhdəliklər arasındakı uyğunsuzluğa diqqət çəkiblər. Bu isə beynəlxalq hüquqla uyğunluq baxımından əhəmiyyətli suallar ortaya çıxarır.

- *Ümumiyyətlə, qəbul edilən qərarların perspektivi barədə nə deyə bilərsiniz?*

- COP30 iqlim fəaliyyəti üçün institusional çərçivəni gücləndirsə də, ən siyasi mübahisəli məsələlər üzrə qərarları gələcək dövrlərə saxlayır. Yeni mexanizmlər kifayət qədər maliyyələşdirilərsə, nəzərəçarpacaq irəliləyişə səbəb ola bilər. Lakin fosil yanacaqlarla bağlı güclü öhdəliklərin olmaması və dövlət maliyyəsinin kifayət etməməsi iqlim elminin göstərdiyi vaxt məhdudiyyətlərini nəzərə alaraq ciddi risk mənbələri olaraq qalır. Həssas ölkələr üçün COP30-un uğuru yaradılan çərçivələrlə deyil, onların real emissiya azalmaları, adekvat maliyyə və effektiv müdafiə ilə nəticələnib-nəticələnməməsi ilə ölçüləcək. Qarşıdakı illər "icra onilliyi"nin iqlim böhranının tələb etdiyi miqyas və sürətlə həqiqi transformasiya gətirib-gətirməyəcəyini göstərəcək.

- *ABŞ ilə Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə və "yaşıl enerji" sahəsində hansı birgə layihələr həyata keçirə bilər?*

- ABŞ ilə Azərbaycanın iqlim tədbirləri və "yaşıl enerji" sahəsində əməkdaşlığı gücləndirə biləcəyi bir sıra praktik istiqamətlər mövcuddur. Bu imkanların çoxu texniki xarakter daşıyır və siyasi dövrlərdən asılı olmayaraq sabit qalır.

Birincisi, hər iki ölkə təmiz enerji texnologiyaları və səmərəliliyi üzrə əməkdaşlıq edə bilər. ABŞ-nin tədqiqat institutları və özəl şirkətləri günəş və külək mühəndisliyi, enerji saxlama sistemləri və müasir elektrik şəbəkələri kimi sahələrdə geniş təcrübəyə malikdir. Birgə layihələr və ya texnologiya tərəfdaşlıqları Azərbaycanın enerji miksinin şaxələndirilməsinə və aşağıkarbonlu infrastrukturun genişləndirilməsinə dəstək ola bilər.

İkincisi, metan emissiyalarının azaldılması açıq və hər iki tərəf üçün faydalı bir əməkdaşlıq istiqamətidir.

Neft və qaz sektorunda metan emissiyalarının aşkarlanması, monitorinqi və azaldılması istixana qazlarını azaltmağın ən səmərəli yollarından biridir. Bu əməkdaşlıq daha çox texniki və sənayeyönümlü olub, qlobal enerji idarəçiliyi üzrə ən yaxşı təcrübələrlə üst-üstə düşür. Üçüncüsü, elmi və akademik əməkdaşlıq genişlənə bilər.

Hər iki ölkənin universitetləri və tədqiqat mərkəzləri iqlim modelləşdirilməsi, su ehtiyatlarının idarə edilməsi, quraqlığa davamlılıq və təmiz texnologiyalarda innovasiya sahələrində birgə araşdırmalar apara bilərlər. Bu tərəfdaşlıqlar uzunmüddətli dayanıqlığa və bilik mübadiləsinə töhfə verir.

Nəhayət, "yaşıl enerji" sahələrində əməkdaşlıq potensialı mövcuddur, o cümlədən hidrogen enerjisi, dənizüstü külək və bərpaolunan enerji layihələrinin hazırlanması mümkündür.

Azərbaycanın coğrafi mövqeyi və enerji resursları ölkəni regionda mühüm enerji aktoruna çevirir və texniki əməkdaşlıq ilkin qiymətləndirmə araşdırmalarını, pilot layihələri və investisiya planlamasını dəstəkləyə bilər.

Ümumilikdə, ABŞ və Azərbaycan arasında əməkdaşlıq texnologiya, elm və innovasiya sahələri üzrə inkişaf edə bilər. Bu da həm praktiki, həm qeyri-siyasi, həm də qarşılıqlı olaraq faydalı əməkdaşlıqdır.

# COP29-dan fərqli olaraq, COP30 əsas hədəflərə çata bilmədi

**2025-ci il noyabrın 10-21-də Braziliyada, Amazoniyanın paytaxtı hesab edilən Belem şəhərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası (COP30), habelə konvensiyanın Kioto Protokolu və Paris Sazişinin Tərəflərinin Toplantısı keçirildi. Builki COP həm də Paris Sazişinin qəbul edilməsinin 10 illiyinə təsadüf etdi.**

Əvvəlcədən də bəyan edildiyi kimi, COP30 əvvəlki toplantılardan fərqli olaraq, əsas diqqəti indiyədək qəbul edilmiş qərarların icra mexanizmlərinin işlənib hazırlanmasına yönəltməli idi və bir növ "ədalət COP" kimi yadda qalmalı idi. Belə ki, ilk növbədə qlobal səviyyədə qalıq yanacaqlarının istifadəsinə son qoyulması və ədalətli keçidin təmini, habelə iqlim dəyişmələrinə uyğunlaşma (adaptasiya) fəaliyyətlərinin izlənilməsi üzrə müvafiq mexanizmlər yaradılmalı idi. Eyni zamanda adaptasiya üçün maliyyə öhdəliyinin qəbulu, iqlim maliyyəsi üçün daha yüksək hesabatlılıq və meşələrin qırılmasına qarşı mübarizə məsələləri COP30-un iddialı paket razılaşmasının əsas elementləri idi.

COP29-dan fərqli olaraq, ciddi təşkilati nöqsanlar, təhlükəsizlik problemləri ilə təşkil edilən beynəlxalq iqlim konfransında gərgin şəraitdə keçən danışıqlar prosesinin sonunda COP30-un əsas hədəflərindən biri olan qalıq yanacaqlardan istifadəyə qlobal səviyyədə son qoyulması məsələsi ölkələrin ciddi qarşıdurması ilə nəticələndiyinə görə, yekun qərar mətnindən çıxarıldı. Belə ki, sessiyanın sonuncu günü tərəflərin çətinliklə razılaşdıra bildiyi 59 maddədən ibarət qərara, yəni "Qlobal səylər: İqlim dəyişmələri əleyhinə qlobal səfərbərlik naminə bəşəriyyətin birliyi" adlı sənədə qalıq yanacaqlardan istifadəyə son qoyulması məsələsinin daxil edilməsinə 90 ölkənin (Avropa İttifaqı ölkələri, Çili, Kolumbiya, Kosta Rika, Meksika, Qvatemala, Honduras və s.) inadkar səylərinə baxmayaraq, Səudiyyə Ərəbistanı, Rusiya, Hindistan, Misir, İran və bir sıra digər əsasən iri neft-qaz ölkələri tərəfindən imkan verilmədi. Bununla əlaqədar, COP30 prezidenti Andre Korrea do Laqo yekun qərar layihəsi üzrə razılığa nail olmaq üçün sözügedən 90 ölkəyə söz verdi ki, qalıq yanacaqlardan istifadədən imtina məsələsi və meşələrin qırılmasına qarşı mübarizə üzrə müvafiq iki yol xəritəsi əsasında COP30 prezidentliyi növbəti il ərzində danışıqlar prosesini davam etdirəcəkdir.

Hərçənd ki, bu prosesin BMT çərçivəsində aparılması təklifi yenə də ümumi dəstək qazana bilmədi. Yeganə kompromis təklif olaraq, qərarın 41-ci maddəsində Qlobal İcra Sürətləndiricisi təşəbbüsü irəli sürüldü ki, bu təşəbbüsə görə bütün ölkələr qlobal istiləşmənin 1,5 dərəcə selsi səviyyəsində saxlanılması üçün öz NDC (Milli Səviyyədə Müəyyən Olunmuş Töhfələr) və MAP (Milli Adaptasiya Planı) sənədlərini icra etməlidirlər və əldə edilmiş nəticələr müvafiq informasiya sessiyaları zamanı bəyan ediləcəkdir.

Məlumat üçün bildirək ki, Qlobal Qiymətləndirmə prosesi barədə sənəd 2023-cü ildə Dubayda keçirilmiş COP28-də qəbul edilmiş tarixi qərarlardan biri olmuşdur. Bu qərarda, ilk dəfə olaraq, bütün ölkələr tərəfindən "qazıntı yanacaqlarından uzaqlaşmaq" öhdəliyi irəli sürülmüş, lakin keçid üçün heç bir zaman qrafiki və buna necə nail olmaq barədə heç bir konkret tədbir göstərilməmişdir. Bu mənada COP28-in əsas nailiyyəti təbii qaz, kömür və xam neft də daxil olmaqla, qalıq yanacaqlardan uzaqlaşmaq öhdəliyi hesab olunurdu. Hətta həmin dövrdə belə yuxarıda qeyd olunan neft-qaz, kömür istehsalçısı olan ölkələrin şiddətli lobbiçiliyinə baxmayaraq, son razılaşma mətninə "mərhələli şəkildə imtina" çağırışı daxil edilmişdi. COP30-un son qərarında "qazıntı yanacağı" ifadəsi, ümumiyyətlə, mövcud deyildir.

COP30-dan fərqli olaraq, COP29 prezidentliyi beynəlxalq iqlim ictimaiyyəti tərəfindən qarşıya qoyulmuş əsas hədəfə, yəni İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədini (NCQG - New Collective Quatified Goal) ehtiva edən qərarın qəbul edilməsinə nail olmuşdu.



Xatırladaq ki, iqlim danışıqlarının ən həssas və çətin predmetini təşkil edən iqlim maliyyəsi barədə bu qərarla iqlim fəaliyyətləri üçün inkişaf etməkdə olan ölkələrə 2035-ci ilədək hər il maliyyə dəstəyi hədəfi əvvəlki illərdəki 100 milyard ABŞ dollarından ən azı 300 milyard ABŞ dollarınadək, yəni ən azı 3 dəfə artırılmışdır. Belə ki, əvvəlki illərdə çətinliklə yerinə yetirilmiş "illik 100 milyard" hədəfinin birdən-birə ən azı 3 dəfə artırılması, habelə 2035-ci ilədək iqlim maliyyələşməsinin ən azı 1,3 trilyon ABŞ dollarınadək çatdırılması barədə tarixi qərarın qəbulu üçün bütün ölkələr COP29 prezidentliyi tərəfindən uğurla səfərbər edilmiş və onun bu fəaliyyəti bütün ölkələr tərəfindən rəğbətlə qarşılanmışdı. Bundan əlavə, COP30-da adaptasiya üçün maliyyə öhdəliyinin qəbulu məsələsi üzrə Qlobal Cənub ölkələrinin səyləri öz nəticəsini verdi. Belə ki, "Qlobal səylər: İqlim dəyişmələri əleyhinə qlobal səfərbərlik naminə bəşəriyyətin birliyi" adlı yekun qərarın 53-cü bəndində, məhz COP29-da Bakıda qəbul edilmiş İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) haqqında 1/CMA.6 saylı qərar çərçivəsində 2035-ci ilədək adaptasiya üçün maliyyələşmənin 2035-ci ilədək ən azı 3 dəfə artırılmasının (yəni 120 milyard ABŞ dolları) zəruriliyi qeyd olundu. Bundan əlavə, COP30-un yekun qərarının 48-ci maddəsində COP29 zamanı qəbul edilmiş NCQG haqqında qərarın əhəmiyyəti xüsusi vurğulanaraq, "1,3 T üçün Bakıdan Belemə doğru Yol Xəritəsi" sənədinin hazırlanmasında COP29 prezidentliyinin rolu yüksək qiymətləndirilmiş və 2035-ci ildən iqlim maliyyələşməsinin 1,3 trilyon ABŞ dolları səviyyəsinə çatdırılması üçün COP29 və COP30 prezidentliklərinin həyata keçirdiyi fəaliyyətlər alqışlanmışdır. Bundan əlavə, COP30-un yekun qərarının 15-ci maddəsində sessiya zamanı qəbul edilmiş Bakı İqlim Birliyi Paktına və digər qərarlara görə COP29 prezidentliyinə xüsusi təşəkkür ifadə edilmişdir.

COP30-un önəmli nəticələrindən biri "Ədalətli keçid üzrə İş Proqramı" ("just transition work programme" (JTWP)) barədə qərarın qəbul olunmasıdır. Belə ki, sessiyanın cəmi ikinci günü "G77 + Çin" qrupu tərəfindən ədalətli keçid üçün texniki dəstək, beynəlxalq əməkdaşlıq və iqlim qərarlarının icrasındakı boşluqların aradan qaldırılmasını ehtiva edən təklif təkmilləşdirilərək sonda qərarlaşdırılmışdır.

COP29 zamanı əldə edilmiş digər uğurlu nəticələrdən biri də İtki və Zərər Fondunun institusionallaşması barədə müvafiq qərarın qəbulundan ibarət olmuşdur. Hələ Misirin Şarm-əl-Şeyx şəhərində keçirilmiş COP27 zamanı yaradılması qərara alınmış, lakin COP29-a qədər yalnız kağız üzərində qalmış İtki və Zərər Fondunun işlək bir quruma çevrilməsi iqlim dəyişmələrinin neqativ təsirlərindən ən çox zərər görmüş inkişaf etməkdə olan dövlətlərin uzun müddət əsas arzularından biri olmuşdur.

Məlumat üçün qeyd edək ki, hələ Dubayda keçirilmiş COP28-də müxtəlif ölkə və donor təşkilatlar tərəfindən fonda təqdim edilməsi vəd edilmiş 770,6 milyon ABŞ dolları məbləğində vəsaitin və əlavə vəsaitlərin növbəti 4 ildə idarə edilməsi mexanizmi müəyyən edilməsinə baxmayaraq, COP30-da bu məbləğin cəmi 397 milyon dollar hissəsinin faktiki ödənməsi və bu məbləğin əsasən elmi-texniki araşdırma məqsədləri üçün istifadəsi bir çox iştirakçı ölkədə təəssüf doğurmuşdur. Müvafiq Varşava Beynəlxalq Mexanizmin illik birgə hesabatının COP30 zamanı qəbulu prosesində isə Beynəlxalq Ədalət Məhkəməsinin itki və zərərlə bağlı ölkələrin məsuliyyəti barədə rəyinin sənədə daxil edilməsi məsələsi Ərəb liqası dövlətləri tərəfindən rədd edilmiş və faktiki olaraq, nəticədə sənədə zəif diplomatik ifadələr daxil edilmişdir.

COP29-un əvvəlki qlobal iqlim konfranslarından effektivlik baxımdan üstünlüyünü ifadə etməyə əsas verən digər önəmli nəticələrdən biri də karbon ticarəti və digər qeyri-market mexanizmləri barədə olan Paris Sazişinin 6-cı maddəsinin icrasının reallaşdırılması üçün müvafiq qaydaların yaradılması barədə tarixi qərarların qəbulundan ibarət olmuşdur. Bu məsələ əvvəldən COP29 sədrliyinin əsas prioritetlərindən biri olmuşdur və intensiv ikitərəfli texniki və siyasi danışıqlar prosesinin uğurlu təşkili sözügedən məsələlərdə tarixi uğura yol açmışdır. COP30 zamanı bu istiqamətdə önəmli irəliləyiş əldə olunmamışdır. Belə ki, dövlətlərarası karbon ticarətinə aid olan maddə 6,2 üzrə qəbul edilmiş COP30 qərarında yalnız həyata keçirilən bu əməliyyatların qiymətləndirilməsi prosesində müəyyən edilən hər hansı hesablama və metodologiya üzrə qeyri-müəyyənliklərin ekspertlər tərəfindən aydın izahının təqdim edilməsi və onların aradan qaldırılması yollarının əks etdirilməsi ifadə olunmuşdur.

Paris Sazişinin 6.4-cü maddəsi üzrə ölkələr arasında ciddi qarşıdurma müvafiq karbon ticarəti mexanizminə nəzarət edən Nəzarət Orqanının (Supervisory Body) üzvlərinin fəaliyyət müddətinin daha ikiillik müddətə uzadılması, ticarət edilmiş emissiyaların təkrar atmosferə sızması təhlükəsi və sairə ətrafında baş vermişdir. Bütün bu məsələlər COP30 zamanı razılaşdırılmamış, nəticə etibarilə qəbul edilmiş son qərarda hamıya məlum prinsip əks olunmuşdur. Belə ki, burada Nəzarət Orqanının üzvlərinin karbon ticarəti əməliyyatlarına nəzarət prosesində bitərəfliyini pozan hər hansı şəxsi, maliyyə və digər marağının olmaması təkrar ifadə edilmişdir.

COP30-un digər uğursuzluqlarından biri də hələ COP26-da qəbul edilmiş Mitiqasiya İş Proqramının (Mitigation work programme (MWP)) icrası üzrə müvafiq rəqəmsal platformanın yaradılması barədə qərarın razılaşdırılmasına nail olunmuşdur. Halbuki ilkin olaraq ekspertlər tərəfindən bu məsələyə danışıqlar prosesinin ən sadə və maneəsiz məsələlərindən biri kimi baxılırdı.

Digər məsələlərdən biri Adaptasiya üzrə Qlobal Məqsədlə (GGA) bağlıdır. COP29 zamanı bu məsələ ilə bağlı yekun sənəd qəbul olunmuşdur ki, burada sözügedən məqsədə nail olunması istiqamətində açar məsələlərdən hesab edilən göstəricilər (indikatorlar) üzrə iş proqramının COP30-a qədər yekunlaşdırılması üçün yol xəritəsi əks edilmişdir. Konkret olaraq, 3/CMA.6 nömrəli qərarın 34-cü paraqrafında ölkələrə könüllü surətdə öz İkiillik Şəffaflıq hesabatlarını (BTR) Qlobal İqlim Dayanıqlığı üzrə BƏƏ Çərçivəsi nəzərə alınmaqla hazırlanması barədə çağırış ifadə olunmuşdu. Lakin COP30 zamanı Adaptasiya üzrə Qlobal Məqsəd barədə qəbul edilmiş qərarda indiyədək müzakirə olunan 10 minə yaxın göstəricidən cəmi 100-nün saxlanılması adaptasiya fəaliyyətlərinin ölçüləbilənliyi üçün yetərli olmaması baxımından bir çox ekspertdə təəssüf hissi doğurmuşdur.

COP30 zamanı hələ Bakı COP-unda yenilənmiş Gender üzrə Lima İş Proqramı ilə əlaqədar yeni "Gender Fəaliyyət Planı" barədə qərarı qəbul olunmalı idi. Lakin müzakirələr zamanı gender anlayışının tərifi ətrafında olan fikir ayrılıqları, xüsusən də Vatikan təmsilçisi tərəfindən gender məsələsinin bioloji varlıq kimi yalnız kişi və qadından ibarət olması fikrinin bir sıra Avropa ölkələri tərəfindən inkar edilməsi nəticə etibarilə qeyd olunan məsələ üzrə də yekun qərarın qəbulunu qeyri-mümkün etmişdir.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Mərkəzi Asiya və Qafqazın artan geosiyasi və geoiqtisadi üstünlükləri

**Azərbaycan Respublikasının 2025-ci il noyabrın 16-da Daşkənd şəhərində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı hüququ alması tarixi və coğrafi faktorlar baxımından vahid olan geosiyasi məkanda qərarlaşan dövlətlərin fəaliyyətlərinin əlaqələndirilməsi üçün yeni bir platformanın yaradılması deməkdir. Beləliklə, mədəni, dini, digər ortaq dəyərlərlə birləşən məkanın həm də siyasi müstəvidə birliyi üçün yeni mexanizm formalaşdırılır. Bu, münasibətlərin çoxtərəfli formatda perspektivdə institutlaşdırılması yolunda atılan ilk addımdır.**

## Yeni məşvərət formatının siyasi və beynəlxalq əhəmiyyəti

Bu qərar hazırkı mərhələdə çoxtərəfli əməkdaşlıq müstəvisində dönüş imkanları yaradılması baxımından olduqca vacib əhəmiyyətə malikdir. Daşkənd razılaşması Azərbaycanın postmünaqişə dövrü xarici siyasət kursunda, çoxtərəfli diplomatik müstəvidə Prezident İlham Əliyevin strateji baxışlarına uyğun atılan növbəti uğurlu addımdır. Azərbaycan Prezidentinin Daşkənd görüşündə dediyi sözlərlə ifadə etsək, "Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur". Bu format mövcud siyasi, iqtisadi, enerji və nəqliyyat potensialından daha optimal formada və dinamik şəkildə istifadə imkanları yaradır.

Regional problemlərin həllində ümumi yanaşmaların işlənib hazırlanmasında yeni format müəyyən bir funksiyaya malik olacaq. Eləcə də qlobal çağırışlar fonunda oxşar və eyni mövqenin işlənib hazırlanması, mövqelərimizin əlaqələndirilməsi baxımından da yeni formatda əməkdaşlıq Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə daha da yaxınlaşdıracaq.

Yeni formatda bərabərhüquqlu tərəfdaş statusunda yer almaq həmçinin Azərbaycanın dinamik artan beynəlxalq nüfuzunun regional səviyyədə və yeni bir platformada bir daha təqdir olunması deməkdir. Bu həm də şanlı zəfərimizdən sonra beynəlxalq mövqeləri möhkəmlənən Azərbaycana, onun lideri Prezident İlham Əliyevin yeni siyasi reallıqları əsk etdirən sülh və əməkdaşlıq gündəliyinə Mərkəzi Asiya dövlətlərinin verdiyi dəyərdir.

Azərbaycanın yeni platformada təmsilçiliyini Özbəkistan Prezidenti Mirziyoyev "tarixi gün" və "Mərkəzi Asiya xalqlarının maraqlarına cavab verən strateji addım", Qazaxıstan Prezidenti Tokayev "tarixi qərar", Qırğızıstan Prezidenti Japarov isə "yeni imkanların açılması" kimi dəyərləndirmişdir.

## Mərkəzi Asiya ilə strateji tərəfdaşlıq və son 3 ildə 37 qarşılıqlı səfər

Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzi Asiya ölkələrinə 14 dövlət və işgüzar səfər həyata keçirib. Eyni dövrdə beş Mərkəzi Asiya dövlətinin başçısı Azərbaycana 23 dəfə səfərə gəlib. Xüsusi əhəmiyyəti ilə seçilən bir nəticəni vurğulamaq lazımdır. Azərbaycan Mərkəzi Asiyanın 5 üzv dövlətinin hər biri ilə strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalayıb. Qazaxıstan və Özbəkistanla isə münasibətlərimizin müttəfiqlik səviyyəsinə qaldırılması beynəlxalq müqavilə ilə təsbit olunub.

Həmçinin müxtəlif çoxtərəfli formatlarda, məsələn, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində, xüsusilə Tacikistan xaric, digər 4 dövlətlə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində uzun illərdir əməkdaşlıq edilir. TDT çərçivəsində yer alan 35 sahəvi əməkdaşlıq sırasına regional təhlükəsizlik, müdafiə sənayesi və hərbi sahənin əlavə edilməsi və ya mövcud əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi cari il oktyabrın 7-də TDT-nin Qəbələdəki 12-ci Zirvə Görüşündə təsdiqlənib.

## Orta dəhliz və onun Zəngəzur/TRIPP seqmentinin strateji rolu

Azərbaycan Respublikası bu formata malik olduğu çox vacib resurslarla gəlir. Bunların arasında Azərbaycanın Zəfərdən sonra yaratdığı yeni siyasi reallığın üstünlüklərini özündə birləşdirən və Cənubi Qafqaz regionunun coğrafiyasını aşan əməkdaşlıq strategiyasında Mərkəzi Asiya dövlətləri



ilə əlaqələri daha da intensivləşdirmək siyasəti yer alır.

Mərkəzi Asiya dövlətlərinin əlavə marşrut vasitəsilə Avropa və dünya bazarına çıxmasında və əks istiqamətdə mühüm əhəmiyyətə malik Zəngəzur dəhlizinin (TRIPP) 2028-ci ildə istifadəyə verilməsi ilə yeni imkanlar açılacaq və münasibətlər daha da intensivləşəcək. Bu mənada yeni məşvərət formatı Orta Asiya dövlətlərinin Cənubi Qafqaz regionuna, Qara dəniz hövzəsinə çıxışı, qardaş Türkiyə ilə münasibətləri daha da intensivləşdirmək baxımından olduqca önəmlidir. Xəzər hövzəsinin qərbində yerləşən Azərbaycan üçün isə yeni format Xəzər hövzəsinin şərqinə, Mərkəzi Asiya məkanına çıxış, həmçinin Çinlə əməkdaşlığımızın möhkəmləndirilməsində olduqca vacibdir.

Yaradılan infrastruktur, nəqliyyat və tranzit üçün inşa edilən avtomobil və dəmir yolları, neft, qaz, eləcə də "yaşıl enerji" sahəsində həyata keçirilən layihələr Azərbaycanı Mərkəzi Asiya dövlətləri üçün müxtəlif sahələrdə vacib və etibarlı tərəfdaşa çevirib. Məsələn, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara "yaşıl enerji"nin birgə ixracı üçün böyük perspektivlər açır. 2024-cü ilin noyabrında Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan yaşıl enerjinin inkişafı və ötürülməsi barədə Anlaşma Memorandumu imzaladılar. Cari ilin aprelində isə Bakıda təşkil edilən "Cənub qaz dəhlizi" və Yaşıl Enerji Məşvərət şuralarının iclasları çərçivəsində hər üç ölkə Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı ilə "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin mərhələsinə dəstək barədə sənəd imzaladılar. Gürcüstan, Bolqarıstan, Rumıniya və Macarıstanın da bu təşəbbüsə qoşulması "yaşıl enerji"nin Avropa bazarına çıxarılması üçün imkanlar yaratmaqdadır. Dünya Bankının bu layihənin icrasına ilkin mərhələdə 34 milyon dollar ayırması onun cəlbedici perspektivini təsdiləyir.

"Rəqəmsal İpək yolu" layihəsinin tərkibi kimi Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi yeni və müasir bir sahədə uzunmüddətli əməkdaşlıq üçün imkanlar açır.

Zəngəzur dəhlizi (TRIPP) həmçinin türk dövlətlərinin iqtisadi, ticarət əlaqələrinin intensivləşdirilməsi, nəqliyyat-tranzit imkanlarının birləşdirilməsidir. Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışında vurğuladığı kimi: "Əminəm ki, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək".

Mərkəzi Asiyanın bütün dövlət başçıları nəqliyyat-tranzit və logistika sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladılar.

## "C5+1" formatında əməkdaşlıq və Azərbaycan

"C5+1" formatının 10-cu ildönümünü qeyd etmək məqsədilə Vaşinqtonda səfərdə olan beş Mərkəzi Asiya dövlətinin prezidentləri noyabrın 7-də Mərkəzi Asiya dövlətləri və ABŞ arasında baş tutan Zirvə görüşündən sonra iki birgə bəyanat imzaladılar: İqtisadi sahədə niyyətə dair Birgə Bəyanat və Mədəni irs sahəsində niyyətə dair Birgə Bəyanat. Həmçinin ABŞ hər bir dövlətlə ayrılıqda ikitərəfli Məlumat arayışı (fact sheet) imzaladı və orada ikitərəfli əməkdaşlığın ümumi konturları və faktlar yer aldı.

Amerikalı ekspertlər bu sənədləri, orada yer alan əməkdaşlıq perspektivlərini "C5+1" platformasının genişmiqyaslı çoxtərəfli diplomatiya platformasından iqtisadi sahəyə yönəlmiş formata keçidi kimi dəyərləndirdi. "Regiondakı bəzi ölkələr üçün daha çox ikitərəfli əməkdaşlığa meyillənən bir format" çoxşaxəli əməkdaşlıq üçün də imkanlar yaradır.

İqtisadi sahədə niyyətə dair Birgə Bəyanat üç strateji vacib sahədə əməkdaşlığı təsbit edir. Bu sahələrdən biri "Trans-Xəzər Ticarət Marşrutu və Bağlantı" başlığı ilə sənədə daxil edilmişdir.

Bu sənəddə Trans-Xəzər marşrutunun və TRIPP marşrutunun əhəmiyyətinin vurğulanması ABŞ hökumətinin regiona yönəlik uzunmüddətli strateji maraqlarından xəbər verir. Bu marağı və əməkdaşlıq strategiyasını "C5+1" liderləri Birgə Bəyanatda ifadə etdilər: "C5+1" ölkələrinin və dünyanın mənafeyi naminə yükün, məlumatın və enerjinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə Trans-Xəzər Ticarət Marşrutunun (başqa adı ilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) potensialını tam şəkildə inkişaf etdirməklə və onu Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) ilə əlaqələndirməklə təchizat zəncirinin bağlantısını və dayanıqlılığını gücləndirmək".

Həmçinin Birgə Bəyanatın Ticarət, İnvestisiyalar və Kritik Minerallar bölməsində qeyd edildi ki, Orta dəhlizin və onun vacib seqmenti Zəngəzur Dəhlizi/TRIPP marşrutunun uzunmüddətli və dayanıqlı fəaliyyətinin əsasını təşkil edən kritik vacib mineralların istehsalı və tədarükü sahəsində əməkdaşlığa dair dialoq təsis olunur: "C5+1" Çərçivəsində Kritik Minerallar Dialoqu üzrə əməkdaşlığı davam etdirmək, geoloji kəşfiyyat, mədənçıxarma və emal sahələrində investisiya imkanlarını irəli aparmaq, eləcə də əlavə dəyər yaradan istehsalın - o cümlədən aşağı axın sənayelərinin - inkişafını təşviq etməklə Mərkəzi Asiyanın kritik minerallarını qlobal dəyər zəncirinə qoşmağa kömək etmək".

Kritik Minerallar Dialoqunun hədəfi "C5+1" formatında ticarət və investisiyalar sahəsində əməkdaşlığın intensivləşdirilməsi niyyəti ilə vacib nadir metalların işlənməsi və Mərkəzi Asiyadan ABŞ-yə ixrac sahəsində əməkdaşlığın sistemləşdirilməsidir.

Mərkəzi Asiya Dövlətlərinin 7-ci Məşvərət Görüşündə çıxış edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov "qardaş Azərbaycanın iştirakının əməkdaşlığın daha da inkişafı üçün yeni imkanlar açacağına əminliyini" ifadə edib və "regionda yeni bir nəqliyyat arteriyası formalaşdığını" vurğulayıb: "Strateji əhəmiyyətli "Çin-Qırğızıstan-Özbəkistan" dəmir yolunun tikintisi sadəcə birləşdirici rol oynamayacaq, həm də logistikanı yenidən formalaşdıraraq ölkələrimizə Asiya və Avropanın ən böyük bazarlarına ən qısa çıxış imkanı yaradacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin (TRIPP) tikintisi layihəsi "Çin-Qırğızıstan-Özbəkistan" dəmir yolunun məntiqi və strateji davamı kimi görünür". Prezident Japarov "Nəqliyyat sahəsində qarşılıqlı əlaqənin səmərəliliyini artırmaq məqsədilə gömrük məlumatlarının mübadiləsi və icazəverici sənədlərin "bir pəncərə" prinsipi əsasında rəsmiləşdirilməsi üçün vahid elektron platforma - "Rəqəmsal Tranzit Dəhlizi" hazırlanıb tətbiq edilməsini təklif edib.

Ermənistan güc tətbiqi və deportasiya siyasəti ilə regionun demoqrafik xəritəsini dəyişmək üçün səylər göstərəndə, hərbi vasitələrlə, təcavüzkar müharibə vasitəsilə region dövlətlərinin beynəlxalq sərhədlərini dəyişməyə cəhd edəndə Azərbaycan fərqli siyasət yürüdürdü. Azərbaycan regionun və Avrasiyanın enerji və nəqliyyat-tranzit xəritəsinin yenidən tərtibi üçün öz resursları hesabına uğurlu enerji və nəqliyyat diplomatiyası həyata keçirdi. 14 dövləti qazla təchiz edən Azərbaycan dünyada boru xətləri ilə ən böyük qaz təchizatçısı şəbəkəsini yarada bildi. Zaman Prezident İlham Əliyevin bu siyasətinin nə qədər uzaqgörən olduğunu təsdiq edir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı, siyasi elmlər doktoru***

# Azərbaycanla BƏT arasında "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" imzalanıb

**Azərbaycan ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında yeni "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın imzalanması tədbiri olub.**








Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, BƏT-in Layiqli Əməyə Texniki Dəstək Qrupunun, Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə ofisinin direktoru Mixail Puşkin, BƏT-in Azərbaycandakı milli əlaqələndiricisi Yaşar Həmzəyev və başqaları iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev yeni ölkə proqramının Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in məqsədlərindən, habelə BƏT-in layiqli əməyin təşviqi konsepsiyasından irəli gəldiyini bildirib. O, layiqli əmək konsepsiyasının işçilərin əmək hüququ, məşğulluq, sosial müdafiə və sosial dialoq kimi komponentlərə əsaslandığını qeyd edib.

Ölkə vətəndaşlarının bu prinsiplərə tam cavab verən hüquqlarının Azərbaycan Respublikası Konstitusiyasının müddəalarında, habelə ölkəmiz tərəfindən BƏT-in ratifikasiya edilmiş 59 konvensiyası və 1 protokolunda, milli əmək və sosial müdafiə sahəsində qanunvericilikdə dolğun şəkildə təsbit olunduğu bildirilib.

Ötən dövrdə BƏT-lə əməkdaşlıqda Layiqli Əmək üzrə iki Ölkə Proqramının uğurla icra olunduğu, ölkəmizdə təşkilatın layiqli əməyin təminatına dair prinsiplərinə uyğun məqsədyönlü işlərin aparıldığı vurğulanıb.

Sahib Məmmədov və Məmməd Musayev çıxış edərək, Azərbaycanda layiqli əməyin təmin edilməsi məqsədilə sosial tərəfdaşlar arasında həyata keçirilən birgə və səmərəli fəaliyyəti qeyd ediblər. Onlar BƏT və Azərbaycanda üçtərəflilik prinsipi əsasında fəaliyyət göstərən sosial tərəfdaşlar tərəfindən hazırlanmış "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın əhəmiyyətini vurğulayıblar.

Mixail Puşkin yeni ölkə proqramının ölkəmizin BƏT-lə səmərəli əməkdaşlığının uğurlu davamı olduğunu bildirib.

Daha sonra Anar Əliyev, Sahib Məmmədov, Məmməd Musayev və Mixail Puşkin tərəfindən ölkə proqramı imzalanıb. Proqramın əsas məqsədi ölkəmizdə məşğulluğun artırılması, sosial müdafiə, əməyin mühafizəsi, əmək sahəsində beynəlxalq əmək normalarının tətbiqi, sosial dialoq kimi sahələrdə səylərin artırılması yolu ilə layiqli əməyin təminatı üzrə sosial-əmək münasibətlərinin daha da inkişaf etdirilməsidir. Bundan əlavə, sənəd Azərbaycanla BƏT arasında səmərəli əməkdaşlığın uğurlu davam etdirilməsi və genişləndirilməsi imkanlarını daha da artıracaq.

Tədbirdən sonra Anar Əliyev və Mixail Puşkin arasında keçirilən görüşdə Azərbaycanla BƏT arasında fəal əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Ölkəmiz tərəfindən hazırda təşkilatın "Əməyin mühafizəsi və sağlamlığının təşviqi çərçivəsi haqqında" Konvensiyasının da ratifikasiya prosesinin yekunlaşmaqda olduğu qeyd edilib.

Yeni imzalanmış "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" üzrə görüləcək işlərə dair fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 25-də davam etdirilib.**








AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Samir Məmmədov ifadəsində Laçında düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində başından yaralandığını bildirib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş hadisə zamanı Tural İsgəndərovun da xəsarət aldığını söyləyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Ruslan Abbasov Kəlbəcərdə düşmən tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını bildirib. Hadisə zamanı daha iki nəfər yaralanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Vüqar Hüseynov da Kəlbəcərdə düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını söyləyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Toğrul Əliyev Ağdamda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində qəlpə yarası aldığını bildirib. Həmin vaxt onun yanında olmuş Nazim Ağayev və Murad Əliyev də xəsarət alıblar.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Samir İbrahimov Xocalıda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran Bayram Ağcayev Kəlbəcərdə düşmənin açdığı atəşlər nəticəsində xəsarət aldığını söyləyib.

Zərərçəkmiş Rəşad Quliyev Kəlbəcərdə düşmən tərəfindən atılmış artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralandığını bildirib.

Digər zərərçəkmiş Kamal Abdullayev ifadəsində Ağdamda Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış snayper atəşi nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Orxan Musayev Ağdam istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində sol göz nahiyəsindən yaralandığını deyib. Hadisə zamanı Bəhruz Rzayev və Nizami Cabbarov da yaralanıblar.

Digər zərərçəkmiş Dilqəm Həsənov Kəlbəcərdə düşmən tərəfindən açılmış artilleriya atəşi nəticəsində xəsarət aldığını bildirib.

Zərərçəkmiş Samir Xəlilov Ağdərədə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış raket atəşi nəticəsində yaralandığını deyib. Hadisə zamanı Ülvi Mikayılov həlak olub.

Məhkəmə prosesi cinayət işi materiallarında olan sənədlər və digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası dekabrın 1-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Azərbaycan-Ermənistan: sülh prosesi tarixi mərhələyə qədəm qoyub

**44 günlük Vətən müharibəsindən ötən 5 il ərzində regionda dayanıqlı sülhə nail olmaq üçün Azərbaycan bütün siyasi və diplomatik imkanlardan maksimum istifadə edir. Müharibənin qalibi kimi yaranmış yeni geosiyasi reallıqları düzgün qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə açıq şəkildə bildirib ki, sülhün yaradacağı iqtisadi və kommunikasiya üstünlükləri ən çox məhz iqtisadi imkanları məhdud olan Ermənistan üçün sərfəlidir.**

Nəhayət, 2025-ci ilin avqustunda ABŞ-nin vasitəçiliyi ilə sülh sazişinin mətninin paraflanması prosesin strateji mərhələyə keçidini təmin etdi. Bu hadisə regionda uzun müddətdir gözlənilən siyasi transformasiyanın başlanğıcı kimi qiymətləndirilir. Sazişin əsas müddəaları iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması, sərhədlərin delimitasiyası və demarkasiyası, regional kommunikasiyaların açılması, humanitar məsələlərin tənzimlənməsi və qarşılıqlı qarant mexanizminin yaradılmasını əhatə edir.

Bundan sonra Ermənistanın Baş naziri Nikol Paşinyan sülh prosesinin icra mərhələsinə keçdiyini bildirib. Onun açıqlamalarından görünür ki, İrəvan bu mərhələni yalnız diplomatik sənəd imzalamaq kimi deyil, həm də regiondakı təhlükəsizlik arxitekturasını yenidən qurmaq şansı kimi dəyərləndirir. Paşinyanın ifadə etdiyi kimi, sülh sazişi Ermənistan üçün "strateji müqavilə"dir və ölkəni uzunmüddətli izolyasiyadan çıxarmağı hədəfləyir.

Paşinyan hakimiyyətinin sülh prosesinə yanaşması iki əsas istiqamətdə formalaşır: daxili siyasi sabitliyi qorumaq və xarici siyasi kursu Qərbə doğru daha da yaxınlaşdırmaq. Amma Ermənistan rəhbərliyi son illər Qərb institutları ilə əlaqələri gücləndirməyə üstünlük versə də, bu addım ölkə daxilində ciddi etirazlara səbəb olub. Sülh sazişinə qarşı çıxan müxalif qüvvələr Paşinyanı "təslimçi siyasət yürütməkdə" ittiham edir, dövlətçiliyin təhlükə altında olduğunu bildirirlər.

Lakin rəsmi İrəvanın mövqeyinə görə, regionda yalnız sülh şəraitində Ermənistan iqtisadi və siyasi inkişaf yolu tapa bilər. N.Paşinyan dəfələrlə vurğulayıb ki, münaqişənin davam etməsi Ermənistanın təhlükəsizliyini daha da zəiflədir və iqtisadi çətinliklərini dərinləşdirir. Bu səbəbdən o, sülh sazişinin imzalanmasını ölkənin milli maraqları ilə uzlaşdırılan addım kimi təqdim edir.

Bununla belə Ermənistanın daxili siyasi səhnəsində sülh müqaviləsinə qarşı müəyyən müqavimət qalır. Xüsusilə konstitusiyanın dəyişdirilməsi məsələsi gərginlik yaradan əsas amillərdən biri kimi önə çıxarılır. Xatırladaq ki, Azərbaycan tərəfi Ermənistan konstitusiyasında əksini tapan "Dağlıq Qarabağ"la bağlı iddiaların aradan qaldırılmasını tələb edir. Bu isə Paşinyan üçün ciddi siyasi risk yaradır, çünki konstitusiya dəyişikliyi həm parlament, həm də ictimai rəy səviyyəsində geniş müzakirələr tələb edir. Buna baxmayaraq, Paşinyan hakimiyyəti problemi həll etməkdə israrlı kimi görünür.

Ermənistan mediasının son günlər yaydığı məlumatlarda qeyd olunur ki, Baş nazir Nikol Paşinyan çıxışında ölkənin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün müdafiə hüququndan danışıb və yeni konstitusiyanın qəbulunun vacibliyini vurğulayıb. N.Paşinyanın sözlərinə görə, ölkənin sabitliyi və gələcək siyasi kursu üçün əsas məsələ daxili legitimliyin möhkəmləndirilməsidir. Baş nazir xüsusi olaraq vurğulayıb ki, daxili legitimliyin gücləndirilməsi fundamental məsələdir və bu, yeni konstitusiyanın qəbulu ilə öz əksini tapmalıdır.

Azərbaycan da sülh prosesini sürətləndirmək üçün bütün imkanlardan maksimum yararlanır və bunu təkcə siyasi bəyanatlarla deyil, real addımlarla sübut edir. Regionda kommunikasiya əlaqələrinin açılması, nəqliyyat dəhlizlərinin bərpası və təhlükəsiz hərəkət imkanlarının təmin olunması bu siyasətin əsas istiqamətlərindəndir. Azərbaycan Ermənistan üçün maneəsiz yükdaşıma imkanları yaradaraq həm iqtisadi əməkdaşlığın genişlənməsi, həm də qarşılıqlı etimadın artması üçün mühüm addımlar atır. Bu göstərir ki, Bakı sülhün yalnız kağız üzərində deyil, real həyatda da bərqərar olmasını istəyir və bunun üçün praktiki tədbirlər görür.

Azərbaycan QHT nümayəndələrinin İrəvana və Ermənistanın ictimaiyyət təmsilçilərinin Bakıya səfərləri regionda yaranmaqda olan yeni siyasi mənzərənin ən mühüm göstəricilərindən biridir. Bu qarşılıqlı addımlar həm cəmiyyətlərin bir-birini daha yaxından tanımasına, həm də uzun illərboyu yığılıb qalmış stereotiplərin aradan qalxmasına xidmət edir. İctimai diplomatiya vasitəsilə qurulan dialoq təkcə dövlətlərarası münasibətlərə deyil, xalqlar arasında etimadın bərpasına da güclü təkan verir. Bu cür səfərlər artıq sülhün yalnız danışıqlar masasındakı sənədlərdən ibarət olmadığını, tərəflərin bir-birinin gözünə baxaraq danışdığı, dinlədiyi və anlamağa çalışdığı real prosesə çevrildiyini göstərir. Regionun gələcəyi üçün ən möhkəm fundament də məhz bu etimad mühitinin dərinləşməsi ilə formalaşır.

Cənubi Qafqaz geosiyasi maraqların toqquşduğu ərazidir. Elə bu səbəbdən də prosesin asan və rəvan getdiyini düşünmək doğru olmaz. Sözsüz ki, prosesə mane olmağa çalışan qüvvələr olub və var. Bu gün sülhə mane olanlardan biri və ən əsası Ermənistan müxalifətidir. Onların keçirdikləri aksiyalar, kütləvi etiraz çağırışları, Paşinyanın istefası ilə bağlı tələbləri hökumətin manevr imkanlarını məhdudlaşdırır. Ermənistan hakimiyyətinin geosiyasi balansı dəyişmə cəhdləri də İrəvanda sülh prosesinin gedişatına təsir göstərən amillərdəndir. Rusiya ilə münasibətlərin soyuması, Paşinyanın daha çox qərbmeyilli olması, ABŞ-nin regiona ciddi maraq göstərməsi də sülh prosesinə təsirsiz ötüşmür.

Bütün çətinliklərə baxmayaraq, sülh region üçün misilsiz imkanlar, iqtisadi inteqrasiya perspektivlərinin genişləndirilməsi deməkdir. Sərhədlərin açılması, ticarət əlaqələrinin bərpası, yeni nəqliyyat marşrutlarının istifadəyə verilməsi xüsusən Ermənistan üçün iqtisadi inkişafın mühüm şərtinə çevrilə bilər. Digər mühüm perspektiv - regionun təhlükəsizlik arxitekturasının yenidən qurulmasıdır. Sülhün imzalanması Cənubi Qafqazı geosiyasi rəqabət meydanından əməkdaşlıq platformasına çevirə bilər.

Ermənistan-Azərbaycan sülh prosesi hazırda tarixi bir mərhələni yaşayır. Sazişin mətni razılaşdırılıb, tərəflərin siyasi iradəsi mövcuddur və regionda sülh üçün real imkanlar yaranıb. Prosesin uğurla başa çatması üçün siyasi iradə ilə yanaşı, cəsarət, düzgün diplomatik balans və sabit regional mühit tələb olunur. Bütün bu mürəkkəbliyə baxmayaraq, Cənubi Qafqazda dayanıqlı sülhə gedən yol məhz bu gün salınır və bu yolun sonunda illərlə davam etmiş gərginliyin yerini əməkdaşlıq və sabitliyin tutacağına ümidlər kifayət qədər güclüdür.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***




# Konstitusiya və Suverenlik İli 2025

**Müasir inkişaf standartlarına uyğun sivil cəmiyyət, demokratik dövlət quruculuğu müvafiq hüquqi baza tələb edir. Bu hüquqi bazanın əsasını isə Konstitusiya təşkil edir. Bu il Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan 30 il ötür.**

# 30 illik inkişafın hüquqi bazası

1995-ci il noyabrın 12-də müstəqil ölkəmizin yeni Əsas Qanununun qəbul edilməsi tarixi zərurət idi. Məlumdur ki, Azərbaycanda bəlli səbəblərdən konstitusiya quruluşu uzun illər sovet sistemi ilə bağlı olmuşdur. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ildə - Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilmişdir. Daha sonra 1937-ci ildə keçmiş SSRİ Konstitusiyasının qəbuluna müvafiq olaraq Azərbaycan Konstitusiyası da yenilənmişdir. 1978-ci ildə isə Azərbaycanın yeni Konstitusiyası qəbul edilmişdir. Bu konstitusiyaların hər biri sovet quruluşuna xas münasibətlər sistemini əhatə edirdi. Müstəqilliyin bərpasından sonrakı dövr üçün, müstəqil və suveren dövlət prinsiplərinə uyğun olaraq Konstitusiyanın hazırlanması mühüm məsələ idi. Dövlət müstəqilliyini elan edən xalq eyni zamanda demokratik dünya ilə birgə hərəkət edəcəyini, bu dünyaya qovuşacağını bəyan edirdi.




## Tarixi missiya

Bu missiyanı müstəqil dövlətçiliyimizin təlatümlü anlarında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdaraq ölkənin gələcək taleyinə görə məsuliyyəti öz üzərinə götürən Ümummilli Lider Heydər Əliyev yerinə yetirdi. 1995-ci ilin mayında Ulu Öndərin sədrliyi ilə Konstitusiya Komissiyası yaradıldı. Komissiya müstəqil Azərbaycan dövlətinin Əsas Qanununun layihəsini hazırladı, oktyabr ayında bu layihə ümumxalq müzakirəsinə təqdim edildi, geniş müzakirələrdən sonra 12 noyabr 1995-ci ildə keçirilmiş ümumxalq referendumu ilə sənəd yekdilliklə qəbul olundu və Konstitusiyamız 27 noyabr 1995-ci ildə qüvvəyə mindi.

Referendumda iştirak və Əsas Qanunun lehinə səs verənlərin faizləri kifayət qədər yüksək olmuşdu: seçicilərin təxminən 86 faizi ümumxalq səsverməsində iştirak etmiş, onların əksəriyyəti Konstitusiya layihəsinin qəbuluna səs vermişdi.

Azərbaycan Respublikasının Konstitusiyasının strukturu dövlətin əsas təşkilati-hüquqi sahələrini əhatə edərək ölkənin suverenliyi, hüquqi-demokratik dövlət quruculuğu, vətəndaşların hüquq və azadlıqları, hakimiyyət bölgüsü kimi məsələləri əsas prinsiplər kimi müəyyənləşdirdi. Konstitusiya insan və vətəndaş hüquqlarını dövlətin ali məqsədi kimi bəyan etdi. Əsas qanunda hakimiyyətin mənbəyinin xalq olduğu göstərildi.

Bu, dövlətin quruluşunda fundamental dəyişiklik idi - indiyəqədərki sovet tipli quruluşlardan fərqli olaraq, müstəqil dövlətin hüquqi bazası hazırlanmışdı.

Konstitusiyada qanunverici, icra və məhkəmə hakimiyyəti üzrə səlahiyyətlər, onların qarşılıqlı əlaqəsi və nəzarət mexanizmləri əksini tapmışdır. Ayrıca yerli özünüidarəetmə, bələdiyyələr sistemi kimi sahələr də nəzərə alınmışdır.

## Hüquqi dövlət quruculuğu üçün bünövrə

1995-ci il Konstitusiyasının qəbulu ölkədə hüquqi dövlət quruculuğu üçün əsas bünövrə rolunu oynadı. Belə bir sənəd olmadan demokratik dövlət, çoxpartiyalı sistem və vətəndaş cəmiyyəti prinsipləri çərçivəsində inkişaf mümkün olmazdı. Əsas Qanunumuzun mövcudluğu Ümummilli Liderin qətiyyəti, siyasi iradəsi ilə həyata keçirilən islahatlara geniş meydan verdi: qanunvericilik bazası yeni çağırışlara uyğunlaşdırıldı, demokratik institutlar formalaşdı, yerli özünüidarəetmə sistemi inkişaf etdi. Bu proseslər nəticəsində Azərbaycanın dövlət idarəetmə sistemi müasirləşərək yeni dövrün reallıqlarına adaptasiya olundu.

Azərbaycan Respublikasının Konstitusiyasında dövlətin ərazi bütövlüyü və suverenliyi prinsipləri xüsusi vurğulanmışdır. Bu aspekt ölkənin müstəqilliyini və daxili-xarici siyasətdə öz mövqeyini saxlamasını hüquqi baxımdan təkmilləşdirdi. Müstəqil dövlətimizin Əsas Qanununun qəbul edildiyi gün - 12 Noyabr uzun illərdir ki, ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir. Həmin gün yalnız hüquqi təntənə deyil, həm də dövlətçilik şüurunun artırılması, vətəndaşlıq məsuliyyətinin formalaşması baxımından simvolik məna daşıyır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əsas Qanunumuzun qəbulundan 30 il ötməsini nəzərə alaraq 2025-ci ili ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan etmişdir. Bu, çox mühüm tarixi-ideoloji əhəmiyyətə malikdir. Bu, təkcə keçmişə baxış deyil, gələcəyə yönəlmiş bir çağırışdır. Azərbaycan 2020-ci ilin Vətən müharibəsindəki Zəfərimizdən və 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatından sonra ərazi bütövlüyünü, suverenliyini tam təmin etmişdir. Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının əsas prinsiplərindən biri də bərqərar olmuşdur.

## Uzunmüddətli strategiyaya əsaslanan siyasi kurs

"Konstitusiya və Suverenlik İli" anlayışı suveren və hüquqi dövlət prinsiplərinin sıx bağlılığını vurğulayır. Konstitusiyanın möhkəmliyi, onun müddəalarına real həyatda riayət olunması suverenliyin hüquqi ifadəsidir. 2025-ci ilin Konstitusiya və suverenlik tematikası ilə rəmzləşdirilməsi cəmiyyətimizdə hüquqi maarifləndirməni gücləndirir, konstitusiya quruluşu ilə bağlı vətəndaş məsuliyyətini daha da artırır. Onların hüquq və azadlıqları ilə bağlı ictimai agahlıq genişlənir. Dövlət institutlarının şəffaflığının, qanunların aliliyinin və səmərəliliyinin təmin olunması istiqamətində ardıcıl addımlar atılır. Beynəlxalq hüquq normalarına uyğun dövlət siyasəti gücləndirilir. Konstitusiya əsasında dövlət-cəmiyyət münasibətlərinin daha müasir tələblərə cavab verməsi üçün hüquqi islahatlar davam etdirilir. Dövlət-cəmiyyət dialoqu daha aktiv və effektiv xarakter daşıyır. Xüsusilə gənclər arasında vətəndaşlıq, dövlətçilik düşüncəsi yüksəlir. Hüquqi mədəniyyət artır, Konstitusiyanın prinsipləri gündəlik həyatın bir hissəsinə çevrilir.

Ümumilikdə, Azərbaycan Respublikasının müasir dövlətçilik modelinin formalaşması və konstitusiya quruluşunun möhkəmlənməsi uzunmüddətli strategiyaya əsaslanan siyasi kursla bağlıdır. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası hüquqi dövlətin, hakimiyyət bölgüsünün, vətəndaş hüquq və azadlıqlarının təminatçısı olan fundamental sənəd kimi ölkənin inkişaf yolunu müəyyənləşdirdi. Bu yolun davamlılığı isə birbaşa olaraq siyasi liderliyin vizionu, idarəçilik mədəniyyəti və dövlət institutlarının gücləndirilməsi qabiliyyəti ilə bağlıdır.

Bu baxımdan Ulu Öndər Heydər Əliyevin inkişaf kursunu uğurla davam etdirərək Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə çatdırmış Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın konstitusiya quruluşu təkcə hüquqi mexanizm kimi deyil, həm də siyasi sabitliyin, dövlət davamlılığının və suverenliyin praktiki təminat sistemi kimi möhkəmlənmişdir. Cənab İlham Əliyevin dövlət idarəçiliyinə verdiyi ən mühüm töhfələrdən biri siyasi və institusional sabitliyi daha da gücləndirməsidir. Buna hər birimiz şahidik ki, müasir dünyamızda daxili siyasi sabitlik konstitusiya quruluşunun tətbiqi üçün ən vacib şərtlərdəndir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəçiliyində mərkəzləşmiş, eyni zamanda səmərəli koordinasiyaya əsaslanan model formalaşmış, dövlət orqanları arasında səlahiyyət bölgüsü Konstitusiyanın tələblərinə uyğun şəkildə təkmilləşdirilmiş, hüquqi bazanın vahid prinsiplər əsasında yenilənməsi təmin edilmişdir. Bu amillər Azərbaycan Respublikası Konstitusiyasından irəli gələn müddəaların real həyatda tətbiqini asanlaşdırmış, onun norma kimi möhkəmlənməsinə şərait yaratmışdır. Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə iki referendumla - 2009-cu və 2016-cı illərdə keçirilən ümumxalq səsverməsi ilə Konstitusiyaya mühüm dəyişikliklər edilmişdir. Hər iki referendum ölkənin siyasi, sosial və iqtisadi inkişaf trayektoriyasını nəzərə alan islahat paketlərindən ibarət olmuşdur.

2009-cu ildə aparılmış konstitusiya islahatları dövlət idarəçiliyinin institutlaşdırılmasına, vətəndaş hüquqlarının genişləndirilməsinə və seçki mexanizmlərinin müasirləşdirilməsinə xidmət etmişdir. 2016-cı ildə həyata keçirilmiş konstitusiya islahatları isə müasir dövlət idarəçiliyi modelinin səmərəliliyini daha da artırmışdır. Hər iki islahat paketi ilə Azərbaycan Respublikasının Konstitusiyası müasir tələblərə uyğunlaşdırılmış, idarəetmə sistemi çevik, funksional, yeni çağırışlara davamlı vəziyyətə gətirilmişdir.

Bu gün məhkəmə sisteminin köklü islahatı nəticəsində vətəndaşlarımız öz hüquqlarını etibarlı şəkildə müdafiə etmək imkanı qazanmışlar. Hər hansı vətəndaş barəsində qaldırılmış işin ədalət məhkəməsində qərəzsiz, qanuni şəkildə, açıq formada təhqiq edilməsinə, hüquqi müdafiəsinə şərait yaradılmışdır. Hazırda məhkəmə sistemi dünya standartlarına tam uyğun şəkildə fəaliyyət göstərir.

Ümumiyyətlə, insan hüquqları və azadlıqlarının qorunması müasir demokratik dəyərlər arasında aparıcı yer tutur. Cəmiyyətin humanistləşdirilməsi, onun prinsiplərinin bərqərar edilməsi demokratiyanın təntənəsidir. Azərbaycan cəmiyyəti məhz bu yolla inkişaf edir. Ona görə də dövlətin yeritdiyi daxili siyasətin başlıca istiqamətlərindən biri dövlət-vətəndaş münasibətlərinin humanizm prinsiplərinə uyğunlaşdırılmasıdır.

Konstitusiyamızda təsbit olunmuş mühüm müddəalardan biri söz, mətbuat azadlığıdır. Kütləvi informasiya vasitələrinin müstəqilliyi demokratik cəmiyyətin ən mühüm göstəricilərindəndir. Konstitusiyamızın qəbulundan sonra Ulu Öndərin fərmanı ilə mətbuat azadlığını məhdudlaşdıran senzura ləğv edildi.

1999-cu ildə qəbul edilərək qüvvəyə minmiş "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə kütləvi informasiya vasitələrinin dövlət qeydiyyatı, fəaliyyəti daha da sadələşdirildi, Azərbaycanda yüzlərlə yeni media qurumu yaradılaraq uğurla fəaliyyətə başladı. Bu gün də ölkəmizdə yüzlərlə media qurumu fəaliyyət göstərir, onlar cəmiyyət həyatının ən müxtəlif sferaları ilə bağlı informasiyalar əldə edir, yayır, insanların məlumatlandırılmasına xidmət edirlər. Azərbaycanda internet tam azaddır. Prezident İlham Əliyev digər vətəndaş hüquq və azadlıqları kimi ölkəmizdə söz və ifadə azadlığının ən böyük təminatçısıdır.

Dövlət başçısı söz azadlığının təmin olunmasını prioritet məsələ sayır və bununla bağlı böyük siyasi iradə nümayiş etdirərək lazımi addımlar atır. "Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur" - Prezident İlham Əliyev bildirmişdir. Və bunu demokratiyanın fundamental şərti kimi dəyərləndirmişdir.

Azərbaycan cəmiyyətinin humanist xarakterini şərtləndirən başqa bir mühüm məqam ölüm hökmünün ləğv edilməsidir. Bu, Konstitusiyada təsbit edilmiş yaşamaq hüququ ilə şərtlənir. 1998-ci ildə ağır cəza növünü - ölüm hökmünü ləğv etməklə müstəqil Azərbaycan Respublikası humanist dəyərlərə sadiqliyini bir daha təsdiq etdi. Özü də nəzərdən qaçırılmamalıdır ki, ölüm hökmü rəsmən Konstitusiyanın qəbulundan 3 il sonra ləğv edilsə də, bu cəza növü 1993-cü ildən tətbiq edilmirdi.

Əsas qanunumuz üçün ən səciyyəvi cəhətlərdən biri insan hüquqları və azadlıqlarına dövlət təminatıdır. Konstitusiyanın maddələrindən üçdəbiri bu məsələyə həsr olunmuşdur. Azərbaycan dövləti öz vətəndaşlarını qanun qarşısında bərabərlik, şəxsiyyətin və mülkiyyətin toxunulmazlığı, cəmiyyətin siyasi həyatında və dövlətin idarəedilməsində iştirakı, məlumat almaq, sərbəst toplaşmaq və digər hüquqlarının qorunmasına təminat verir. Azərbaycan vətəndaşları söz, mətbuat, dini etiqad, vicdan azadlıqlarına malikdirlər. Vətəndaş hüquqları və azadlıqları yalnız müstəsna hallarda - dövlətin və xalqın təhlükəsizliyinə risk yarananda məhdudlaşdırıla bilər.

## Dövlətçilik ideologiyasının prinsipləri

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun gücü ilə torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası Əsas Qanunumuza üç istiqamətdə mühüm təsirini göstərmişdir. Konstitusiyanın ərazi bütövlüyü ilə bağlı müddəaları real həyatda təmin olunmuş, dövlət suverenliyi formal hüquqi norma olmaqdan çıxaraq praktik siyasi reallığa çevrilmiş, bütün dövlət institutlarının vahid məqsəd ətrafında fəaliyyət qabiliyyəti güclənmişdir.

Prezident İlham Əliyev Azərbaycanın dövlətçilik ideologiyasını da Konstitusiyanın prinsiplərinə uyğun şəkildə formalaşdırmışdır. Bu ideologiya xalqa məxsus suverenlik, qanunun aliliyi, milli maraqların üstünlüyü, siyasi müstəqillik və balanslı diplomatiya prinsiplərini özündə ehtiva edir.

Konstitusiyamız ümumbəşəri dəyərlərə və mütərəqqi mili ənənələrə söykənərək bu günün reallıqlarını, dövlətin, cəmiyyətin inkişaf perspektivlərini əks etdirir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

*Araşdırma şirkətinin rəhbəri:*

# "Azərbaycan türk dünyasının aparıcı dövlətlərindən biri kimi mövqeyini möhkəmləndirib"



**"Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlıq son illərdə tarixi bağlar, geosiyasi zərurətlər və Türk Dövlətləri Təşkilatının (TDT) təsiri ilə nəzərəçarpacaq dərəcədə güclənməkdədir. Enerji və nəqliyyat sahələri bu yaxınlaşmanın əsas mərkəzində dayanır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında "Genar" Araşdırma Şirkətinin rəhbəri İhsan Aktaş bildirib.

O qeyd edib ki, Qazaxıstan və Türkmənistan neftinin Bakı-Tbilisi-Ceyhan xətti vasitəsilə daşınması, Türkmənistan qazının svop mexanizmləri ilə Azərbaycana ötürülməsi və Xəzər dənizindən keçən enerji dəhlizlərinin Avropaya çıxışı regional enerji təhlükəsizliyini artıran əsas addımlar sırasındadır. Bununla yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolu və Xəzər keçişli logistika xətləri Orta dəhlizin əhəmiyyətini artıraraq Azərbaycan ilə Mərkəzi Asiya arasında ticarət və strateji əlaqələri möhkəmləndirir.



"Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə tamhüquqlu iştirakçı kimi qəbul edilməsi təkcə Mərkəzi Asiya regionunun daxili dinamikasına deyil, həm də Cənubi Qafqazın geosiyasi balansına birbaşa təsir göstərən strateji addımdır. Cənubi Qafqaz tarixən Mərkəzi Asiya ilə Anadolu və Qara dəniz hövzəsi arasında keçid zonası rolunu oynadığı üçün Azərbaycanın bu formata daxil edilməsi onun iki region arasındakı siyasi və iqtisadi körpü funksiyasını daha da gücləndirir. Orta dəhlizin Qafqazdan keçməsi, enerji və logistika xətlərinin Azərbaycan ərazisindən Avropaya uzanması və Cənubi Qafqazda sülh prosesinin sürətlənməsi Azərbaycanın yeni statusu ilə daha inteqrasiya olunmuş və koordinasiyalı regional arxitekturanın formalaşmasına şərait yaradır. Bu inkişaf həm Mərkəzi Asiya, həm də Qafqazın qərar qəbuletmə mexanizmlərini yaxınlaşdıran və türk dünyasının geostrateji uzlaşmasını gücləndirən bir struktur ortaya qoyur", - deyə İ.Aktaş vurğulayıb.

Ekspert əlavə edib ki, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Məşvərət Görüşünə tamhüquqlu üzv kimi qatılması bundan sonra bu format çərçivəsində keçirilən lider zirvələrində - yəni dövlət başçıları səviyyəsində məsləhətləşmə toplantılarında iştirak edəcəyi mənasını daşıyır. Bu, Mərkəzi Asiya dövlətlərinin ənənəvi olaraq ildə bir dəfə keçirdiyi Zirvə görüşlərində (məsələn, "beş dövlət + Azərbaycan" formatında) iştirakını təmin edir. Bu toplantılarda iqtisadi inteqrasiya, infrastruktur layihələri, təhlükəsizlik və ətraf mühit sahələrində strateji qərarlar müzakirə olunacaq.

Bununla yanaşı, bu tamhüquqlu üzvlüklə Azərbaycanın Mərkəzi Asiya əməkdaşlığını institusional səviyyədə möhkəmləndirmək məqsədi daşıyan təşəbbüslərdə (məsələn, "Mərkəzi Asiya Birliyi" ideyası) daha fəal rol alması gözlənilir. Bu çərçivədə Azərbaycan xarici işlər nazirləri toplantıları, işçi qrup iclasları, infrastruktur və ticarət inteqrasiyası layihələrini izləyən yüksəksəviyyəli görüşlər kimi çoxsaylı alt-formatlarda söz sahibi ola bilər.

"Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Məşvərət Görüşünə iştirakçı kimi qoşulması ölkənin Cənubi Qafqazdakı mövqeyini daha çox regional mərkəzə çevirir. Çünki Azərbaycan artıq təkcə Cənubi Qafqazdakı siyasi proseslərin iştirakçısı deyil, həm də Mərkəzi Asiya ilə Avropa arasında uzanan enerji, ticarət və nəqliyyat dəhlizlərinin strateji qovşağıdır. Bu vəziyyət Bakının regional çəkisini artırmaqla yanaşı, Gürcüstan və Türkiyə ilə birgə reallaşdırdığı Orta dəhliz layihələrini daha güclü geosiyasi zəminə oturdur. Beləliklə, Azərbaycan Cənubi Qafqazda sabitliyi təşviq edən, iqtisadi əlaqələri dərinləşdirən və regionun Avropa ilə Mərkəzi Asiya arasında körpü rolunu gücləndirən aparıcı aktora çevrilir.

Digər tərəfdən Azərbaycanın Mərkəzi Asiya formatına daxil olması Cənubi Qafqazdakı güc balansında onun müstəqil və çoxşaxəli xarici siyasət imkanlarını artırır.

Beləliklə, görüşlər artıq "beş dövlət + Azərbaycan" formatında həyata keçirilir və Azərbaycan Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında siyasi, iqtisadi və logistika körpüsündə mərkəzi rol oynayır. Bu vəziyyət ölkənin həm regional, həm də qlobal geosiyasi çəkisini artıran çoxölçülü inteqrasiya prosesini ifadə edir.

İnkişaf edən iqtisadiyyatı, güclü ordusu və geniş beynəlxalq əlaqələri sayəsində Azərbaycan türk dünyasının aparıcı dövlətlərindən biri kimi mövqeyini möhkəmləndirib, TDT-nin əsas aktorlarından birinə çevrilib. Bu mövqe onun həm Cənubi Qafqazda, həm də türk dünyasında təsir gücünü mərhələli şəkildə artırmağa davam edəcək", - deyə İ.Aktaş fikrini yekunlayıb.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 26 noyabr 2025-ci il

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 17 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025 25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10 (Naxçıvan MR, Sədərək rayonu)<br>21 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451 641 9841 1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>17 (Yardımlı rayonu) 24 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526 75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04 (Kürdəmir rayonu) 11 (Hacıqabul rayonu) | Ceyhun Ağayev +99470 887 7090 63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 05 (Füzuli rayonu)<br>15 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237 85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 06 (Salyan rayonu)<br>13 (Biləsuvar və Neftçala rayonları) | Pərviz Mirizadə +99451 640 1962 65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 07, 21 (Tovuz rayonu)<br>08, 22 (Ağstafa rayonu) | Arzu Musayeva +99455 649 3070 107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 06, 13 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050 62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 11, 26 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644 46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 04, 24 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003 93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 13, 20 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566 29sayli_sd@meclis.gov.az |
| 12. | Aran Səyyad Adil oğlu | 13 (İmişli rayonu)<br>20 (Saatlı rayonu) | Ağa Abışov +99450 775 7477 82sayli_sd@meclis.gov.az |
| 13. | Arpadarai Nigar Cavid qızı | 10, 24 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112 7sayli_sd@meclis.gov.az |
| 14. | Aslanov Novruzəli Davud oğlu | 04, 11, 18, 25 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888 89sayli_sd@meclis.gov.az |
| 15. | Badamov Azər Camal oğlu | 06, 16 (Qusar rayonu) | General Sadulov +99450 313 2962 61sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Kamran Fərhad oğlu | 06 (Göygöl rayonu)<br>13 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747 100sayli_sd@meclis.gov.az |
| 17. | Bayramov Vüqar İbad oğlu | 12, 26 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002 84sayli_sd@meclis.gov.az |
| 18. | Bədəlov Bədəl Şamil oğlu | 13 (Goranboy rayonu)<br>27 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733 96sayli_sd@meclis.gov.az |
| 19. | Bülbüloğlu Polad | 11, 22, 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Milli Məclisin qəbul otağı +99412 510 9938 124sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərov Kamal Xaqani oğlu | 10, 20 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99455 274 6044 68sayli_sd@meclis.gov.az |
| 21. | Cəfərov Müşfiq Cəfər oğlu | 06 (Gəncə şəhəri) 20 (Samux rayonu) | Sahib Əmiraslanov +99450 255 2039 41sayli_sd@meclis.gov.az |
| 22. | Cəfərova Tamam Şaməmməd qızı | 08, 18 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090 88sayli_sd@meclis.gov.az |
| 23. | Əfəndiyev Məzahir Cavid oğlu | 11 (Göyçay rayonu) 25 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424 92sayli_sd@meclis.gov.az |
| 24. | Əfəndiyeva Günay Elçin qızı | 10, 18 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99455 379 0095 14sayli_sd@meclis.gov.az |
| 25. | Ələkbərov Əziz Yusif oğlu | 13, 27 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355 66sayli_sd@meclis.gov.az |
| 26. | Əliyev Bəxtiyar Həmzə oğlu | 11, 18 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292 119sayli_sd@meclis.gov.az |
| 27. | Əliyeva Jalə Fazil qızı | 01 (Zərdab rayonu)<br>15 (Ucar rayonu) | Firdovsi Eyvazov +99450 331 9434 95sayli_sd@meclis.gov.az |
| 28. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 13, 27 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067 27sayli_sd@meclis.gov.az |
| 29. | Əmiraslanov Azər Kamal oğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697 108sayli_sd@meclis.gov.az |
| 30. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>20, 27 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638 67sayli_sd@meclis.gov.az |
| 31. | Əsədov Heydər Xanış oğlu | 20, 27 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888 51sayli_sd@meclis.gov.az |
| 32. | Əsgərov Asif Yunis oğlu | 06, 13 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262 112sayli_sd@meclis.gov.az |
| 33. | Feyziyev Cavanşir Əyyub oğlu | 06, 20 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618 115sayli_sd@meclis.gov.az |
| 34. | Fətəliyeva Sevinc Həbib qızı | 11, 24 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956 30sayli_sd@meclis.gov.az |
| 35. | Fətiyev Xanlar Nuru oğlu | 02, 16 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030 98sayli_sd@meclis.gov.az |
| 36. | Gəncəliyev Tural Babaşah oğlu | 01, 17 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431 122sayli_sd@meclis.gov.az |
| 37. | Hacıyev Sabir Kamal oğlu | 10, 24 (Göyçay rayonu) | Əli Qafarov +99450 200 2209 91sayli_sd@meclis.gov.az |
| 38. | Həmzəyev Naqif Ələşrəf oğlu | 15, 27 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438 38sayli_sd@meclis.gov.az |
| 39. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 15, 25 (Naxçıvan MR, Culfa rayonu) | Araz Xudiyev +99450 658 2375 5sayli_sd@meclis.gov.az |
| 40. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 13, 20 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764 36sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Malik Əvəz oğlu | 13, 20 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116 71sayli_sd@meclis.gov.az |
| 42. | Həsənov Nurlan Urfan oğlu | 13, 20 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433 103sayli_sd@meclis.gov.az |
| 43. | Həsənova Afət Əbil qızı | 10, 17 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286 32sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynli Əli Məhəmməd oğlu | 01 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 20 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131 53sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynov Aydın Nəsir oğlu | 10, 17 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878 37sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Hicran Kamran qızı | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334 42sayli_sd@meclis.gov.az |
| 47. | Hüseynova Sevinc Əmirəhməd qızı | 13, 27 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979 104sayli_sd@meclis.gov.az |
| 48. | Xasayeva Səbinə Səməd qızı | 04, 11 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134 11sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimqızı Məlahət İbrahim qızı | 11, 25 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142 21sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimli Fəzail Feyruz oğlu | 10, 20 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549 73sayli_sd@meclis.gov.az |
| 51. | İbrahimov Eldar Rza oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>22, 29 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306 4sayli_sd@meclis.gov.az |
| 52. | İsgəndərov Anar Camal oğlu | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232 78sayli_sd@meclis.gov.az |
| 53. | İskəndərov Vüqar Yapon oğlu | 06, 20 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115 114sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov İmamverdi İbiş oğlu | 08, 15 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026 125sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılov Şahin Əmir oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 20 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366 83sayli_sd@meclis.gov.az |
| 56. | İsmayılzadə Fariz Akif oğlu | 13, 20 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872 77sayli_sd@meclis.gov.az |
| 57. | Kərimli Azər Şəmşid oğlu | 06, 20 (Balakən rayonu) | Samir Hüseynzadə +99455 830 1363 111sayli_sd@meclis.gov.az |
| 58. | Kərimzadə Pərvin Orxan qızı | 10, 24 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685 39sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 17, 24 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911 9sayli_sd@meclis.gov.az |
| 60. | Qafarov Vasif Vaqif oğlu | 06 (Astara rayonu) 20 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966 80sayli_sd@meclis.gov.az |
| 61. | Qasımlı Mircəlil Xəqani oğlu | 21, 28 (Bakı şəhəri) 24 (Ağsu rayonu) | Anar Əliyev +99450 355 9484 123sayli_sd@meclis.gov.az |
| 62. | Qədirli Erkin Toğrul oğlu | 08, 22 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110 16sayli_sd@meclis.gov.az |
| 63. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 04, 18 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845 17sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Azay Əjdər oğlu | 04, 18 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187 8sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Eldar Allahyar oğlu | 14, 28 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899 28sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Musa İsa oğlu | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 27 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442 40sayli_sd@meclis.gov.az |
| 67. | Quliyev Ülvi Zahid oğlu | 03, 17 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156 15sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 10 (Bakı şəhəri)<br>19 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191 101sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 03, 17 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 / +99451 774 3782 117sayli_sd@meclis.gov.az |
| 70. | Qurbanov Sadiq Haqverdi oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 18 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075 64sayli_sd@meclis.gov.az |
| 71. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 06, 20 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770 79sayli_sd@meclis.gov.az |
| 72. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 06, 20 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259 110sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 07, 14 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 283 1705 / +99470 300 1461 69sayli_sd@meclis.gov.az |
| 74. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 06, 20 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950 59sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədli Müşfiq Fazil oğlu | 12 (Quba rayonu)<br>19 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314 55sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Anar İlyaz oğlu | 13, 14, 20 (Tərtər rayonu)<br>21 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791 97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 77. | Məmmədov Ceyhun Valeh oğlu | 13 (Beyləqan rayonu)<br>27 (Gəncə şəhəri) | Rəşad Quliyev +99455 847 5621 120sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Elman Camal oğlu | 01, 08 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335 118sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Hikmət Baba oğlu | 03, 17 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219 19sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov İlham Kazım oğlu | 06, 20 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417 52sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Qaya Məmməd oğlu | 10, 17 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102 31sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Məşhur Şahbaz oğlu | 13, 21 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641 74sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədov Soltan Teymur oğlu | 06, 20 (Bakı şəhəri) | Azər Məlikov +99450 373 4403 12sayli_sd@meclis.gov.az |
| 84. | Məmmədova Nigar Fikrət qızı | 01, 08 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838 48sayli_sd@meclis.gov.az |
| 85. | Məsimli Əli Əhməd oğlu | 18 (Qax rayonu)<br>19 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287 113sayli_sd@meclis.gov.az |
| 86. | Mikayılova Sevil Əlirazı qızı | 08, 18 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606 58sayli_sd@meclis.gov.az |
| 87. | Mirkişili Tahir Famil oğlu | 08, 22 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211 43sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 13, 20 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484 90sayli_sd@meclis.gov.az |
| 89. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 12, 26 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443 54sayli_sd@meclis.gov.az |
| 90. | Mollazadə Asim Nazim oğlu | 03, 17 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272 22sayli_sd@meclis.gov.az |
| 91. | Möhbalıyev Səttar Suliddin oğlu | 04 (Naxçıvan MR, Kəngərli rayonu)<br>25 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 / +99450 649 7066 3sayli_sd@meclis.gov.az |
| 92. | Muradov Rövşən Şahbaz oğlu | 10, 24 (Bakı və Sumqayıt şəhərləri) | Milli Məclisin qəbul otağı +99412 510 9938 124sayli_sd@meclis.gov.az |
| 93. | Musabəyov Rasim Nəsrəddin oğlu | 09, 23 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725 18sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşad Nəbi oğlu | 06, 13 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 / +99450 669 5919 10sayli_sd@meclis.gov.az |
| 95. | Musayev Elşən Məmmədhənifə oğlu | 06, 19 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089 116sayli_sd@meclis.gov.az |
| 96. | Mustafa Fazil Qəzənfər oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 01, 08, 15 (Bakı şəhəri) | Əjdər Əliyev+99450 385 3950 26sayli_sd@meclis.gov.az |
| 97. | Nağıyev Arzu Nəsib oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 13 (Tovuz rayonu)<br>27 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212 105sayli_sd@meclis.gov.az |
| 98. | Namazov Ramid Zakir oğlu | 08, 22 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986 50sayli_sd@meclis.gov.az |
| 99. | Nəbiyev Rizvan Novruz oğlu | 05, 20 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868 49sayli_sd@meclis.gov.az |
| 100. | Nəsirov Elman Xudam oğlu | 11, 23 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425 72sayli_sd@meclis.gov.az |
| 101. | Novruzov Siyavuş Dünyamalı oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 16 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061 2sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayev Razi Qulaməli oğlu | 10, 24 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777 81sayli_sd@meclis.gov.az |
| 103. | Nurullayeva Könül Oruc qızı | 04, 18 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375 24sayli_sd@meclis.gov.az |
| 104. | Oruc Zahid Məhərrəm oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 07, 21 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093 33sayli_sd@meclis.gov.az |
| 105. | Paşayeva Gülşən Məmmədəli qızı | 05, 19 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607 13sayli_sd@meclis.gov.az |
| 106. | Paşazadə Cavanşir Hümmət oğlu | 13, 20 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123 76sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 13, 27 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526 60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 06 (Naxçıvan MR, Ordubad rayonu)<br>20 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777 6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 04, 25 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131 70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 13, 26, 27 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395 86sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 08, 25 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638 45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 08, 24 (Qazax rayonu) | Akif Əmirov +99450 791 2111 109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 04 (Qobustan rayonu)<br>18 (Şamaxı və İsmayıllı rayonları) | Elman Mikayılov +99450 288 9938 87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 11, 25 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767 106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 11, 25 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311 23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 11, 24 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717 56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 05 (Abşeron rayonu)<br>19 (Sumqayıt şəhəri)<br>26 (Bakı şəhəri) | Aslan Talıbov +99455 283 6367 47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 10, 24 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111 57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 04, 17 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842 20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 10, 22 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434 44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 04, 25 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330 35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 06, 20 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040 99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 06, 27 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722 34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# İQTİSADİYYAT

# Dünyanı heyran edən quruculuq

## Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda 177 layihənin təməlini qoyub, 167 obyektin açılışını edib



**Erməni faşizminin törətdiyi vəhşiliklər nəticəsində torpaqlarımızın 20 faizi 30 ilə yaxın işğal altında qaldı, minlərlə insan öz ev-eşiyindən, yurd-yuvasından didərgin salındı. Onların illərlə halal zəhmət hesabına tikib-qurduqları evlər, yaratdıqları isti yuvalar yağı tərəfindən yağmalandı. Olmazın əziyyət çəkdi bu insanlar. Dövlətimiz onlar üçün qəsəbələr, şəhərciklər salana qədər, məişət şəraitlərini yaxşılaşdırana qədər çadırlarda, yataqxanalarda, yarımçıq tikililərdə yaşadılar.**

Lakin artıq yaxşı, rahat evlərdə yaşayanda da üzləri gülmədi, yurd həsrəti çəkdilər, məcburi köçkün adının ağırlığı daim qəlblərini incitdi. O günə qədər ki, müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən, yenilməz bir yumruğa dönən ordumuz, xalqımız möhtəşəm zəfər çaldı...

Qələbə qazanılan kimi də bərpa və quruculuq işləri başlandı. Dövlətimizin başçısı bəyan etdi ki, Qarabağa və Şərqi Zəngəzura - doğma yurduna qayıdacaq insanlar üçün layiqli həyat şəraiti yaradılmalıdır. Bu hədəfə doğru genişmiqyaslı və çoxşaxəli işlərə başlandı. İndi bütün dünya burada cəmi beş il ərzində görülmüş işlərə baxıb heyran qalır.

Dövlət Statistika Komitəsi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına istinadən bildirir ki, işğaldan azad olunmuş ərazilərimizə bu il noyabr ayının 1-dək 20879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin olunub. Həm də qeyd edək ki, onların sayı hətta aybaay deyil, günbəgün artır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, həmin tarixə oradakı bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı 38917 nəfər təşkil edib. Xankəndi Universitetində təhsil alan 2154 nəfər tələbə də nəzərə alınmaqla işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı 61950 nəfər təşkil edir.

İlk qayıdış 2022-ci ilin iyulunda "ağıllı kənd" Ağalıya oldu. O vaxtdan bəri isə 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib.

Keçmiş məcburi köçkünlərin geriyə dönüşü üçün postmünaqişə dövründə həyata keçirilən ən vacib təhlükəsizlik və inkişaf tədbirlərindən biri minatəmizləmədir. 2020-2025-ci illər ərzində Azərbaycan Milli Minatəmizləmə Agentliyi (ANAMA) və digər aidiyyəti qurumların, həmçinin yerli şirkətlərin birgə əməliyyatları nəticəsində ümumilikdə 240 min hektardan artıq ərazi təmizlənib, 227 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib.

Əhalinin qayıdışı "Böyük qayıdış" proqramına əsasən həyata keçirilir. Burada məqsəd yalnız fiziki məskunlaşma deyil, həm də sosial, iqtisadi və ekoloji baxımdan dayanıqlı yaşayış məntəqələrinin yaradılmasıdır. Odur ki, beş il əvvəl geniş tədbirlər də məhz ən zəruri infrastrukturun yaradılmasından start götürdü.

Hər bir inkişaf yoldan başlanır. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizdə nəqliyyat infrastrukturu üzrə böyük layihələrin icra olunması təsadüfi deyil. Belə ki, burada avtomobil yolları infrastrukturunda 60 layihə üzrə 3501,6 kilometr yolun tikintisi nəzərdə tutulub, bunlardan 16 layihə tam, 1 layihə qismən başa çatıb. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq yekunlaşıb.

İndiyədək Füzuli, Zəngilan və Laçında beynəlxalq standartlara uyğun hava limanları inşa edilərək istifadəyə verilib. Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti tam istifadəyə verilib. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün inşası planlaşdırılıb və onlardan 42-sinin tikintisi başa çatıb, 3 körpü isə istismara verilib.

İşğaldan azad edilmiş yurd yerlərinin işığı da gur yanır. İlk günlərdən və indiyədək artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında elektrik enerjisi infrastrukturunun genişmiqyaslı şəkildə bərpası aparılıb.

Görülən işlərin həcmini rəqəmlər də aydın göstərir: istismara 14 elektrik yarımstansiyası buraxılıb. 1000 kilometrdən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilərək zəncirvari şəkildə 12 yeni yarımstansiya birləşdirilib və beləliklə, dairəvi təchizat sistemi yaradılıb. Bu sistem 330 kV-luq yarımstansiyalarla əlaqələndirilərək regionun enerji ehtiyaclarını tam təmin edir.

Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən 38 su-elektrik stansiyası 307 MVt güc təmin edərək ölkənin vahid enerji sisteminə inteqrasiya olunub.

Sudan söz düşmüşkən, Qarabağda və Şərqi Zəngəzurda su təsərrüfatı infrastrukturunun bərpası və modernləşdirilməsi də əsas prioritetlərdəndir. Bu sahədə görülən tədbirlər təkcə içməli su və suvarma təminatını deyil, həm də kənd təsərrüfatı istehsalının bərpasını, ekoloji tarazlığın qorunmasını təmin edir. 4 su anbarı istifadəyə verilib və bir sıra digər layihələr həyata keçirilib.

Qaz təchizatı sahəsində 6 magistral xəttin çəkilməsi də önəmli hadisədir. İndiyədək 9 qazpaylayıcı stansiya və 1 qaztənzimləyici məntəqə inşa olunub, 8 şəhərə, 20 kənd və 1 qəsəbəyə qazın verilməsi təmin olunub.

Beləliklə, elektrik, qaz və istilik təminatı sahəsində aparılmış layihələr işğaldan azad edilmiş ərazilərdə müasir və etibarlı enerji sistemini formalaşdırmağa və dayanıqlı enerji təminatına imkan yaradır. Bu infrastruktur həm regionun iqtisadi potensialını gücləndirir, həm də sosial-iqtisadi reinteqrasiyaya mühüm töhfə verir.

Regionun iqtisadi tərəqqisi davam edir. Bu işdə təbii sərvətlərdən geniş istifadə olunur. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye parklarında 50 rezident və 7 qeyri-rezident müəssisə qeydiyyata alınıb.

Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurun torpağı münbit, iqlim şəraiti əlverişlidir. Odur ki, burada ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün geniş imkanlar var. Kənd təsərrüfatının inkişafı isə yerli əhalinin məşğulluğunun təmin olunması, regionların sosial-iqtisadi inkişafı və ölkə üzrə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. İndiyədək həmin ərazilərdə müasir pivot suvarma sistemlərinə əsaslanan aqroparkların yaradılması, yaylaq ərazilərində heyvandarlıq təsərrüfatlarının fəaliyyətinin təmin olunması bu baxımdan təqdirəlayiqdir.

Reinteqrasiyanın vacib hissələrindən biri də turizmdir ki, bu sahə də inkişafdadır. Bölgə həmçinin əsl "yaşıl enerji" zonasına çevrilir. Azad edilmiş ərazilərimizdə hazırda 1500-dən çox fərdi evdə və ictimai binalarda Günəş panelləri quraşdırılıb. Beynəlxalq tərəfdaşlarla layihələr genişlənir, məsələn, BP şirkəti ilə Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsi icra olunur. Proqnozlara görə, yaxın illərdə bərpaolunan enerjinin istehsal gücü 600 MVt-a çatdırılacaq.

Bütün bu və digər işlər Prezident İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə gerçəkləşir. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə indiyədək 569 tədbirdə iştirak edib, ümumilikdə 177 müxtəlif təyinatlı layihənin təməlini qoyub,167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycanın investisiya imkanları Türkiyənin müxtəlif şəhərlərində təqdim olunub

**Türkiyənin Kahramanmaraş, Qaziantep və Adana şəhərlərində iş adamları ilə görüşlərdə ölkəmizin biznes və investisiya mühitinə dair məlumat verilib.**



Azərbaycanın investisiya mühitinin tanıdılması məqsədilə Türkiyənin Kahramanmaraş, Qaziantep və Adana şəhərlərində həmin şəhərlərin valiləri, universitet rektorları, sənaye və ticarət palatalarının rəhbərləri və sahibkarlarla görüşlər keçirilib.

Azərbaycanın Türkiyədə səfirliyi və ticarət nümayəndəsi aparatının təşkilatçılığı ilə keçirilən görüşlərdə ölkəmizin biznes və sərmayə potensialı, investorlar üçün tətbiq edilən güzəştlər haqqında məlumat verilib.

Görüşlər zamanı iki ölkə arasında investisiya əməkdaşlığının inkişafına dair müzakirələr aparılıb.

## Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçiriləcək

**Dekabrın 5-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçiriləcək.**

Tədbirdə təşkilata üzv olan (Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan) və müşahidəçi ölkələrin (Şimali Kipr Türk Respublikası, Macarıstan, Türkmənistan) əmək, məşğulluq, sosial müdafiə qurumlarının rəhbər şəxsləri və TDT-nin rəsmilərinin iştirakı nəzərdə tutulub.

Təşkilata üzv və müşahidəçi ölkələr arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcək iclasın yekununda Birgə Bəyannamə imzalanacaq.

## Dünya birjalarında neft ucuzlaşıb

### Azərbaycan neftinin qiymətində isə bahalaşma qeydə alınıb

**AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,31 dollar azalaraq 63,06 dollar olub.**



Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,26 dollar azalaraq 58,58 dollar təşkil edib.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti isə 0,53 dollar və ya 0,8 faiz artaraq 67,04 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Gələn il sosial rifah və strateji inkişaf siyasəti davam edəcək

**2026-cı ildə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında sosialyönlü xərclər yenə də prioritet istiqamətlərdən biri kimi ön plana çıxacaq. Dövlətin həyata keçirdiyi sosial islahatlar, əhalinin rifah halının yaxşılaşdırılması və sosial təminat mexanizmlərinin gücləndirilməsi gələn il üçün müəyyənləşdirilən əsas hədəflər sırasında yer alacaq. Sosial sahəyə yönələn investisiyaların artırılması həm vətəndaşların həyat keyfiyyətinin yüksəlməsinə, həm də dayanıqlı inkişafın təmin olunmasına xidmət edəcək.**

Bu baxımdan Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda qəbulu dövlətin sosialyönlü siyasətini davam etdirməsi və sosial müdafiə sisteminin gücləndirilməsinin əsas hədəf olaraq saxlanıldığını göstərir. Belə ki, gələn ilin dövlət büdcəsində sosialyönlü xərclərin 17,1 milyard manat olmaqla dövlət büdcəsinin 41 faizini təşkil edəcəyi nəzərdə tutulur. Bu ona dəlalət edir ki, sosial müdafiə sisteminin gücləndirilməsi və həssas əhali qruplarının sosial təminatının genişləndirilməsi dövlətin sosial siyasətinin mərkəzində dayanır. Pensiyaların indeksləşdirilməsi, ünvanlı sosial yardım mexanizmlərinin təkmilləşdirilməsi və aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi bu istiqamətdə atılan əsas addımlar kimi qiymətləndirilir. Bununla yanaşı, əmək bazarının modernləşdirilməsi, məşğulluq imkanlarının artırılması və qeyri-formal məşğulluğun azaldılması üçün yeni proqramların reallaşdırılması da gözlənilir.

Sosial xərclərin mühüm bir hissəsi yenə də təhsil və səhiyyə sektorlarına yönəldiləcək. Gələn il təhsil və elm xərclərinə 5,2 milyard, səhiyyə xərcləri üçün isə 2 milyard manat ayrılması planlaşdırılır. Təhsil sisteminin rəqəmsallaşdırılması, məktəblərdə maddi-texniki bazanın gücləndirilməsi və müəllimlərin sosial təminatının yaxşılaşdırılması bu sahədə həyata keçiriləcək başlıca tədbirlərdən olacaq. Paralel olaraq səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, tibbi infrastrukturun yenilənməsi də büdcə xərclərindən kənarda qalmayacaq.

2026-cı il dövlət büdcəsinin parametrləri formalaşdırılarkən ölkənin




makroiqtisadi sabitliyinin qorunması, sosial öhdəliklərin tam yerinə yetirilməsi və iqtisadi inkişafın təşviq edilməsi əsas götürülüb. Qeyd etdiyimiz iqtisadi və sosial hədəflər dövlət büdcəsinin proqnozlaşdırılmış gəlir və xərclər strukturunda daha aydın görünür. Xatırladaq ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard, xərcləri 41,7 milyard manat məbləğində nəzərdə tutulur. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat və ya ÜDM-in 2,3 faizi səviyyəsində proqnozlaşdırılır. Qanun layihəsinə əsasən, dövlət büdcəsinin xərcləri növbəti il üçün proqnozlaşdırılan ÜDM-ə nisbətdə 31,1 və gəlirləri 28,8 faiz təşkil edəcək.

2026-cı il üçün proqnozlaşdırılan dövlət büdcəsinin gəlir strukturu Azərbaycanın iqtisadi modelinin əsas dayaqlarını bir daha ortaya qoyur. Gəlirlərin 42,6 faizi, yəni 16,4 milyard manatlıq hissəsi hələ də ölkə iqtisadiyyatının strateji sütunu olan neft-qaz sektorunun payına düşür. Rəqəm enerji sektorunun maliyyə sabitliyində mühüm rol oynamaqda davam etdiyini göstərsə də, büdcə daxilolmalarının tam şəkildə bu sahədən asılı olmadığı da aydın görünür. Başqa sözlə, gəlirlərin 57,4 faizi və ya 22,2 milyard manatının qeyri-neft-qaz sektorundan əldə olunacağı gözlənilir. Qeyri-neft sektorundan əldə olunan bu pay həm də ölkənin uzunmüddətli inkişaf strategiyasının neftdənkənar mənbələrə söykənməsinə doğru addım-addım irəlilədiyini sübut edir. Bununla belə büdcə gəlirlərində xüsusi yer tutan daha bir mənbə Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transferlərdir. Gələn il üçün bu məbləğ 12,8 milyard manat səviyyəsində proqnozlaşdırılır. Xüsusi vurğulayaq ki, transferlər sosial proqramların maliyyələşdirilməsində və iqtisadi sabitliyin qorunmasında mühüm rol oynamaqla yanaşı, büdcənin maliyyə imkanlarını gücləndirir.

Növbəti il üçün də müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin gücləndirilməsi dövlət büdcəsinin ən vacib istiqamətlərindən biri olacaq. Regionda dəyişən geosiyasi reallıqlar, təhlükəsizlik çağırışlarının artması və ölkənin strateji mövqeyinin qorunması bu sahəyə ayrılan vəsaitin əhəmiyyətini artırır. Elə buna görə də gələn il müdafiə və təhlükəsizlik məqsədləri üçün dövlət büdcəsinin 21 faizi həcmində, yəni 8,7 milyard manat vəsaitin yönəldilməsi planlaşdırılır. Bu, təkcə hərbi potensialın gücləndirilməsi deyil, həm də ölkənin uzunmüddətli təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan mühüm addım kimi qiymətləndirilir.

Növbəti ilin dövlət büdcəsində xərc istiqamətləri arasında ən önəmli yerlərdən birini Böyük Qayıdışa dair I Dövlət Proqramının maliyyə təminatı tutur. Azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işlərinin davam etdirilməsi, infrastrukturun yenidən yaradılması, sakinlərin öz doğma torpaqlarına təhlükəsiz və rahat qayıtması dövlət siyasətinin əsas prioritetlərindən biri olaraq qalmaqdadır. Bunları həyata keçirmək üçün 2026-cı il büdcəsində 3,5 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## 2020-ci il noyabrın 26-da "Vətən Müharibəsi Qəhrəmanı" adı təsis olunub

# Ən gənc Vətən Müharibəsi Qəhrəmanı

## Vüsal Yaqubovun örnək olan döyüş gündəliyi

**Vətən Müharibəsi Qəhrəmanı: "Mən ehtiyatda olan bir əsgər kimi bir çox tədbirdə iştirak etmişəm. Orada qeyd edirdim, cənab Ali Baş Komandanımıza dərin minnətdarlığımı bildirirəm ki, məni 19 yaşımda "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edib. Şükür Allaha, bu gün öz doğma torpağımızda Sizinləyik. Sizə təşəkkürümü bildirirəm ki, məni və döyüş yoldaşlarımı yüksək fəxri adlarla qiymətləndirmisiniz. Çox təşəkkür edirəm".**

**Prezident İlham Əliyev: "Çox sağ ol, mən sənə təşəkkür edirəm, sənin simanda bizim bütün qəhrəman övladlarımıza. Onlar sinəsini qabağa verib düşməni torpağımızdan qovublar. Bax, belə igidlər hesabına biz bu gün burada dayanmışıq".**



25 oktyabr 2021-ci ildə Prezident İlham Əliyevin Qubadlı sakinləri ilə öz dədə-baba yurdlarında görüşü zamanı Müzəffər Ali Baş Komandanla Vətən müharibəsinin ən gənc qəhrəmanı Vüsal Yaqubov arasında aparılan bu dialoqu xalqımızı bütöv Azərbaycana qovuşduran ümummilli idealların, mübarizənin qısa şərhi kimi də dəyərləndirmək olar.

Bu, ana torpaq uğrunda son damla qanına qədər ölüm-dirim mübarizəsinə hər an hazır olan qəhrəman oğullarımızın rəşadətini, Azərbaycan uğrunda bütün dünyanı qarşısına almağa qadir olan qalib liderin amalını tam gerçəklikləri ilə nümayiş etdirən və hədəfi bütöv Azərbaycan olan Vətən dialoqu idi.

O gün azad Qubadlıda Zəfərin ən gənc qəhrəmanı Vüsal Yaqubov cəmi 19 yaşındaykən onu bu şərəfli ada layiq görən Müzəffər Ali Baş Komandanına minnətdarlığını bildirirdi...

Həmin gün Prezident İlham Əliyev Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubovun timsalında cəsur, əzmkar, mərd Azərbaycan oğullarına Qarabağı əsl sahiblərinə qaytardıqları üçün təşəkkürünü çatdırırdı...

### 19 yaşında tarix yazdı

"Həmin vaxt həyatımdakı ən unudulmaz günlərdən birini yaşadım. Məni İkinci Qarabağ müharibəsinin ən uca - "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görən Prezident İlham Əliyevlə ata yurdum Qubadlıda görüşmək, danışmaq, ondan xoş sözlər eşitmək bir başqa qürur idi. Bu dünyaya gözümü məcburi köçkün kimi açmışam. Yalnız valideynlərimin anlatdıqları qədər tanıdığım Qubadlıya Vətən müharibəsi sayəsində qədəm qoya bildim. Doğma torpağıma qalib əsgər kimi qovuşmağın özü də mənim üçün təsvirəgəlməz hiss idi. Bütün bu fəxarətli tarixləri xalqımız, dövlətimiz Prezident İlham Əliyevin ölkəmizə müdrik rəhbərliyi sayəsində qazanıb. Mən də bir əsgər, bir vətəndaş olaraq Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin hər an hər bir əmrini yerinə yetirməyə hazıram".

19 yaşındaykən Vətən müharibəsində tarix yazaraq xalqımızın qəhrəmanına çevrilən Vüsal Yaqubovla Zəfərimizin, "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis olunmasının beşinci ildönümündə başdan-başa igidliklərlə dolu döyüş yoluna bir daha özü ilə bərabər nəzər saldıq.

2 mart 2001-ci ildə Bakının Əhmədli qəsəbəsində məcburi köçkün ailəsində dünyaya göz açıb Vüsal Elşən oğlu Yaqubov. Anası Füzulidən, atası Qubadlı rayonunun Yusifbəyli kəndindəndir. O, lap kiçik yaşlarından yurd həsrətinin nə olduğunu bilib, ata-anasının ötən illər ərzində doğma torpaqlarından ötrü necə həsrət çəkdiklərinin şahidi olub. 1993-cü ildə işğal zamanı Qubadlını ən son tərk edənlərdən biri də Vüsalın atası imiş. O, evlərindən çıxanda ermənilərin qohumlarını necə öldürməsini gözləri ilə görmüşdü. Həmin vaxt elə atası Elşən də öldürülməkdən, düşmənə əsir düşməkdən birtəhər canını qurtararaq təkbaşına Cəbrayıl rayonuna qədər gələ bilmişdi.

Vüsal danışır ki, kiçik yaşlarından həmin dəhşətli anları gözünün önündə canlandırır, ürəyində düşməndən qisas almaq hissi coşurdu. Bütün bu yaşanan faciələr onda hərbçi olmaq arzusunu oyadırdı.

- Məktəbdə oxuduğum dövrdə "Şahin" hərbi oyunları keçirilirdi. Mən məktəbimizdə şagirdlər arasında taqım komandiri seçilirdim və o oyunlarda həvəslə iştirak edirdim. Dərslərlə paralel idmanın cüdo növü üzrə də məşğul olurdum. Yəni hələ erkən yaşlarımdan fiziki hazırlığımı artırır, gələcəkdə yaxşı döyüşçü olmaq üçün bacarıqlarımı inkişaf etdirirdim. Bilirdim ki, nə vaxtsa düşməndən mütləq qisasımızı alacağıq.



### Bir tabor məhv edildi

Vüsal Yaqubov hərbi sahəyə olan hədsiz istəyinə görə, 2019-cu ildə oxuduğu kollecdə (Göyçay rayon İdarəetmə və Texnologiya Kolleci) könüllü olaraq təhsilini dayandırıb hərbi xidmətə yollanır. Bir aydan sonra Xüsusi Təyinatlı Qüvvələrin seçimi ilə Cəlilabadda yerləşən "N" saylı hərbi hissəyə göndərilir və əsgəri xidmətini orada davam etdirir. Çox çətin təlimlərdən keçir. İkinci Qarabağ müharibəsindən 8 ay əvvəl isə, sanki həqiqi döyüşün içərisindədir kimi, durmadan dağ təlimlərində olur. Həmin vaxt Vüsal özü də bilmir ki, qarşıda onu əsl savaş gözləyir.

- Tərxis müddətimə cəmi 4 gün qalmışdı, evə qayıtmağa hazırlaşırdım. Amma düşmənin növbəti təxribatının qarşısını almaq üçün ordumuz əks-hücum əməliyyatlarına başladı. Mən də Xüsusi Təyinatlı Qüvvələrin döyüş bölməsinin əsgəri kimi savaşa qatıldım.

Füzulinin Horadiz qəsəbəsinin postlarından başlayaraq, rayonun bir çox kəndini azad etdik. Bu ərazilərdə minalanmış sahələr, düşmən postları çox idi. Bütün çətinliklərə baxmayaraq irəliləyirdik. Adsız yüksəkliklərin birində yarımçıq düzəldilmiş səngərin içində dincəlmək məqsədilə dayandıq. Həmin vaxt gizirimiz dedi ki, tank səsi gəlir, qumbaraatanlar mövqe tutsunlar. Bir qədər sonra qumbaraatanlarımız yaxınlaşan düşmən "Kamaz"ını vurdular. "Biz onun sürücüsünü susdurduq, bundan sonra düşmənə sursat və təminat aparan daha iki "Kamaz" gəldi. Bir az ara sakitləşdi, biz mərmilərimizi doldurmağa başladıq. Bu zaman snayperçimiz dedi ki, soldan düşmənin şəxsi heyəti gəlir. Ara məsafəmiz 350 metr olardı. Düşmənin döyüşçüləri yol döngəsindən dönürdülər, öndə isə komandirləri irəliləyirdi. Taqım komandirimiz fənd işlədib düşməni "ölü bölgə"yə salmaq üçün pusquya çəkdi və uzaqdan gülləni onların komandirlərinin başına vurdu. Biz isə şəxsi heyətin arxaya qaçmasına imkan vermədik. Minaatanlarımız məsafəni hesablayıb mərmiləri elə atdılar ki, ortalarına düşdü və düşmənin bir tabor əsgəri məhv edildi".

### Qəhrəman olduğu gün

Həmin uğurlu döyüşdən sonra Vüsalgilin taqımı xüsusilə seçilir. Füzulinin bir çox kəndini azad edərək rayona daxil olmadan əks tərəfdən iki gün palçıqlı sahələrlə yol qət edərək Cəbrayıla çatırlar. Burada da Silahlı Qüvvələrimiz düşməni darmadağın edərək onu qaçmağa məcbur edir və bayrağımızı Cəbrayıl rayonunun girişində dalğalandırırlar. Daha sonra 14 gün Füzuli uğrunda ölüm-dirim savaşı apararaq rayonun mərkəzini tam azad edirlər və bundan sonra Xocavənd rayonuna doğru istiqamət alırlar.

Vüsalın həyatda heç zaman yadından çıxmayacaq savaş səhnəsi Xocalının Sığnaq kəndində olur. Elə burada göstərdiyi şəxsi igidliyə görə Prezident İlham Əliyev tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülür.

- Sığnaq kəndində tutduğumuz mövqenin arxasında bölmələrimiz düşmənlə döyüşürdülər. Mən isə yolun mühafizəsində dayanmışdım. Birdən əsgər yoldaşım dedi ki, Yaqubov, bizim formada şəxsi heyət görünür. Dedim ola bilsin ki, bizə kömək gəlir. Sonra isə düşündüm ki, bizə kömək gecə saat birdə gəlib çatacaq, indi o vaxt deyil, saat 17-18 radələridir. Amma yenə də dedim ki, get bax.

Bu zaman başımı sağa çevirəndə gördüm ki, palçıqlı, ağ rəngli bir "Pikap" meşənin içərisindən yola çıxır. Maşının arxasında da iriçaplı pulemyot var. Aramızda 40 metr məsafə olardı. Arxadan baxanda üzərindəki döyüşçünün kaskası bizim milli ordunun kaskasına oxşayırdı. Bir anlıq tərəddüd etdim ki, birdən öz döyüşçümüz olar, amma aramızdakı məsafə bir az da azalanda o, məni gördü və dərhal gözünü nişangaha qoydu ki, vursun. Mən ondan cəld davranaraq pulemyotla onun alnından vurdum.

Bu vaxt onun başı pulemyotun üzərinə əyildi, sadəcə əli tətikdə olduğu üçün güllələr gəlib yanıma mövqe üçün qoyduğum dəmirə dəydi, amma qəlpələri məni də tutdu. Buna baxmayaraq silahı susdurmadım, atış vəziyyətində saxladım, düşmənin maşınının içərisindəkilərə xəsarət yetirdim. Daha sonra əl qumbarasını çəkib maşının arxasına atdım və bundan istifadə edib yerdəyişmə etdim, hardasa 10 saniyə sonra onlar mənim çıxdığım yeri RQB qumbaraatanı ilə vurdular.

Sonra bildik ki, məni vurduqları "Pikap"dan əlavə daha bir "Pikap" da var imiş, onların arxasında isə 11 nəfərlik şəxsi heyət dayanıbmış. Hamısı xüsusi təyinatlılar idi. Mən birinci maşındakıları vurandan sonra digərləri qorxaraq dərəyə qaçmışdılar.

Məhz həmin vaxt düşmənin xüsusi təyinatlı alayının 20-yə yaxın döyüşçüsü ilə təkbaşına döyüşdüyümə görə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüm.

### "Yaralı halda Böyük Tağlar kəndinə bayrağımızı sancdım"

Vüsalgilin taqımı qəhrəmanlıqla Sığnaq kəndini də azad etdikdən və 4 gün mühafizəsini saxlayıb qüvvələrimizə təhvil verdikdən sonra üz tuturlar Şuşanı azad etməyə. Əvvəlcə Daşaltı istiqamətinə gedirlər, amma kəndə girmədən yolun solu ilə gedib meşənin içindən yoldaşları ilə birgə iki gün Laçın dəhlizini müşahidə edirlər.

- O zaman mülki ermənilər Şuşadan çıxırdı, təkər dolu "Kamaz"lar yola daxil olurdu. Dəhlizin sağından ekskavator torpaq yolla səngər qaza-qaza gedirdi. Yolboyu ancaq səngər idi və düşmən onların içində pulemyotçularla qumbaraatanlar yerləşdirmişdi. Yəni düşmənin ciddi şəkildə müdafiəyə hazırlaşdığını görürdük. Amma fikirləşməmişdilər ki, biz sıldırım qayalardan çıxaraq gələ bilərik. Ona görə də ancaq yolu tutmuşdular.

Şuşaya az qalmış iki təpə var idi, biri alçaq, digəri nisbətən hündür idi. Noyabrın 4-də orada atışma oldu, birinci təpəni götürdük. İkinci təpənin üstü erməni əsgərləri ilə dolu idi. Sonradan onların çoxu Şuşanın mərkəzinə hərəkət etdiyi üçün orada cəmi 4 erməni qaldı, onlar da qumbaraatanlardan atəş açırdılar. Daxili Qoşunlarımızın snayperçisi onları zərərsizləşdirəndən sonra hücum edib təpəni aldıq. Bir taqımımız burada yerləşdi, qalanlarımız vaxt itirmədən Şuşanın içinə doğru istiqamətləndik.

Noyabrın 6-da biz Şuşaya girəndə bölmələrimiz artıq düşmənin axırına çıxmışdılar. Yolların ətrafı düşmən cəsədləri ilə dolu idi, amma tək-tük sağ qalanlar da vardı. Biz Bülbülün evinə qədər getdik. Ondan sonra döyüşçülərimiz qalada mövqe tutmaq istəyirdilər ki, tankla oranı vurdular. Əsgər yoldaşlarım yaralansalar da, qətiyyətlə təxliyə olunmaq istəmədilər və döyüşü davam etdirdilər.

Özüm də Xocavəndin Böyük Tağlar kəndində yaralanmışdım, lakin bir an da döyüşü dayandırmaq fikrində olmamışdım. Hətta yaralı halda həmin kəndə bayrağımızı sancmışdım.

Şuşanı azad etdikdən sonra istiqamətimiz Şuşakənd idi. Həmin vaxt düşmən kapitulyasiya - məğlubiyyət aktını imzaladı.

Beləliklə, taqımımız hünərli döyüş yolu keçib sona qədər cəsarətlə vuruşdu və əldə olunan böyük Zəfərdə payı oldu.

### Düşmən xüsusi təyinatlılarımızı görəndə bilirdi ki, artıq ölüm yaxındadır

Müharibə bitdikdən sonra Vüsal Yaqubov Şuşada beş həftə qalır, daha sonra Cəlilabada qayıdır. Amma ailəsi burada onu üzücü bir xəbərlə qarşılayır. Öyrənir ki, əmisi Fəxrəddin Yaqubov Vətən müharibəsi bitəndən sonra, noyabrın 26-da düşmən tərəfindən öldürülüb.

Fəxrəddin Yaqubov 44 günlük müharibə zamanı Cəbrayıl, Füzuli, Qubadlı və Laçın istiqamətlərində gedən döyüşlər zamanı şəhid olan və yaralanan hərbçilərimizi döyüş meydanından çıxaran təcili tibbi yardım avtomobilinin sürücüsü olub. O, noyabrın 22-də Laçın rayonu ərazisində azaraq Ermənistan Ordusunun olduğu əraziyə daxil olub və orada əsir götürülərək öldürülüb. Nəşi noyabrın 30-da Azərbaycan tərəfinə təhvil verilib. Vüsal hərbi xidmətdə olduğu üçün ailəsi əmisinin ölüm xəbərini ona bildirməyib.

- Müharibənin qələbə ilə başa çatması təkcə döyüşçülərin qəhrəmanlığına görə deyil, müdrik rəhbərin, qətiyyətli liderin bacarığı sayəsində mümkün olur. Qarabağ zəfərini bizə Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək komandanlıq qabiliyyəti, səriştəsi qazandırdı.

Cənab İlham Əliyev tərəfindən orduya göstərilən yüksək diqqət və qayğının təzahürü idi ki, qəhrəman döyüşçülərimiz cəmi 44 gün ərzində düşməni torpaqlarımızdan qovub çıxardı. O cümlədən də döyüş üçün yüksək səviyyədə yetişdirilən Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüləri savaş meydanında öz sözlərini dedilər. Düşmən bizdən çox qorxurdu, xüsusi təyinatlılarımızı görəndə bilirdilər ki, artıq ölüm onları haqlayıb.

### "Vətənim Azərbaycanın inkişafı, uğurları üçün hər zaman səylə çalışacağam"

- Ata-anam doğulduqları yurdlarına düz 30 ildən sonra, Zəfər sayəsində yenidən üz tutdular. Onların uşaqlıq çağları, ömürlərinin yarısı bu torpaqlarda keçmişdi. İllərdən sonra həmin yurda qədəm qoymaları, öz uşaqlıq illərini gözləri qarşısına gətirmələri insanı duyğulandıran səhnələr idi...

Atamgilin vaxtilə Qubadlıda yaşadıqları evə gedəndə dağılmış, xarabalığa çevrilmiş, yalnız quruca divarlardan ibarət bir "evə" daxil oldum. Orada köhnəlmiş, paslanmış bir yataq gördüm, hansı ki atam uşaqlığında orada yatıb. O an atamın kövrək, qəhərli gözlərinə baxdım. Mən də kədərləndim...



Bilirsiniz, əslində, orada iki hissi - sevinc və kədəri eyni anda yaşadım. Pis oldum ona görə ki, atamın bütün xatirələri bu evdə qalmışdı. Sevindim, ona görə ki, həmin köhnəlmiş xatirələrin sahibi illər sonra öz doğma torpağına, od-ocağına yenidən qovuşmuşdu...

Biz xalq olaraq çox çətinliklərdən, məşəqqətlərdən keçdik, amma əyilmədik, sınmadıq, haqq mübarizəmizi sonadək davam etdirib Zəfər çaldıq.

Azərbaycan gəncliyinə tövsiyəm ondan ibarətdir ki, Vətəni daim sevsin, torpaqlarını hər zaman qorusun, özündən sonra gələn bütün nəsillərə 8 Noyabr 2020-ci il Şuşa Zəfərini çatdırsın. Və ən əsası bu qədər igidin torpaqlarımız uğrunda nə üçün döyüşdüyünü əsla unutmasınlar.

Vətən müharibəsində "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunan Vüsal Yaqubovun sözlərinə görə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin etimadını doğrultduğu üçün qürur hissi keçirir.

Əfsanəvi qəhrəmanımız Vüsal Yaqubov həm də o mənada qürurludur ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev onu "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüb.

Zəfərimizin ən gənc qəhrəmanının yeganə hüznü isə müharibədə çiyin-çiyinə vuruşduğu bəzi döyüşçü yoldaşlarının şəhid olmasıdır. Hər zaman vurğulayır ki, əgər o bu gün həyatdadırsa, bu, məhz şəhidlik zirvəsinə ucalan qardaşlarının qəhrəmanlığı sayəsində mümkün olub: "Gələcəkdə də istər hərb, istər mülki olsun, çalışdığım işdən və bölgədən asılı olmayaraq, Vətənim Azərbaycanın inkişafı, uğurları üçün hər zaman səylə çalışacağam".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Səyyar Gənclər Xidməti" layihəsi Xankəndidə yekunlaşıb



"Suveren dövlət, vətənpərvər gənclik" devizi ilə keçirilən və gənclərin hərtərəfli inkişafına dəstək olan "Səyyar Gənclər Xidməti"nin bağlanış mərasimi Xankəndidə olub.

Gənclər Fondundan AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması çərçivəsində həyata keçirilən layihə ölkə gəncləri arasında dövlət suverenliyi və müstəqillik anlayışlarının dərinləşdirilməsinə, tarixi Zəfərimizin mahiyyətinin yeni nəslə aşılanmasına, həmçinin regionlarda innovativ təşəbbüslərin təşviqinə xidmət edib.

Layihə cari ilin avqust ayından etibarən 15 şəhər və 132 kəndi əhatə etməklə 5000-dən çox gənci bir araya gətirib. Xidmətin yekun mərhələsi olaraq Xankəndidə keçirilən bağlanış mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev, Qarabağ Universitetinin Maliyyə-təsərrüfat işləri üzrə prorektoru Rüstəm İsgəndərli və Gənclərin İnkişaf və Karyera Mərkəzinin baş direktoru Azər Əliyev çıxış edərək "Səyyar Gənclər Xidməti"nin ölkə gənclərinin maarifləndirilməsinə, dövlətçilik dəyərlərinə bağlılığının gücləndirilməsinə və onların şəxsi inkişafına verdiyi töhfələri yüksək qiymətləndiriblər.

Tədbirin rəsmi hissəsindən sonra "Gənc Könüllülər" İctimai Birliyinin sədri Ayxan Allahverdiyev rəsmi qonaqları və iştirakçıları xidmətin fəaliyyət sahəsi ilə tanış edib. Ardınca açıq hava şəraitində gənclərin iştirakı ilə dövlət gənclər siyasəti, ixtisas seçimi, karyera planlaması, şəxsi inkişaf və könüllülük kimi mövzuları əhatə edən maarifləndirici sessiyalar və təlimlər keçirilib.

Bununla yanaşı, gənclərin yaradıcı potensialını üzə çıxarmaq məqsədilə interaktiv fəaliyyətlər - vörkşoplar, master-klaslar, intellektual yarışlar və viktorinalar təşkil olunub. Stolüstü oyunlar və komanda əsaslı əyləncə proqramları gənclərin asudə vaxtının səmərəli təşkili və sosial bacarıqlarının inkişafına şərait yaradıb. Fəaliyyətlərdə fəallığı ilə fərqlənən iştirakçılar mükafatlandırılıblar.

Xatırladaq ki, "Səyyar Gənclər Xidməti" layihəsi Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "Gənc Könüllülər" İctimai Birliyi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə həyata keçirilib.





# Mədəniyyət





Səhnə xadimləri

# Obrazların arxasından baxan sənətkar

**Vaxtından əvvəl ağarmış saçları, ağ saqqalı ona ruhani bir görkəm, müdriklik çaları verir. Səsinin ahəngi də özünəməxsusdur. Aramla, sakit-sakit danışdıqca içində qəribə rahatlıq hiss edirsən. Düşünürsən ki, o, həm də yaxşı psixoloqdur. Lakin bu insan nə psixoloqdur, nə də din xadimi… O, çoxlarının yaxşı tanıdığı ciddi, dramatik obrazların mahir ustası aktyor Kamran Yunisdir.**

Azərbaycan teatr və kino aktyoru, rejissor, bədii qiraət ustası Kamran Yunis 5 dekabr 1974-cü ildə Bakı şəhərində dünyaya gəlib. Aktyor deyir ki, babam Molla Yunisin adını özümə təxəllüs götürmüşəm. Anam salyanlı, atam balakənlidir. Özüm Bakıda doğulmuşam. Xalq şairi Xəlil Rzanın bacısı oğluyam.

Kamran Yunis səhnəyə gəlişini tale məsələsi hesab edir. Bir təsadüf ömrünün yazısı olub. O, bu haqda deyir: "Üçüncü sinifdə oxuyurdum. Bir tədbirə getmişdim. Xəlil Rza ilə görüş, ardınca da Bəxtiyar Vahabzadənin "Dar ağacı" pyesi əsasında hazırlanmış tamaşa var idi. Mikayıl Mirzə həm tamaşada oynayırdı, həm də tədbirin aparıcısı idi. Onda 8 yaşım vardı. O hadisə əbədi olaraq yaddaşıma həkk oldu. Mikayıl Mirzə şeir dedi, Xəlil dayı da çıxış etdi... O zaman bir ənənə var idi. Teatra gələn aktyorlara təqdim etmək üçün gül buketi aparırdılar. Gözəl adət-ənənə idi. Əslində, heç bir aktyorun o gülə ehtiyacı olmadığını hamı bilirdi. Sadəcə olaraq bu, aktyora olan sayğının, sevginin nümayişi idi, o vaxt da, indi də... Biz də gül almışdıq. Anam dedi ki, gülü mən verim. Demək olar gül elə mən hündürlükdə idi. Gülü verdim Mikayıl əmiyə. Mikayıl Mirzə məni qucağına götürdü. O, şeiri deyəndə mən onun qucağında, sol qolun üstündə zala baxırdım. Nə oldusa, bir möcüzə baş verdi bir dəqiqənin içində. Həmin sehr məni saldı bu ilahi yolun izinə. O gündən, 40-42 ildir ki, mən bu yolun yolçusuyam".

Kamran Yunis 1991-1996-cı illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alıb. Ustad rejissor Vaqif İbrahimoğlunun, Həsənağa Turabovun tələbəsi olub. 1993-cü ildən 2011-ci ilə kimi "YUG" teatrında çalışıb. Rusiya, İran, Amerika Birləşmiş Ştatları, Misir, Türkiyə, İtaliya, Hindistanda beynəlxalq film festivallarının iştirakçısı olub. "Odlar yurdu Azərbaycan" filmi "ARRİ" mükafatına layiq görülüb. 2015-ci ildə Türkiyədə "Xəlvətdə qalmış müdrik" filmi "Altun şafran" mükafatına layiq görülüb. Sənətçinin çəkildiyi "Rami" filmi 2007-ci ildə Hidistanın New Delhi şəhərində keçirilən Asian film festivalında "opening film" (açılış filmi) olub. Bu filmə görə, 2007-ci ildə dünyanın ən məşhur qəzetləri - "The New York Times", "New Delhi Times" ondan yazıb. 2012-ci ildə Azərbaycanda ilk olaraq Redyard Kiplinqin "Mauqli" (8 saat), 2019-cu ildə isə Vaqif Səmədoğlu şeirlərindən ibarət "Xatirəni… gəl özün apar" gözdən əlil və fiziki imkanları məhdud olan uşaqlar üçün nəzərdə tutulmuş audio kitabının müəllifi də Kamran Yunisdir. AzTV-nin dublyaj studiyasında çalışan aktyorun 5000-ə yaxın filmin ana dilimizdə səslənməsində zəhməti var.

Teatrın cəmiyyətdəki rolundan, aktyor - tamaşaçı münasibətindən danışarkən aktyor dedi:

- Teatr, aktyorluq sənəti tamam başqa bir şeydir. Deyirlər, teatr tərbiyə məktəbidir. Buradan cəmiyyətə mesajlar ötürülür. Mən fərqli düşünürəm. İnsanlar olmaq istədikləri kimi olurlar. İslah olunmayan adamlar heç vaxt düzəlmirlər.



Teatr mənim üçün insan ruhunun sərbəst yaradıcılıq məkanıdır. Öz düşüncəmi deyirəm: bu günə islamı bizə düzgün anlatmadıqları kimi, bir çox sənət sahələri barədə də yanlış təsəvvür yaradıblar, eləcə də teatr haqqında səhv düşüncədəyik. Teatr əslinə qalsa, bir mistik oyun məkanıdır. İnsanlar teatra enerji mübadiləsi üçün gəlirlər. Teatra gələn öz enerjisini səhnədə olan aktyora ötürür, həm də aktyordan enerji alır. Teatr tamaşaçı ilə sənətçinin ruh mübadiləsi etdiyi məkandır. Baxın muğam heç nəyini dəyişməyib. Muğam hansı müstəvidə var idisə, eyni müstəvidə də qalıb. Biz çox fərqinə varmırıq ki, xanəndə nə oxuyur, biz deyirik, ay gör nə edir. Muğam, klassik simfoniya əsərlərində o ruhsallıq hələ də qalır. Teatrda belə deyil. Gəlin özümüzü aldatmayaq. Çünki "böyük" aktyor olub ağıl, tərbiyə verənlərin ədasını tanıyıram. Böyük sənətkarlarımız var idi. Təkcə sənətləri ilə böyük deyildi həmin insanlar, şəxsiyyətləri, mənlikləri ilə də böyük idilər. Həsən Turabov, Fuad Poladov. Bu gün incəsənətimizin, kinomuzun, teatrımızın durumu məni qane etmir. İnandırım sizi ki, tamaşaçı şəxsiyyətin ardınca gəlir. Yadınıza gəlir, Fuad müəllimin səsi... Onu xatırlayın... Eşidəndə ki, Fuad Hamleti oynayacaq, insanlar teatra axışırdı. Onlar Fuad müəllimi görmək üçün teatra gedirdi. Teatr şəxsiyyətləri sevir. Bax indi teatrlar o şəxsiyyətləri yetişdirmir.

Sosial şəbəkələrin cəmiyyətdəki rolundan danışan sənətkar dedi:

- Sosial şəbəkələrə girmək olmur. Adam baxır, gördüklərindən dəhşətə gəlirsən. Bilmirsən ağlayasan, bilmirsən güləsən. Üç il qabaq "Feysbuk" sosial şəbəkəsindən uzaqlaşdım. Deyərdim ki, bir üç il dincəldim. Dost, tanışlar dedilər ki, "yox, sən sənətçisən, sən gərək sosial şəbəkələrdə olasan. Üzdə olasan, gündəmdə olasan". Mən yenidən qayıtdım sosial şəbəkəyə. Artıq yenə də diksinməyə başlayıram. Sosial şəbəkə aktyor üçün heç nə vermir. Guya bu saytların başında duran ziyalılardır... Hərdən düşünürəm ki, bəlkə biz əxlaq polisi yaradaq? Sosial şəbəkələrdə videoların altına baxırsan, utanırsan. Fikirləşirsən ki, nə yaxşı anam sağ deyil, nə yaxşı ki, bacım yoxdur. Amma bu məmləkətin bütün ana, bacıları bizimki deyillərmi?

Həmişə nümunəvi əxlaqı ilə seçilən insanların obrazını yaradan sənətkar deyir:

- Mənim rol seçmək imkanım olsa, bir az qəddar, bir az ləyaqətsiz, bir az araqarışdıran obrazını seçərdim. Mənim buna ehtiyacım var. Çünki son zamanlar mənəviyyatca zəngin o qədər obraz yaratmışam ki, hiss edirəm özüm-özümü təkrarlayıram. Bunu istəmirəm. Möhürlənmiş düşüncə ilə heç vaxt razılaşmamışam. İstəmirəm ki, məni şablon halına salsınlar.

Uğurlarımızdan danışan aktyorun üzünin cizgiləri də dəyişir. Vətən müharibəsində qazandığımız qələbədən danışarkən fikrini belə ifadə edir: "XXI əsrdə bizim ən böyük uğurumuz, 44 günlük Vətən müharibəsində qələbəmiz oldu. Buna xalqımız və zaman artıq qiymətini verib və gələcək nəsillər də bunun qürurunu yaşayacaqlar. Bunu başa düşdük. Bu gün Azərbaycanda muğam sənəti ilə məşğul olanlar, xalq, bəstəkar mahnılarını ifa edənlər nə isə etməyə çalışırlar və edirlər də... Bəs Azərbaycan teatrı haradadır? Gəlin açıq danışaq. Azərbaycan teatrının bugünkü vəziyyəti elədir ki, onu dəyərləndirmək olmaz. Hanı qələbə mövzusunda hamının ağız-ağız danışdığı, müzakirə etdiyi, təsirindən çıxa bilmədiyi tamaşa və yaxud gözəl bir əsər? Bu gün Qarabağ dirçəlir. Həyat yenidən bərpa olur. Amma mədəniyyət sahəsində bir durğunluq var. Mədəniyyətimiz quruculuq işlərindən geridə qala bilməz. Hansı simfoniya yazılıb? Bəlkə ortalıqda bir diqqətçəkən əsər var, biz bilmirik? Açığını deyim, bizim ədəbiyyat, incəsənət adamları böyük hesabla əsgərlərimizə, ordumuza uduzublar.

Aktyor Kamran Yunis bu gün Azərbaycanda ən çox seriallara çəkilən, üzdə olan aktyorlardandır. Rejissor-sənətkar münasibətlərindən danışan aktyor deyir:

- Rejissor o qədər savadlı, bilikli olmalıdır ki, istəməsəm də, mən onun qarşısında yığılıb oturmalıyam ki, o məndən elmlidir, ən önəmlisi isə istedadlıdır. Vaqif İbrahimoğlu kimi ustad rejissor məktəbindən çıxan bir adam kimi rejissorlara baxıram, görürəm ki, o qədər bayağı fikirlər, bayağı düşüncələri gətirib ortaya qoyurlar ki, adam rolu oynamaq istəmir. Adil Azayın, Emin Quliyevin Hikmət Rəhimovun filmlərinə çox böyük zövqlə baxıram. Bu gün Azərbaycanda işlədiyim və işləmək istədiyim yeganə rejissor Rövşən İsaxdır. Rövşən İsaxın iş üslubu mənə xoşdur. Çünki düşüncəsinə, səviyyəsinə, istedadına, peşəkarlığına güvənirəm. Biz ötən il böyük bir filmi bitirdik. Hacı Zeynalabdin Tağıyev. Üç film gedib. İndi dördüncü də çıxacaq. Yəqin bu yaxınlarda tamaşaçılara təqdim ediləcək. Mən orada Zərdabini oynamışam. Düşünürəm ki, o film də uğurlarımızdan biridir. Oradakı rolum ömrümə yazılacaq bir işdir. Nə qədər ki, ayağım yer tutur, nə qədər ki, canımda can var, içimdə bir işıq var, daha böyük uğurlu işlər görmək istəyirəm. Təəssüf ki, xoşumuza gəlsə də, gəlməsə də deməliyik ki, məişət mövzulu seriallların altından çıxa bilmirik. Bu bizim gerçəkliyimizdir.

Aktyor Kamran Yunis vətənpərvərdir, əsl azərbaycanlıdır. Bu Vətənin insanlarını da, hər qarış torpağını da, bu torpağın yetişdirdiyi böyük sənətkarları da ilahi bir eşqlə sevdiyini dilə gətirir. Çatışmazlıqlara, nöqsanlara, onları yaradan səbəblərə etiraz edir. O deyir:

- Azərbaycan dünya mədəniyyətinin mərkəzi ola biləcək bir qüdrətdədir. Bir dəfə "Odlar yurdu Azərbaycan" sənədli filmini çəkirdik. Qazaxıstandan gəlmiş bir nəfər sənət adamı Azərbaycanı görüb dəhşətə gəlmişdi. Deyirdi ki, dünya sivilizasiyası buradan başlayıb. Atəşgah burdadır, Qobustan burdadır. Nələr yoxdur ki, Azərbaycanda. Elə dünyanın mərkəzi buradır. Azərbaycanın bu qədər zəngin sərvəti var. Ən böyük sərvəti isə istedadlı insanlarıdır. Bir də görürsən dağın başında bir cavan oğlan başladı oxumağa. Deyirsən, Allah, bu nə səsdir, bu nə möcüzədir. Sadəcə olaraq, belə işlərə dəyər vermək lazımdır. Bir çox müqəddəs olan şeylər var, onların qədrini bilməliyik. Müqəddəs bildiklərimizə toxunmaq olmaz. Məsələn, Qız qalasının üstündə mismarla Tahir+Lamiyə yazmazlar. Şirvanşahlar sarayının divarına "piano düzəldirəm" elanı yapışdırmazlar. İçərişəhərdə gəzəndə bəlkə də barmağımızın ucunda gəzməliyik. Çünki bu bizim tariximizdir. Bu, ruhumuzun şəhəridir. Bunları həmılıqla qorumalıyıq.

Aktyor kimi uğurlarından danışarkən fərəhlə dedi:

- Mən iki dəfə İranda filmə çəkilmişəm. Pis olmayıb, yaxşı olub. Onlar haqqında dünya mediasında çox gözəl sözlər yazılıb.

Kamran Yunis səhnəyə çıxanda tamaşaçıya yalnız obraz deyil, yeni nəfəs, düşüncə bəxş edən aktyorlardandır. Kamran Yunisin yaratdığı surətlər Azərbaycan teatr və kino yaddaşında özünə əbədi yer alıb. Sənətə bağlılığı göstərir ki, o, hələ bundan sonra da uzun illər səhnəmizin ruhunu yaşatmaqda davam edəcək.

***Elşən QƏNİYEV, İlham BABAYEV(foto), "Azərbaycan"***

Yeni nəşrlər

# Duyğuların gözü ilə qələmə alınmış kitab

**Publisist və araşdırmaçı Fazil Rəhmanzadənin yeni işıq üzü görən "Duyğuların gözü ilə… (Jurnalistin cib dəftərindən)" kitabında son illərdə qələmə aldığı müxtəlif janrlı əsərləri toplanıb.**

Oxuculara təqdim olunan bu kitabda müəllif insanın şüurunun ən önəmli cəhətlərini ehtiva edən vacib məqamları nəzərə çarpdırır. Kitabda qeyd olunur: "Tanrı insanlara bəxş etdiyi iki görən gözdən savayı, eyni zamanda duyğularının gözləri ilə görməyi də onlara bəxş edib. Bax bu məsələ qeydlərin əsas məğzi və təlqin etdiyi vacib məqamdır".

Müxtəlif səciyyəli, maraqlı qeydlər toplusunu özünəməxsus "Jurnalistin cib dəftərindən" rubrikası altında oxuculara təqdim edən Fazil Rəhmanzadə əvvəlki kitablarında olduğu kimi, bu yeni nəşrdə də qəhrəmanlarının daxili aləmini, mənəvi keyfiyyətlərini, duyğu və düşüncələrini peşəkarlıqla qələmə alıb. Toplunu elə buna görə "Duyğuların gözü ilə..." adlandırıb.

Kitaba fizika-riyaziyyat elmləri doktoru, professor Vaqif Salmanov yazdığı "Yaşamağa dəyər, qardaşım" adlı məqaləsində oxucunun diqqətini öncə kitabın adına yönəldir. Müəllif bildirir ki, Fazil Rəhmanzadənin kitaba "Duyğuların gözü ilə…" adının verilməsində böyük məna və məntiq vardır: "Bu, onun içindən gələn bir haraydır. İnsanlığın bütün varlığını ehtiva edən bir nalədir".

Çox mənalı ömür yolu keçən, Azərbaycan milli mətbuat tarixində 65 il məhsuldar yaradıcılıq həyatı yaşayan Fazil Rəhmanzadə kimi ustad sənətkarın belə deməyə tam haqqı çatdığını, çünki onun özünün ailəsində də, dostlar, yaxınlarla münasibətində də, təqdirəlayiq yaradıcılıq fəaliyyətində də həmişə məhz bu kodeksə söykəndiyini bildirən Vaqif Salmanov yazır: "Onun 1974-cü ildə "Jurnalistin cib dəftərindən" rubrikası ilə çapdan çıxmış ilk "Haradasa görüşmüşük"dən başlamış indi əlimizin altında olan yeni əsərinə qədər 30-dan çox irihəcmli publisist kitabının hamısını rövnəqləndirən həmin müqəddəs duyğu müəllifin özünün harayı qismindədir".

"Duyğuların gözü ilə…" kitabına müəllifin müxtəlif mövzularda qələmə aldığı yazıları daxil edilib. "Hikmətin məna çaları" adlı yazısında Fazil Rəhmanzadə dövrünün ən ağıllı təfəkkür sahiblərindən olmuş F.Nitşenin "Zəkanın hər hansı uğuru, irəliyə hər hansı bir addımı - müdriklikdən, özünə amansız münasibətdən, öz-özünə sırf yaxınlıqdan doğur" fikrini dünyanı görə-görə gəlməyin dürüst ekvivalenti hesab edir. Fazil Rəhmanzadənin fikrincə, bu, düşünə-düşünə yaşamağın əxlaqı keyfiyyət təcəssümüdür. Müəllif yazır: "...Napoleonun bir cümləsini cib dəftərimə yazmışam və son zamanlar ona tez-tez nəzər salır, yenidən dərin fikrə dalıram. İmperator yazır ki, "Bütün məğlubiyyətlərimin ən böyük günahkarı mən özüməm"... Bu, doğrudan da, öz-özünə tənqidi yanaşmanın ən bariz nümunəsidir - duyğuların gözü ilə dəyərləndirmənin faktiki təsdiqidir".

Kitaba daxil edilmiş "Qara Qarayev dühası"nda müəllif özünün təbirincə desək: "Öncə tarixi bir məqama kiçik nəzər" salaraq belə bir təsvirlə başlayır: "Yer öz oxu ətrafında fırlanmaqdadır. Faciələr yaşamağa alışmış xalq təbii ki, quruculuqla, yaratmaqla da məşğuldur. Sənət ustalarımız müxtəlif səpkili, rəngarəng mövzuda, ayrı-ayrı sahələrdə əsərlərinə həyat vermişlər".

Belə bir vaxtda - 1952-ci ilin ılıq yaz günlərində küçələrə vurulmuş əlvan afişalar bakılıları opera və balet teatrına - "Yeddi gözəl" baletinin ilk tamaşasına dəvət edirdi. Fazil Rəhmanzadə yazır ki, baletə maraq böyükdü, çünki onun müəllifi dünya şöhrətinin bir addımlığında duran 34 yaşlı bəstəkar Qara Əbülfəz oğlu Qarayevdi. Hələ "Yeddi gözəl"in böyük səhnədə birinci addımı olacaqdı".

Ölməz əsərlər yaradaraq şöhrətin zirvəsinə ucaldığı bir məqamda bəstəkara mane olmağa cəhd edənlər də var idi. Müəllif çox maraqlı faktlar göstərir. O vaxtlar "Bakı" - "Baku" qəzetləri redaksiyasında şöbə müdiri olan Fazil Rəhmanzadə respublikamızda rəhbər vəzifədə çalışan Şıxəli Qurbanovun böyük bəstəkara dəstəyinin şahidi olub. Fazil Rəhmanzadə də o zaman jurnalist kimi üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlib.




"Azərbyacanın kapriççiosu" səslənəndə" adlı yazısında isə müəllif başqa bir dünyaşöhrətli bəstəkarımızdan - Fikrət Əmirovdan bəhs edib. Bəstəkarla müsahibəsi 1965-ci ildə "Bakı" qəzetində dərc olunub. Müəllif "Duyğuların gözü ilə…" kitabında o günləri belə yada salır: "Yazı deyəsən onun xoşuna gəlmişdi. Bəlkə elə buna görə də ünsiyyətimiz get-gedə sıxlaşdı, istiləşdi. Ona tez-tez müraciət edir, yaradıcılıq planları, üzərində işlədiyi yeni əsərlər, müxtəlif ölkələrə məqsədyönlü səfərləri barədə oxuculara ilkin məlumat verirdim".

Fazil Rəhmanzadənin "Duyğuların gözü ilə… (Jurnalistin cib dəftərindən)" kitabına daxil edilmiş "İlahinin əvəzsiz töhfəsi" Maestro Niyazı, "Əfsanə"nin əfsanəsi" Arif Məlikov, "Buna necə dözürdün, Müslüm..." Müslüm Maqomayev, "Elmin Lütfizadə zirvəsi" Lütfi Zadə, "Kimlər gəldi, kimlər getdi" Hacıməmməd Qafqazlı və digər yazıları ayrı-ayrı görkəmli sənətkarlar, böyük şəxsiyyətlər barədə maraqlı məlumatlarla zəngindir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Londonda azərbaycanlı rəssamın "Yeddi Gözəl" sərgisi təşkil edilib

**Londonda azərbaycanlı rəssam Gülnarə Cəfərin "Yeddi Gözəl" ("Seven Beauties") adlı fərdi rəsm sərgisi təşkil edilib. AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvinin eyniadlı əsərindən ilhamlanan rəssam sərgidə "Yeddi gözəl, yeddi rəng, bir səyahət" konsepti əsasında yaratdığı yağlı boya tabloları nümayiş etdirib.**



Gülnarə Cəfər bildirib ki, sərginin məqsədi Azərbaycan mədəniyyətinin və Nizami irsinin Londonda daha geniş auditoriyaya çatdırılmasıdır:

"Bu layihə mənim üçün təkcə sənət işi deyil, həm də Nizami Gəncəvinin dahiliyini yeni nəslə çatdırmaq missiyasıdır. Hər bir tablo yeddi gözəlin enerjisini, xarakterini və rəng fəlsəfəsini özündə əks etdirir".

Gülnarə Cəfər qeyd edib ki, bu mövzu onun üçün həm sənət, həm də şəxsi bir yolçuluqdur. Rəssamın "Yeddi Gözəl" mövzusuna bağlılığı isə illər əvvəl başlayan bir hekayəyə söykənir. Onun sözlərinə görə, 17 yaşında olarkən, Gəncə şəhərinin arxitektoru ondan "Yeddi Gözəl" mövzusunda bir rəsm çəkməsini xahiş edib. O, bu rəsmi çəkib və məhz həmin əsərin əsasında Gəncədə bu günə qədər qorunub saxlanan mozaik mural hazırlanıb. İllər sonra Vətənə səfəri zamanı həmin muralı yenidən görməsi rəssam üçün yeni ilham mənbəyinə çevrilib.

Sərgi yerli sənətsevərlərin böyük marağına səbəb olub.

# Firəngiz Əlizadənin musiqisi Avropanın ən mötəbər konsert salonlarında səslənir

**Amsterdamda "Şövq" əsərinin Cellobiennale-X festivalında uğurlu premyerasından sonra istedadlı avstriyalı violonçel ifaçısı Kian Soltani Avropa konsert səfərlərində azərbaycanlı bəstəkar Firəngiz Əlizadənin musiqisini ifa etməyə davam edir.**



Televiziya kanallarında və dövri mətbuatda Kian Soltaninin konsert səfərləri geniş işıqlandırılır. O, mütəmadi olaraq Firəngiz Əlizadənin məşhur "Habil Sayağı" əsərini ingilis pianoçusu Benjamin Grosvenor ilə birlikdə təqdim edir. Həmçinin Kian Soltani Firəngiz Əlizadənin daha bir əsəri - "Aşk havası"nı da ilhamla səsləndirir. Bu duet konsertlər artıq Berlin, Münxen, London və Turində keçirilib.

Sevindirici haldır ki, violonçel ifaçılığının yeni ulduzu - Kian Soltani öz repertuarına Firəngiz Əlizadənin "Mərsiyə" adlı Violonçel Konsertini də daxil etmək niyyətindədir.

# Astanada beynəlxalq türk incəsənəti festivalı keçirilir



**Astanada "Ələm əyeni" adlı ilk beynəlxalq türk incəsənəti festivalı keçirilir.**

AZƏRTAC xəbər verir ki, festival türk dünyasının mədəni irsini geniş şəkildə təbliğ etmək, yaradıcı əməkdaşlığı genişləndirmək və ənənəvi incəsənətin müasir formalarını nümayiş etdirmək məqsədilə təşkil olunur. Tədbirdə türk dövlətlərinin tədqiqat institutlarının və mədəniyyət təşkilatlarının nümayəndələri, musiqişünaslar, incəsənət tarixçiləri, etnoqraflar, ənənəvi xalq çalğı alətləri ustaları, magistr və doktorantlar, yaradıcı qruplar, eləcə də dövlət, ictimai və mədəniyyət xadimləri iştirak edirlər.

Festivalda Azərbaycanı Bəstəkarlar İttifaqının üzvü İmina Əliyeva təmsil edir.

Bu festival türk xalqlarının zəngin musiqi ənənələrini vahid məkanda təqdim edir və peşəkar mübadilə üçün fürsət yaradır. Tədbirin proqramına bir sıra elmi, yaradıcı və praktik tədbirlər daxildir.

# Peşəkar güləşçi, təcrübəli məşqçi

**Namiq Mustafayev 1971-ci il noyabrın 20-də Qərbi Azərbaycanda - Ağbaba mahalı Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur. O, beşinci sinfə kimi kənd orta məktəbində təhsil almış, 1982-ci ildə isə valideynləri ilə birlikdə Bakıya köçmüşdür.**



Paytaxtda təhsilini 114 saylı orta məktəbdə davam etdirən Namiq fiziki göstəricilərinə görə güləş müəllimi Əli Paşayevin diqqətini cəlb etmiş və "Neftçi" İdman Sağlamlıq Mərkəzinə dəvət almışdır. Burada idmanın sirlərini öyrənməyə başlayan Namiq qısa müddətdə güləşin yunan-Roma növündə yüksək nəticələr qazanaraq, Azərbaycanın ən perspektivli güləşçilərindən birinə çevrilmişdir. O dəfələrlə müxtəlif yaş qruplarında Azərbaycan birinciliyinin qalibi, 1986-1989-cu illərdə "SSRİ çempionu", Kuba, Yunanıstan, İranda keçirilmiş beynəlxalq turnirlərin və Qran-prilərin qızıl medalçısı və mükafatçısı olmuşdur.

Əldə etdiyi nailiyyətlər sayəsində o, adını Azərbaycanın güləş tarixinə yazdırmış, müxtəlif yaş qruplarında və çəki dərəcələrində daim sabit çıxışları ilə seçilmişdir. Peşəkar güləş karyerası ərzində istər texniki hazırlığı, istərsə də güləş üslubu ilə məşqçilərin və idman ictimaiyyətinin rəğbətini qazanan Namiq 1988-ci ildə "SSRİ idman ustası" adına layiq görülmüşdür.

2002-ci ildə Azərbaycan çempionatında növbəti dəfə qızıl medal qazanan güləşçi idmançı karyerasını başa vurmuş və təcrübəsini gənclərin hazırlığına yönəldərək yunan-Roma güləşi üzrə məşqçi kimi fəaliyyətə başlamışdır. Moskva Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alan Namiq Mustafayev məşqçi kimi şöhrət qazanmışdır.

Hazırda "Neftçi" İdman Sağlamlıq Klubunda çalışan Namiq Mustafayev yetirmələrinin yüksək səviyyədə inkişafına xüsusi diqqət yetirən məşqçi kimi tanınır. Azərbaycan güləşinin tərəqqisinə töhfə verməyi qarşısına məqsəd qoyan məşqçi bu vəzifənin öhdəsindən layiqincə gəlir. Məşqçilik dövründə tələbələri dəfələrlə Azərbaycan çempionatlarının, Avropa və dünya birinciliklərinin qalibləri və mükafatçıları olmuşlar.

Azərbaycan güləşinin inkişafına böyük töhfə verən tanınmış mütəxəssis Namiq Mustafayev bir müddət öncə "Əməkdar məşqçi" fəxri adına layiq görülmüşdür.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi
Kəlbəcər 5 ildir dirçəliş dövrünü yaşayır
Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib
Qarabağ Zəfəri türk xalqlarının qürur mənbəyidir
COP30: nəticələr gözləntiləri doğrultmadı
Gələn ilin büdcəsi uğur vəd edir
8 ölkə, 71 xarici nümayəndə, 150-yə yaxın qonaq

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
gəmilərində "GSM" şəbəkəsi vasitəsilə internetin təmin olunması xidmətlərinin (material daxil) satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 2 dekabr 2025-ci il tarixdə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# Ürək sağlamlığının yeni xəritəsi



Ürək-damar xəstəlikləri uzun illərdir ki, dünyada ölümün əsas səbəblərindən biridir. Tibb elminin son nailiyyətləri isə göstərir ki, ürəyi qorumağın yolları həm gözlənildiyindən daha sadə, həm də bəzən ən müasir texnologiyaların imkanlarına söykənəcək qədər mürəkkəbdir. Dünyanın müxtəlif ölkələrində aparılan tədqiqatlar gündəlik addımlamadan tutmuş gen redaktəsinə qədər fərqli sahələrdə ürək sağlamlığını əhəmiyyətli dərəcədə dəyişdirə biləcək yeni faktlar ortaya qoyur.

Ən maraqlı araşdırmalardan biri Böyük Britaniyada aparılıb. Səkkiz il ərzində 40-79 yaşarası 33 min insanın addımlama vərdişləri izlənilib və məlum olub ki, ürək sağlamlığını qoruyan əsas amil addımların ümumi sayı deyil, gəzintinin fasiləsizliyi və tempidir. Gündə cəmi 5000 addım atan insanlar belə, 10-15 dəqiqəlik fasiləsiz gəzintilər etdikdə ürək xəstəliyi riskini əhəmiyyətli dərəcədə azaldıblar. Sidney Universiteti və Universidad Europea alimlərinin araşdırması da bu nəticəni təsdiqləyir.

Tədqiqatçılar bildirirlər ki, son illər dillərdən düşməyən "gündə 10 min addım" qaydasının heç bir elmi əsası yoxdur. Bu rəqəm 1960-cı illərdə Yaponiyada pedometr reklamının marketinq şüarı kimi ortaya çıxmışdı. Elmi cəhətdən sübut olunan isə budur: gün ərzində hərəkət artdıqca ürək-damar sistemi daha güclü qorunur.

## Yeni elmi inkişaflar

Ürək sağlamlığına təsir edən ən mühüm amillərdən biri qidalanmadır. "The Lancet Regional Health - Europe" jurnalında dərc edilən geniş tədqiqat Fransada 63835 insanı doqquz il boyunca izləyib və nəticələr bitki mənşəli qidaların gücünü açıq şəkildə ortaya qoyub. Tam taxıl, meyvə, tərəvəz və paxlalılarla zəngin təbii pəhriz ürək üçün ciddi qoruyucu təsir göstərir, koronar arteriya xəstəliyi riskini 44 faiz, ümumi ürək-damar xəstəliyi riskini isə 32 faiz azaldır. Tədqiqatçılar bildirirlər ki, məsələ yalnız qidanın bitki mənşəli olub-olmamasında deyil. Əsas məsələ onun emal səviyyəsindədir. Emal olunmuş qidalar, hazır veqan yeməkləri, işlənmiş ətlər, şirinləşdirilmiş içkilər ürək xəstəlikləri riskini 38-46 faizə qədər artırır.

Ürək xəstəliklərinin qarşısını alma sahəsində inqilabi yeniliklərdən biri isə gen redaktəsi ilə bağlıdır. İsveçrənin "Crispr Therapeutics" şirkətinin apardığı klinik sınaqda "ANGPTL3" adlı geni sıradan çıxaran terapiya LDL ("pis xolesterin") və trigliserid səviyyəsini cəmi bir tətbiqlə 50 faiz azalda bilib. Bu nəticə 60 gün ərzində sabit qalıb. Mütəxəssislər bunun gələcəkdə gündəlik xolesterin dərmanlarına ehtiyacı tamamilə aradan qaldıra biləcəyini düşünürlər. Tədqiqatın son mərhələsinə 2026-cı ildə başlanacağı gözlənilir.

Oxşar yanaşma üzərində çalışan digər şirkətlər də var. Məsələn, "Verve Therapeutics"in PCSK9 genini hədəfləyən terapiyası əczaçılıq nəhəngi "Eli Lilly" tərəfindən 1 milyard dollara satın alınıb. Bu sahədə baş verənlər göstərir ki, təkcə nadir xəstəliklər deyil, milyonlarla insanı əhatə edən ürək xəstəlikləri də yaxın gələcəkdə gen terapiyasının gündəlik tibbi praktikaya daxil olması ilə tamamilə yeni mərhələyə keçə bilər.

Təbii amillərin təsiri də gözardı edilə bilməz. Harvard Universitetinin rəhbərlik etdiyi geniş araşdırma göstərib ki, həm çox soyuq, həm də çox isti hava ürək çatışmazlığı olan insanların ölüm riskini artırır. 250 min isveçli xəstə üzərində aparılan 15 illik müşahidələr soyuq havada ölüm riskinin 13-16 faiz, isti havada isə 5-8 faiz artdığını sübut edib. Bu risk kişilər, diabet xəstələri və diuretik (sidikqovucu məqsədilə isitifadə edilən dərman) istifadəçilərində daha yüksəkdir. Alimlər iqlim dəyişikliyi fonunda ekstremal temperatur dalğalarının ürək-damar xəstələri üçün daha ciddi təhlükə yaradacağını xəbərdarlıq edirlər.

Bəzi erkən siqnallar isə daha az nəzərə alınır. Miçiqan Dövlət Universitetinin araşdırması göstərib ki, yaşlı insanlarda qoxubilmə qabiliyyətinin zəifləməsi gələcəkdə ürəyin işemik xəstəliyinin inkişaf edə biləcəyinin xəbərçisi ola bilər. Qoxu hissi zəif olan şəxslərdə ürəyin işemik xəstəliyi riski iki dəfə yüksək olub və bu əlaqə tibbi göstəricilər nəzərə alındıqdan sonra belə statistik olaraq əhəmiyyətli qalıb. Kardioloqlar belə hallarda geniş tibbi müayinəni zəruri sayırlar.

## Xəstəliyin qarşısı yaranmasından əvvəl alınmalıdır

Ürək böhranı qəfil başlayan, həyati təhlükəsi olan kritik vəziyyət olsa da, xəstəliyin özü çox zaman illərlə heç bir simptom vermədən inkişaf edir və yalnız ağırlaşma baş verdikdə özünü göstərir. Bu səbəbdən xəstəliyin qarşısını yaranmasından əvvəl almaq ürək sağlamlığının qorunmasında ən mühüm yanaşmadır. Müasir tibbin ən dinamik və həyati sahələrindən biri olan profilaktik kardiologiya da məhz bununla məşğul olur.

Profilaktik kardiologiyanın ən önəmli xüsusiyyətlərindən biri fərdiləşdirilmiş yanaşmadır. Hər insanın ürək sağlamlığı riski unikal olduğu üçün planlaşdırma da ona uyğun aparılır. Həkimlər qanın lipid göstəricilərindən tutmuş arterial təzyiqin seyrinə, hətta zərərli vərdişlərin intensivliyinə qədər bir çox amili nəzərə alaraq profilaktik strategiya qururlar. Erkən müdaxilə sayəsində potensial təhlükələr nəinki vaxtında aşkarlanır, həm də uzunmüddətli həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlir. Nəticə etibarilə profilaktik kardiologiya təkcə xəstəliyi müalicə etməyən, eyni zamanda insanın öz həyatına aktiv şəkildə sahib olmasına şərait yaradan bir konsepsiyaya çevrilir.

Müasir tibb yeni imkanlar yaratsa da, ürəyi qorumaq çox vaxt öz seçimlərimizdən başlayır. Gündəlik həyat tərzindəki kiçik, lakin ardıcıl dəyişikliklər ürək sağlamlığını qoruyaraq xəstəliyin gedişini kökündən dəyişə bilər. Balanslı qida rasionu, maye qəbulu, gigiyena, stresdən uzaq durmaq və yuxu rejiminə diqqət etmək ürək-damar xəstəliklərindən qorunmaq üçün olduqca önəmlidir. Güclü orqanizm üçün gündəlik qida rasionuna yumurta, ağ və qırmızı ət, süd məhsulları kimi proteinli məhsullar, mövsüm meyvə və tərəvəzləri, xüsusilə zəncəfil, sarıkök, darçın, qırmızı və qara istiot kimi ədviyyatlar əlavə edilməlidir. Qızılgül, cökə, adaçayı, nanə, darçın və hibiskus çayları kimi qış içkiləri də soyuq havalarda istehlak edilməlidir.

Kalsiumla zəngin qidalar, xüsusilə kələm və qalın yaşıl yarpaqlı tərəvəzlər, D vitamini ilə bol yağlı balıqlar, maqneziumla zəngin qoz, fındıq, balqabaq tumu və küncüt daha tez-tez qəbul edilməlidir. Proteinli qidalar hər nə qədər faydalı olsa da, orqanizm heyvan zülalları ilə həddindən artıq yüklənməməli, bitki mənşəli zülallara üstünlük verilməlidir. Mütəxəssislərin dediklərinə əməl edərək ürək sağlamlığını qorumaq, buna bağlı müxtəlif xəstəliklərdən uzaq durmaq o qədər də çətin deyil.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Avropanın Ukraynada sülh üçün təməl yaratmaq səyləri güclənir

## Donald Trampın planı 19 bəndə endirilib

Donald Tramp administrasiyasının Ukraynadakı müharibəyə son qoymaq planı 28 bənddən 19 bəndə endirilib. Britaniyanın "Financial Times" və Amerikanın "The Washington Post" qəzetləri xəbər veriblər ki, dəyişikliklər Cenevrədə aparılan danışıqlardan sonra olunub.

Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov Cenevrədə ABŞ ilə danışıqlar zamanı D.Trampın orijinal planının yenidən işləndiyini bildirib. Amma o hansı düzəlişlərin olduğunu dəqiqləşdirməyib. Ukrayna Prezidenti Aparatının müşaviri Oleksandr Bevz də "Feysbuk"da yazıb ki, "hamının gördüyü 28 maddəlik plan artıq qüvvədə deyil: müddəaların bəziləri təmizlənib, başqaları dəyişdirilib".

Almaniya Kansleri Fridrix Merz Ukrayna ilə bağlı öz layihəsini irəli sürüb və 28 maddəlik planı bir maddəyə endirməyi təklif edib. DW-yə müsahibəsində Merz dondurulmuş Rusiya aktivlərinin Ukraynaya yatırılacağını, bu investisiyalardan əldə edilən vəsaitin yarısının ABŞ-yə gedəcəyini bildirən orijinal plan müddəasından xüsusilə narazılığını bildirib. Kansler bunu "ağlasığmaz" adlandırıb.

Bu arada, Avropanın Ukraynada sülh üçün təməl yaratmaq səyləri güclənir. Ukraynada sülh prosesinə şərait yaratmaq üçün diplomatik səylər yeni səviyyəyə çatıb. Avropa İttifaqı İsveçrədə ilk dəfə danışıqlara qoşulub. "Avropanın iştirakı Ukraynada ədalətli və davamlı sülh üçün danışıqlarda əhəmiyyətli irəliləyiş əldə etməyimizə imkan verib", - deyə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen bildirib. O, əldə edilən konkret uğurları açıqlamayıb. Ukraynada sülhə doğru növbəti addımlar barədə müzakirələr bazar ertəsi bir neçə qitədə davam edib.



Beləliklə, Avropa İttifaqının bütün qurumlarının və onun 27 üzvünün liderləri hibrid formatda qeyri-rəsmi görüş keçiriblər. Görüşdən sonra Avropa Şurasının prezidenti Antonio Koşta və Ursula fon der Lyayen Anqolanın paytaxtı Luandada birgə bəyanatlarla çıxış ediblər. Hər ikisi sülh prosesi ilə bağlı müzakirələrdə yeni müsbət dinamika olduğunu vurğulayıblar.

"Sülh danışıqlarında yeni təkan var. Cenevrədə ABŞ, Ukrayna, Aİ qurumları ilə Avropa nümayəndələri arasında keçirilən görüş əhəmiyyətli irəliləyiş əlaməti olub", - deyə Koşta bildirib. O, İsveçrədəki diplomatiyanın ilkin nəticələrini alqışlayıb və onları düzgün istiqamətdə irəliyə doğru bir addım adlandırıb, lakin bir çox məsələnin hələ də həll edilməli olduğunu qeyd edib.

Ursula fon der Lyayen həmçinin hələ də çox iş görülməli olduğu ilə razılaşıb. "Amma indi irəliləmək üçün möhkəm təməlimiz var. Eyni zamanda birliyimizi qorumalı və Ukraynanın maraqlarını ön plana çıxarmağa davam etməliyik", - deyə Avropa Komissiyasının rəhbəri bildirib. Onun sözlərinə görə, Luandada Aİ liderlərinin görüşü Kiyevə dəstəklə bağlı birliyin təsdiqi idi.

Aİ liderləri blokun əsas mövqelərini açıqlayıblar: Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə hörmət, eləcə də ölkənin gələcəyində Aİ-nin mərkəzi rolu. "Yalnız Ukrayna suveren dövlət kimi silahlı qüvvələri ilə bağlı qərarlar qəbul edə bilər. Onun taleyinin seçimi öz əlindədir", - deyə fon der Lyayen vurğulayıb.

Bu arada, Koşta Aİ-yə birbaşa təsir edən məsələlər - sanksiyalar, genişlənmə və dondurulmuş aktivlər ilə bağlı qərarların yalnız Aİ tərəfindən veriləcəyini bildirib. O, ABŞ də daxil olmaqla, sülh prosesinin bütün iştirakçılarının bu müharibəni dayandırmaq kimi ortaq məqsəd uğrunda birləşən tərəfdaşlar kimi hərəkət etməsinin vacibliyini vurğulayıb.

Son məlumata görə, Ukrayna üzrə yeni xüsusi elçi - ABŞ ordu naziri Den Driskol Əbu-Dabidə Rusiya və Ukrayna rəsmiləri ilə görüşlər keçirir. O, Tramp administrasiyası tərəfindən təqdim edilən və Cenevrədə Ukrayna nümayəndə heyəti ilə görüşlərdən sonra dəyişdirilən Ukraynadakı müharibəyə son qoymaq planını müzakirə edir. Media yazır ki, Driskol və Rusiya nümayəndə heyətinin üzvləri 24 noyabr axşamı görüşüblər və görüş bir neçə saat çəkib. Bildirilir ki, nazir bazar günü ABŞ və Ukrayna arasında razılaşdırılmış sülh planını ruslara təqdim edəcək.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin kollektivi Şəfiqə Rzayevaya anası

**NƏZİRƏ RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov Hüseynbala Mirələmova əzizi

**ƏNVƏR SADIXOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4071**
**Sifariş 2387**

**Qiyməti 60 qəpik**